RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 179 (9924) 26 avqust 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## "Siz böyük lidersiniz"

### Donald Trampdan İlham Əliyevə



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

2

## QIZIL AÇARLI BÖYÜK LİDER



## Dünyanın 1 nömrəli ofisində imzalanan sənədlər

**XXI əsrin əvvəllərindən bəri dünyada diqqətçəkən məqamlardan biri də güclü siyasi lider qıtlığıdır!**

Belə ki:

* ABŞ prezidenti C.Bayden öz prezidentlik müddətini mürgüləyə-mürgüləyə, yıxılıb-dura başa vurdu.

* A.Merkeldən sonra Almaniya özünə uzunömürlü lider tapmaqda hələ də çətinliklər yaşayır.

* Böyük Britaniyada üzün müddət hakimiyyətdə qalan partiya lideri yoxdur, tez-tez dəyişilir.

* Makron Fransanın demokratik imicini, siyasi nüfuzunu yerlə bir etdi, Ermənistanın maraqlarını öz ölkəsinin maraqlarından daim üstün tutdu.

* Avropa İttifaqında da xeyli müddətdir ki, parlaq və nüfuzlu lider görünmür.

**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dünyada ən çox görünən və sevilən liderlərə çevriliblər.**

Zəngin tarixə və qədim dövlətçilik ənənələrinə malik Türkiyənin qlobal dövlətə çevrilməsi normal və təbiidir.

Ərazicə və əhalicə kiçik Azərbaycanın yüksək siyasi nüfuzu, dünya iqtisadiyyatına və siyasətinə verdiyi töhfələr isə onun qısa zamanda əsrlərə bərabər inkişaf yolu keçməsi ilə bağlıdır.

**Bu nailiyyətlərdə Azərbaycan Prezidenti İlham Əliyevin qeyri-adi zəkasının, siyasi bəsirətinin və uzaqgörənliyinin, ən əsası nəyi nə vaxt və necə etmək məharətinin xüsusi rolu vardır!**

*Başqa sözlə, İlham Əliyev nədən başlamağı, keçilən yoldakı maneələri necə və nə sayaq dəf etməyi, öz ideya və istəklərini gerçəkləşdirməkdən ötrü etibarlı tərəfdaşlar tapmağı, istəyinə haçan və hansı nöqtədə nail olacağını qabaqcadan, həm də müdrikcəsinə müəyyən etməyi ustalıqla bacarır.*

**İlham Əliyev xarizmatik şəxsiyyət olmaqla yanaşı, həm də böyük iş qabiliyyətinə, zəngin təcrübəyə, qətiyyətli mövqeyə və möhkəm iradəyə malik nadir siyasətçilərdəndir.**

Bunu onun Azərbaycana rəhbərliyi dövründə gördüyü işlər və nail olduğu möhtəşəm qələbələr də təsdiq edir.

Rusiyanın vasitəçiliyi və zəmanəti ilə imzalanan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat müharibənin ən şiddətli vaxtına təsadüf etdi.

Əslində, bu, təsadüfi deyildi!

Azərbaycan sərhədboyu irəliləyərək bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını azad edəndən sonra heç kəsin gözləmədiyi və ağlasığmaz bir hadisə də baş verdi:

*Azərbaycan Ordusunun igid əsgər və zabitləri keçilməz cığırlarla gedərək, sıldırım qayalara dırmaşaraq demək olar ki, yalın əllə - əsgər lopatkası və xəncərlə döyüşərək Şuşa şəhərindəki erməni hərbi birləşmələrini darmadağın edib qovdular, üçrəngli bayrağımızı onun üzərində dalğalandırdılar!*

Azərbaycan Ordusunun mərkəzdən - Ağdam istiqamətindən hücuma keçəcəyini gözləyən düşmən (əslində, Azərbaycan Ordusu aldadıcı manevr etmişdi) mühasirə vəziyyətinə düşmüş oldu.

Təslim olmayacağı təqdirdə qısa müddətdə iyirmi min əsgər və zabiti məhv ediləcəkdi!

Belə bir vəziyyətdə üçtərəfli Bəyanat imzalandıqdan sonra yenə onun bəzi vacib bəndləri yerinə yetirilmədi.

4

## Xalqın MEHRİBANI



### Birinci vitse-prezidentin fəaliyyəti humanizmə, quruculuğa və rifaha xidmət edir

Azərbaycanın Birinci vitse-prezidenti təyinatı 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla ölkə Konstitusiyasına edilmiş dəyişikliklər əsasında yaradılmışdı. Bu dəyişikliyə qədər Azərbaycanın idarəetmə sistemində belə bir təsisat mövcud deyildi. Özünü doğrultmuş bu mütərəqqi dünya təcrübəsinin Azərbaycanda da yaradılması bir sıra məqsədlərə xidmət edirdi. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün aparılan sistemli islahatlar fonunda vitse-prezidentlik institutu dövlət idarəetməsinin daha səmərəli və çevik hala gətirilməsinə töhfə verir. Daxili və xarici siyasətdə səmərəliliyin əldə olunmasına, bir çox məsələnin, layihənin icrasında daha operativ qərarların qəbuluna, onların icrası vəziyyətinin həssaslıqla nəzarətdə saxlanmasına şərait yaradır, ölkənin iqtisadi və sosial inkişaf strategiyasının gücləndirilməsində mühüm rol oynayır.

Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə məhz Mehriban xanım Əliyevanın təyin edilməsi, əslində, xalqımızın sosial sifarişi idi. Vətəndaşlarımız əmin idilər ki, bu təsisatı ən mükəmməl şəkildə məhz Mehriban xanım formalaşdıra, bu vəzifənin öhdəliklərini layiqincə yerinə yetirib cəmiyyətimizin, insanlarımızın həyatına yeni faydalar gətirə bilər.

Prezident İlham Əliyevin bu qərarı bir tərəfdən Azərbaycan naminə görülmüş işlərin, ardıcıl fəaliyyətlə dövlətimiz, cəmiyyətimiz üçün yaradılmış faydaların layiqli qiyməti, digər tərəfdən isə cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verilən dəyərin ifadəsidir. Mehriban xanım bu təyinatdan sonrakı müsahibələrinin birində qeyd edirdi ki, onun Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağı barədə qərar məhz Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü idi.

10

## Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident!

24 Avqust - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm.

Azərbaycan-Ukrayna dövlətlərarası əlaqələri xalqlarımızın bir-birinə bəslədiyi dərin rəğbətdən, onlar arasında tarixən təşəkkül tapmış dostluq və qarşılıqlı hörmət ənənələrindən qaynaqlanır.

Hazırda bu möhkəm təməllər üzərində qurulmuş münasibətlər inkişaf edir və yeni məzmunla zənginləşir. Siyasi dialoqumuz, iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdə əməkdaşlığımız ikitərəfli əlaqələrimizi səciyyələndirən başlıca amillərdəndir.

Ərazi bütövlüyü və suverenlik məsələlərində ölkələrimizin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsi təqdirəlayiqdir. Azərbaycan dost Ukrayna xalqına bundan sonra da lazımi humanitar dəstək və yardım göstərməyə davam edəcəkdir.

Əminəm ki, Azərbaycan-Ukrayna dostluq əlaqələrinin və qarşılıqlı fəaliyyətinin xalqlarımızın iradəsinə uyğun olaraq daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2025-ci il*

## Sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı

Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfəri bir daha göstərdi ki, ölkəmiz Aşqabadla əməkdaşlığı daha da dərinləşdirmək üçün ardıcıl addımlar atır. Xatırladaq ki, Türkmənistan 1995-ci ildən BMT tərəfindən tanınmış daimi bitərəf statusunu qoruyur. Bu mövqenin davamlılığı ölkəni hərbi bloklardan kənarda saxlayır. Türkmənistanla sıx əməkdaşlıq həm ikitərəfli iqtisadi maraqlara, həm də Türk Dövlətləri Təşkilatının güclənməsinə, Orta Asiyanın Qafqaza daha sıx inteqrasiyasına xidmət edir. Elə üçtərəfli görüşdə də liderlər xüsusi olaraq regional və beynəlxalq məsələlərdə qarşılıqlı dəstək və əməkdaşlığın əhəmiyyətini qeyd etdilər. Azərbaycan, Türkmənistan və Özbəkistan kimi Orta Asiya və Cənubi Qafqaz ölkələri coğrafi baxımdan strateji bir mövqedə yerləşir və bu üstünlük onları Şərqlə Qərb, həmçinin Şimalla Cənub




arasında körpü rolu oynamağa imkan verir. Bir məqamı da qeyd edək ki, Zəngəzur dəhlizinin Cənubi Qafqaza daha faydalı olmasında birmənalı olaraq Türkmənistan faktorunun rolu böyük olacaq.

Faktiki olaraq Bakı-Türkmənbaşı bərə və dəmir yolu xətti, Türkmənbaşı limanının gücləndirilmiş imkanları, eyni zamanda Trans-Xəzər rəqəmsal layihələri iki ölkəni Orta dəhliz və Lapis-Lazuli dəhlizində mühüm tərəfdaş edir. Həmçinin Türkmənistan mənşəli neftin Bakı-Tbilisi-Ceyhan kəməri ilə tranzit həcmləri də ardıcıl surətdə artmaqdadır. Azərbaycan Türkmənistanın enerji resurslarının dünya bazarına çıxarılmasında logistik körpü rolunu oynayır. Türkmən qazının və neftinin Trans-Xəzər dəhlizi vasitəsi ilə Azərbaycan ərazisindən keçərək Avropaya çatdırılması imkanları hər iki ölkə üçün strateji əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, ölkələrimiz arasında əlaqələr yalnız iqtisadi-ticari münasibətlə yekunlaşmır. Xalqlarımız arasında münasibətlər, eləcə də mənəvi bağlılığı tamamlayır. Buna daha bir nümunə Türkmənistanın Füzuli şəhərində məscid inşa etmək niyyətində olmasıdır. Bütün bunlar mənəvi bağlılığı göstərən cəhətlərdir.

12

## Biz qayıtmışıq, Laçın!

"Bu gün Laçın şəhəri görün, necə də gözəldir cəmi 8-9 ay ərzində, heç bir il keçməyib. Biz bərpa işlərinə keçən ilin oktyabr ayında başlamışdıq, artıq bu gün biz Laçında qonaqları qəbul edirik. Azərbaycanın müxtəlif yerlərindən qonaqlar gəlib, xarici ölkələri təmsil edən diplomatlar gəlib. Bu bir daha göstərir ki, xalqımız öz doğma torpağında qurub-yaradan xalqdır".

Bu fikirləri 26 avqust 2023-cü ildə böyük coşqu ilə keçirilən Laçın Şəhəri Günü bayram tədbirini laçınlılarla birlikdə Həkəri çayının kənarında qeyd edən dövlətimizin başçısı İlham Əliyev böyük fəxr hissi ilə dilə gətirib.

Laçının beynəlxalq görüşlərə, tədbirlərə, konfranslara evsahibliyi etməsi də artıq ənənə halını alıb.

Bu il 28 may Müstəqillik Günündə Laçın yenidən dünyanın diqqət mərkəzində oldu. Qardaş ölkələr - Azərbaycan, Türkiyə və Pakistanın liderləri növbəti Zirvə görüşlərini burada keçirdilər. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Şərqi Zəngəzurdan qardaşlıq, həmrəylik, sülh mesajları çatdırdılar. "Bugünkü Zirvə görüşü Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilir. Bunun böyük rəmzi mənası var", - deyə dövlətimizin başçısı sözügedən tarixi zirvə görüşündə bəyan etdi. Laçının artıq bu kimi beynəlxalq görüşlərə, tədbirlərə evsahibliyi etməsinin fonunda dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda gördüyü genişmiqyaslı quruculuq işləri də aydın şəkildə göründü.




Vurğulayaq ki, bu il Müstəqillik Günündə Laçın Beynəlxalq Hava Limanının açılışı da Azərbaycan və Türkiyə liderlərinin iştirakı ilə həyata keçirildi. Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən bu hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur.

MDB Humanitar Əməkdaşlıq Şurasının 8 oktyabr 2024-cü il tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan olunub. Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi işğaldan azad edilən torpaqlarımızın mədəni ruhunun özünə qaytarılmasını əks etdirir.

13

# "Siz böyük lidersiniz"

## Donald Trampdan İlham Əliyevə





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Prezident Donald Trampa şəxsi imzası ilə mənə hədiyyə etdiyi tarixi fotoşəkillərə və üzərində yazdığı xoş sözlərə görə təşəkkür edirəm.

Prezident Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasına, habelə Cənubi Qafqazda və dünyada sülh gündəliyinə verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndirir və buna görə ona bir daha dərin minnətdarlığımı bildirirəm. Donald J.Trump".

## Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb

### Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının dövlət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa, Şimali Amerika və xaricdəki ərazilər üzrə dövlət naziri Stiven Doutini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Stiven Douti Vaşinqtonda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması ilə əlaqədar əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı, ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu bildirdi. Qonaq həmçinin Vaşinqtonda regional nəqliyyat bağlantıları ilə bağlı əldə edilmiş nəticələrin əhəmiyyətinə toxundu.

Stiven Douti ötən il COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsi və qazanılmış uğurlar münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinin və Ermənistanla normallaşma prosesinin irəli aparılması üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Dövlətimizin başçısı COP29 zamanı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin Azərbaycana səfərini və onunla keçirilmiş görüşünü xatırladı.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, siyasi münasibətlərimizin mövcud vəziyyətindən məmnunluq ifadə olundu. İqtisadi, ticari, informasiya-kommunikasiya texnologiyaları, təhsil və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu bildirildi. Azərbaycanla Böyük Britaniya arasında enerji sahəsində əlaqələrə toxunularaq, bu xüsusda ölkəmizlə BP arasında 30 ildən artıq davam edən səmərəli əməkdaşlıq qeyd olundu, bunun həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində uğurla həyata keçirildiyi vurğulandı. BP ilə qarşılıqlı faydalı əməkdaşlığın qarşıdan gələn onilliklər ərzində də davam edəcəyinə ümidvarlıq ifadə olundu.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, №4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddən "ali təhsil müəssisələri tələbələrinin zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığı," sözləri çıxarılsın.

2. 2.0.5-ci yarımbəndə birinci halda "hərbi" sözündən əvvəl "ilkin" sözü, "keçirir" sözündən sonra "və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla digər hərbi vəzifəlilərin hərbi qeydiyyatını aparır" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2025-ci il*

## Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında fiskal siyasətin təkmilləşdirilməsini, dövlət maliyyəsi, mühasibat uçotu, dövlət xəzinədarlığı və dövlət maliyyə nəzarəti sahəsində islahatlar aparılmasını, dövlət büdcəsi gəlirlərinin formalaşma mənbələrinin təkmilləşdirilməsini, dövlət büdcəsi xərclərinin optimallaşdırılmasını, habelə rəqəmsal texnologiyalar və innovasiyalar tətbiq edilməklə səmərəli icra və nəzarət mexanizminin yaradılmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə aid sahələrin, o cümlədən büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin vədigər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu (o cümlədən dövlət maliyyə və qeyri-maliyyə aktivlərinin uçotu), dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu sahələrinin və maliyyə öhdəliklərinin səmərəli idarə edilməsi məqsədilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında dövlət orqanlarının (qurumlarının), dövlət büdcəsindən maliyyə vəsaiti alan dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər təşkilatların maliyyə sənədlərinin elektron qaydada mübadiləsinin təmin edilməsi üçün üç ay müddətində zəruri tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. bu Fərmanın 1-ci, 3-cü, 4-cü və 6-cı hissələri nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının təkmilləşdirilməsi;

3.1.2. bu Fərmanın 1-ci hissəsi ilə yaradılan "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin əsasnaməsinin layihəsi;

3.1.3. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili qaydalarının layihəsi;

3.1.4. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsi və dividend siyasətinin ümumi parametrləri;

3.1.5. dövlət vəsaitindən istifadə üzrə maliyyə qaydalarının pozulması və bu vəsaitdən təyinatı üzrə istifadə edilməməsi hallarına görə məsuliyyətin təkmilləşdirilməsi;

3.2. 2026-cı ildən etibarən, bu Fərmanın 3.1.3-cü yarımbəndində nəzərdə tutulan qaydalara uyğun olaraq, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli büdcə layihələrinin və proqnozlarının, habelə illik gəlir və xərclər smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirsin və icra göstəricilərini təhlil edərək nəticələri barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.3. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitin istifadəsinin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsilə ünvanlı icra edilməsi və onların bütün bank hesablarına Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən müşahidə mexanizminin yaradılması üçün tədbirlər görsün;

3.4. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin maliyyə ekspertizasının aparılmasını təmin etsin;

3.5. dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsini təmin etsin və bu müqavilələrin elektron qaydada bağlanılmasını təşkil etsin;

3.6. büdcədənkənar dövlət fondlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitlərinin təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirsin;

3.7. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların strukturu, ştat vahidləri və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üzrə tədbirlər görsün;

3.8. ümumi dövlət xidmətləri, təhsil, səhiyyə, mədəniyyət, idman, nəqliyyat, rabitə, mənzil-kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi və digər sahələr üzrə dövlət vəsaiti hesabına maliyyələşdirilən xərclərə dair normativlərin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, bu Fərmanın 3.3-cü bəndindən irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119) ilə təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 7.1-ci yarımbəndinə "vergi" sözündən sonra", gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2025-ci il*

# 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2025-ci il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2025-ci il*

# Uşaqların qayğıkeşi



**Hər bir xalqın, hər bir dövlətin sabahı bu gün böyüyən uşaqların timsalında formalaşır. Təkcə bir ailənin sevinci, ümid yeri deyil, həm də millətin və dövlətin gələcək varisi olan uşaqların sağlam, savadlı, vətənpərvər böyümələri ölkənin inkişafı üçün ən mühüm amillərdəndir. Uşaqlara göstərilən diqqət və qayğı əslində dövlətin gələcəyinə qoyulan ən böyük sərmayədir. Çünki bu gün oxuyan, öyrənən, milli-mənəvi dəyərlərə sahiblənən uşaqlar sabah Vətənimizi qoruyacaq, inkişaf etdirəcək, daha güclü Azərbaycan quracaqlar.**

Azərbaycan dövlətinin uşaq siyasəti də bu prinsiplərə əsaslanır. Ulu Öndər Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir" kəlamı bu gün də dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu da öz fəaliyyətində uşaqlara qayğını hər zaman diqqət mərkəzində saxlayır.

Sosial məsələlərin həllinə olan həssas yanaşma, milli-mənəvi dəyərlərə sadiqlik, xeyirxahlıq və mərhəmət Prezident İlham Əliyevin ən yaxın silahdaşı olan Mehriban xanımın həyat fəlsəfəsini tərənnüm edir. Azərbaycan humanizminin simvolu adlandırılan Birinci vitse-prezident hər zaman həssas təbəqədən olan insanlara, şəhid ailələrinə, qazilərə, valideyn himayəsindən məhrum olmuş və sağlamlıq problemləri yaşayan uşaqlara böyük sevgi ilə yanaşır, diqqət və qayğısını əsirgəmir. O, əlamətdar günlərdə, bayramlarda kimsəsiz uşaqlar üçün təşkil olunan mərasimlərdə, şənliklərdə iştirak edir, onlarla əylənir, hətta öz doğum gününü də uşaqlarla bərabər qeyd edir. Mehriban xanımın həyata keçirdiyi nəcib missiya onu bütün uşaqların dostuna, qayğıkeşinə, güvənc yerinə çevirib.

Deyirlər, uşaq qəlbi mehribanlığı, səmimiyyəti, sevgini hiss edə, anlaya bilir. Uşaqların Mehriban xanıma bağlılığının ən böyük səbəbi də elə budur. Onu ürəkdən sevir, yolunu gözləyir, hər görüşdə gül-çiçəklərlə qarşılayır, şeir, mahnı, rəqs töhfələri verirlər. Dünyadakı ən ümdə vəzifənin uşaqlara qayğı olduğunu hər zaman dilə gətirən Mehriban xanım bunu əməlləri ilə də ifadə edir: "Əziz uşaqlar, siz bilməlisiniz ki, Azərbaycan kimi ölkədə yaşamaq xoşbəxtlikdir. Azərbaycan sülhsevər, sabit ölkədir və biz hər zaman öz müstəqilliyimizi, sabitliyimizi və təhlükəsizliyimizi qoruyacağıq. Görülən bütün işlər, atılan addımlar sizin gələcək xoşbəxtliyiniz naminədir. Bizim əsas amalımız gələcəkdə sizi mənəvi və fiziki cəhətdən sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görməkdir".

Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib.

Uşaqlarla bağlı həyata keçirilən layihələrin təşəbbüskarı və dəstəkçisi olan Mehriban xanım Əliyeva sağlamlıqları ilə sınağa çəkilən, xüsusi qayğıya ehtiyacı olan uşaqların da himayədarıdır. Heydər Əliyev Fondunun reallaşdırdığı "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Fondun təşəbbüsü ilə Bakıda müasir Talassemiya Mərkəzi tikilib, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixo-nevroloji Uşaq Mərkəzi, eləcə də digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Mehriban xanım mütəmadi olaraq bu mərkəzləri ziyarət edir, uşaqlarla görüşür, sağlıqları ilə maraqlanır, sağlamlıqlarının bərpası üçün dəstək olur. Birinci xanımın hər görüşü yalnız uşaqlar deyil, həm də valideynlər üçün toy-bayrama çevrilir. Xoş sözlər, dəstək, varlığını hiss etdirmək həyatın çətin üzü ilə sınanan insanlara yollarına davam etmək üçün motivasiya, təkan verir.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Ölkəmizin ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcə də "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bu, Birinci vitse-prezidentin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya



Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə təbriklərimi qəbul edin.

Sizə - təcrübəli ictimai-siyasi və dövlət xadiminə məsuliyyətli vəzifənizdə davamlı səmərəli fəaliyyət, Azərbaycan Respublikasının hərtərəfli inkişafı üzrə çoxtərəfli vəzifələrin həllində uğurlar arzulayıram. Qoy, doğma ölkəniz naminə quruculuq işləri və bütün məqsədlər üzrə qazanılan nailiyyətlər Sizə haqlı olaraq məmnunluq bəxş etsin, Azərbaycan xalqının dəstəyi Sizi yeni faydalı ideyaların, perspektiv layihələrin həyata keçirilməsinə ruhlandırsın və güc versin.

Möhkəm cansağlığı və xoşbəxtlik arzuları ilə Sizə və yaxınlarınıza ən xoş diləklərimi çatdırıram.

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Sizə olan ən yüksək ehtiramımı və doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, çoxtərəfli fəaliyyətinizdə uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında əməkdaşlığın inkişafına göstərdiyiniz daimi diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

İnanıram ki, Həştərxan vilayəti ilə Azərbaycan Respublikasını birləşdirən işgüzar tərəfdaşlıq, dostluq və qarşılıqlı hörmət bundan sonra da hərtərəfli şəkildə möhkəmlənəcəkdir.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm və əziz Mehriban xanım!

Qadın gözəlliyinin və siyasi yetkinliyin zirvəsində qeyd etdiyiniz doğum günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın tərəqqisinə, beynəlxalq mövqelərinin və suverenliyinin möhkəmlənməsinə yönəlmiş yorulmaz fəaliyyətiniz ölkənizdə və onun hüdudlarından kənarda Sizə dərin hörmət qazandırıb.

Siz Azərbaycanın indiki əmin-amanlığı və ərazi bütövlüyünün bərpası üçün inanılmaz dərəcədə çoxlu iş görmüsünüz. Görkəmli siyasi xadim kimi Siz, eyni zamanda yaxınlarınızın isindiyi ailə ocağının qayğıkeş qoruyucusunuz və bu, ən yüksək qiymətə layiqdir.

Fürsətdən istifadə edərək bu əlamətdar hadisə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və ailənizin bütün üzvlərinə salamlarımı çatdırmağı Sizdən xahiş edirəm.

*Sizə uzun və xoşbəxt illər arzulayıram.*

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli Mehriban Arif qızı!

Böyük sevinc hissi ilə Sizi doğum gününüz münasibətilə təbrik edir və ən səmimi arzularımı çatdırıram.

Parlaq, çoxtərəfli ictimai və dövlət xadimi, sevimli həyat yoldaşı və ana kimi Sizə həmişə heyranam.

Siz təmiz və fədakar ürəyiniz, xeyirxah əməlləriniz ilə haqlı olaraq bütün Azərbaycan xalqının məhəbbətini, Özbəkistanda və dünyanın digər ölkələrində böyük hörmət qazanmısınız.

Bu gözəl gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, ailə səadəti, mənəvi harmoniya, bütün yaxşı təşəbbüslərinizi həyata keçirmək naminə tükənməz güc və enerji arzulayıram.

Qoy, həyatınız həmişə sevinc, yaxınlarınızın qayğısı və dəstəyi ilə dolsun!

*Hörmət və ehtiramla,*

***Saida MİRZİYOYEVA,***
***Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından səmimi təbriklərimizi və ən xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

Sizin Azərbaycanın mədəni, humanitar və sosial inkişafına qəti sadiqliyiniz uzun müddətdir ki, təkcə xalqınızı deyil, həm də beynəlxalq ictimaiyyəti ruhlandırıb. Mədəniyyətlərarası dialoqun, təhsilin inkişafını, mədəni irsin qorunub saxlanılmasını təbliğ etməklə Siz qlobal tərəqqinin mərkəzində dayanan mərhəmət, ləyaqət və birlik dəyərlərini yüksəltməyə davam edirsiniz.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi zati-alinizin və cənab Prezident İlham Əliyevin sivilizasiyalararası qarşılıqlı anlaşmanın təşviqində davamlı dəstəyinizi və uzaqgörənliyinizi dərindən qiymətləndirir. Müdrikliyin və humanizmin əbədi simvolu olan Nizami Gəncəvinin irsinə sadiqliyiniz sülhün, dialoqun və sərhədlər boyu əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində birgə səylərimizin təməl daşı olaraq qalır.

Sizin üçün bu əlamətdar gündə misilsiz töhfələrinizə görə zati-alinizə dərin minnətdarlığımızı bildirir və möhkəm cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzulayırıq.

*Ən yüksək ehtiramımızla,*

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:**

***Vayra VİKE-FREYBERQA,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*

***İsmail SERAGELDİN,***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*

***Mariya Fernanda ESPİNOZA,***
*BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri*

***Tarya HALONEN,***
*2000-2012-ci illərdə Finlandiyanın Prezidenti*

***Boris TADİÇ,***
*2004-2012-ci illərdə Serbiyanın Prezidenti*

***Rosen PLEVNELİYEV,***
*2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti*

***İv LETERME,***
*2008-ci, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri*

***Əmr MUSA,***
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi*

***Zlatko LAQUMCİYA,***
*2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri*

***Petar STOYANOV,***
*1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti*

***Tzipi LİVNİ,***
*2006-2009-cu illərdə İsrailin xarici işlər naziri*

***Jan BADERŞNEYDER,***
*"Fortescue Ltd" şirkətinin Direktorlar Şurasının üzvü, "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti*

***Filip VUYANOVİÇ,***
*2003-2018-ci illərdə Monteneqronun Prezidenti*

***İvo YOSİPOVİÇ,***
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti*

***Eka TKEŞELAŞVİLİ,***
*2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini*

***David PAN,***
*Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı*

***Suzan ELLİOT,***
*Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru.*

# IX "Muğam" Televiziya Müsabiqəsinə Laçında yekun vurulub

**Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə ərsəyə gələn IX "Muğam" Televiziya Müsabiqəsinin final mərhələsi Laçın şəhərində keçirilir.**



AZƏRTAC xəbər verir ki, müsabiqənin final mərhələsində gənc xanəndələr Rəis Niftəliyev, Kənan Novruzov, Nərmin Mirzəyeva, Əli Rəşidi, Aycan Şükürlü, Yusif Cəfərbəyli, Aytac Bəybabayeva və azyaşlı ifaçılar Əhəd Ağayev, Kənan Tağızadə, Yusif Mustafayev, Mətləb Əhmədzadə, Murad Nəbizadənin çıxışları dinlənilib. Müsabiqəyə Xalq artistləri Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Nəzakət Teymurova, Sərdar Fərəcov, Vamiq Məmmədəliyev, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi münsiflik edib.

Münsiflər heyətinin məşvərətindən sonra qaliblərin adı elan olunub.

Yeniyetmə ifaçılar arasında birinci yerə Əhəd Ağayev, ikinci yerə Murad Nəbizadə, üçüncü yerə isə Kənan Tağızadə layiq görülüblər.

Gənc xanəndələr arasında isə birinci yeri Aytac Bəybalayeva, ikinci yeri Nərmin Mirzəyeva və üçüncü yeri Rəis Niftəliyev tutublar.

Yeniyetmə və gənclər arasında ilk üç yerin qaliblərinə Heydər Əliyev Fondunun mükafatları və diplomlar təqdim olunub.

Müsabiqənin digər iştirakçılarına da diplomlar verilib.

Tamaşaçılar Əməkdar artist Ehtiram Hüseynovun ifasını dinləyiblər. Sonra qaliblərin ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

Qeyd edək ki, "Muğam" Televiziya Müsabiqəsi Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildən keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə keçirilən muğam müsabiqələri gənc ifaçıların yaradıcılıq potensialının üzə çıxarılmasına, xalq musiqisinin yaşadılaraq yeni nəsillərə ötürülməsinə və Azərbaycanın muğam sənətinin beynəlxalq aləmdə tanıdılmasına mühüm töhfə verib.

# QIZIL AÇARLI BÖYÜK LİDER



## Dünyanın 1 nömrəli ofisində imzalanan sənədlər

XX əsrdə Azərbaycan xalqı bir sıra görkəmli şəxsiyyətlər yetişdirdi.

Onların bir qrupu birləşərək tarixin yaratdığı imkanlardan istifadə etməklə ilk demokratik dövlət yaratdılar.

Təəssüf ki, bu dövlətin ömrü çox qısa oldu - cəmi 23 ay çəkdi.

Sonra on birinci qırmızı ordu gələrək Azərbaycanın dövlət müstəqilliyini əlindən aldı, onu "kiçik qardaş" statusu ilə öz tərkibinə daxil etdi.

**Yetmiş il ərzində Azərbaycan nə müstəqil dövlət oldu, nə öz sərvətlərinə sahiblik edə bildi, nə də öz taleyini özü müəyyənləşdirdi.**

*Əsrin sonlarında qırmızı imperiya süquta uğrayaraq parçalanma həddinə çatdı.*

*Müstəqillik qazanan respublikalardan biri də Azərbaycan oldu.*

**Lakin xalqın öz sınanmış rəhbəri Heydər Əliyevdən ayrı düşməsi, ölkəyə maymaq, qorxaq, naşı və səriştəsiz adamların rəhbərlik etməsi Azərbaycanı məhvolma həddinə çatdırdı, bir dövlət kimi varlığını sual altında qoydu.**

*Yalnız xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtması Azərbaycanı məhvolmadan, əvvəlki dövrlərdəki tək kiçik xanlıqlara bölünmə təhlükəsindən xilas etdi.*

**Ulu Öndər Heydər Əliyev müharibədə atəşkəsə nail oldu, qeyri-qanuni silahlı dəstələri ləğv etdi, əhalidəki külli miqdarda silah-sursatı yığdırdı, ölkədə möhkəm və dönməz sabitlik yaratdı.**

Lakin ömür bundan artığına imkan vermədi.

*Qalan taleyüklü məsələlərin həlli onun siyasi varisi İlham Əliyevin üzərində qaldı.*

**Müasir Azərbaycan dövlətinin banisi və yaradıcısı Ulu Öndər Heydər Əliyev XX əsr Azərbaycanının ən görkəmli siması və dahi şəxsiyyəti olaraq tarixdə öz şərəfli yerini tutdu!**

❖ ❖ ❖

*XXI əsrə müstəqil dövlət kimi qədəm qoyan Azərbaycanın qarşısında çoxsaylı problem və həllini gözləyən vəzifələr dururdu.*

Bunların hamısını birdəfəyə və uğurla həll etməyə nə imkan, nə də kifayət qədər güc vardı.

Ən böyük problem isə Qarabağ münaqişəsinin ədalətli həlli, ölkənin ərazi bütövlüyünün bərpası və doğma torpaqlarından zorla qovulmuş insanların geriyə qaytarılması idi.

Bütün bunların uğurlu həlli üçün isə həm güclü iqtisadiyyat və qüdrətli ordu, həm də müdrik və uzaqgörən siyasətçi, qətiyyətli və möhkəm iradəli lider tələb olunurdu.

**Azərbaycana rəhbərliyinin ilk dövründən cənab İlham Əliyevin atdığı hesablanmış addımlar, yeritdiyi müstəqil daxili və xarici siyasət, nümayiş etdirdiyi qətiyyətli və prinsipial mövqe, habelə özünəməxsus rəhbər və siyasi lider keyfiyyətləri onun bütün bu mürəkkəb və çoxsaylı vəzifəni uğurla həyata keçirəcəyinə dəlalət edirdi.**

İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən bir çox həlli vacib məsələ ilə həm də mütəmadi şəkildə məşğul olurdu.

Özü də bunların hamısı birinci dərəcəli vəzifələr sayılırdı:

* Xalqın sosial rifahı yüksəldilməli idi.

* Ölkədə işsizlik və yoxsulluq 40-50 faiz civarındaydı.

* Məcburi köçkünlərin əksəriyyəti ağır şəraitdə, çadır şəhərciklərində yaşayırdı.

* Ciddi elektrik enerjisi qıtlığı vardı, bu səbəbdən regionlara elektrik enerjisi fasilələrlə verilir, məişətdə və kənd təsərrüfatında ciddi problemlər yaşanırdı.

* Rusiya Azərbaycana verdiyi təbii qazı kəsdiyindən regionlarda böyük çətinliklər yaşanır, əhali qış aylarında əziyyət çəkirdi.

* Yeni ordu qurulmalı və müasir silahlarla təchiz edilməli idi.

*Bütün bunlar əsaslı vəsait və zaman tələb edirdi.*

**Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev özünəməxsus təmkin və uzaqgörənliklə bütün bu problemlərin dayanmadan, yorulmadan həllinə başladı.**

Həm də işlərin hamısını paralel şəkildə aparırdı.

Neftdən gələn vəsaitlər digər sahələrin də inkişafına yönəldilir, ölkənin iqtisadi imkanları yüksəlirdi.

Məqsədyönlü şəkildə görülən işlər getdikcə öz bəhrəsini verirdi.

*Çox keçmədən ölkədəki işsizlik və yoxsulluq 4-5 faizədək endirildi, 116 qaçqın şəhərciyi tikilərək 300 mindən çox məcburi köçkünün həyat şəraiti yaxşılaşdırıldı, elektrik enerjisi ilə təminatdakı çətinliklər və fasilələr ləğv edildi, ölkə üzrə qazlaşdırma doxsan faizi ötdü, yeni yollar şəbəkəsi yaradıldı.*

**Bütün bunlar hamının gördüyü və bildiyi, həyatında hiss etdiyi əhəmiyyətli dəyişikliklər idi.**

*Ordu quruculuğu sahəsində gərgin və çoxcəhətli işlər isə tam məxfi qaydada aparılırdı.*

❖ ❖ ❖

**ATƏT-in Minsk qrupunun məqsəd və niyyətinin torpaqların sülh yolu ilə qaytarılması deyil, Azərbaycan xalqını işğalla barışdırmaq olduğunu yaxşı bilən Prezident İlham Əliyev sülh danışıqlarını davam etdirsə də, problemin hərbi yolla həllinə ciddi və yorulmadan hazırlaşırdı.**

Lakin bu məxfi işlər o qədər gizli saxlanılırdı ki, möhtəşəm və yeni tipli ordu qurulduğu, ən müasir silahların əldə olunduğu və yeni tipli müharibə aparılacağı barədə Ermənistanın nə özü, nə də heç bir dostu xəbər tuta bilmirdi.

**Rusiya və İranın qonşuluğumuzda, Fransanın güclü peyk kəşfiyyatına malik olmalarına baxmayaraq, İlham Əliyev onları məlumatsız qoymağı bacardı, hərbi əməliyyatlar başlayan günədək Ermənistanın heç bir müdafiəçisi və havadarı Azərbaycanın hərbi qüdrətindən və XXI əsrin yeni müharibəsini aparacağından tam xəbərsiz qaldı.**

*Əks halda hərbi əməliyyatların başlanmasına heç bir şəkildə yol verməzdilər!*

**Müharibə isə heç kəsin gözləmədiyi bir sürətlə, heç kəsin ağlına gəlməyən strategiya və taktikanın tətbiqi sayəsində davam edərək cəmi 44 gündə düşmənin darmadağın olunaraq diz çökdürülməsi ilə nəticələndi!**

Yenə də Rusiya ermənilərin dadına çataraq kapitulyasiya aktının imzalanması yolu ilə hərbi əməliyyatları dayandırmağa, Ermənistanı görünməmiş itkilərdən qorumağa nail oldu!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev üçtərəfli Bəyanata imza atmağa razı olsa da, digər addımları mərhələlərlə, uzaqgörən, qətiyyətli yollar ilə ataraq növbəti üç ildə nəzərdə tutduğu bütün planları sonadək icra etdi!**

❖ ❖ ❖

Ordusu darmadağın olan, qanunsuz hərbi birləşmələri və terrorçu qrupları Azərbaycan ərazilərindən qovulan, əhalisi Azərbaycan qanunlarını və vətəndaşlığını qəbul edərək ölkəmizdə yaşamaqdan imtina edən Ermənistan yenə də torpaq iddialarından əl çəkmək istəmirdi.

*Havadarlarının vasitəçiliyinə böyük ümidlər bəsləyərək üçtərəfli Bəyanatın əsas müddəalarının yerinə yetirilməsini şüurlu şəkildə uzatmaqla yenidən geriyə qayıtmaq və separatçı əməllərini davam etdirmək üçün min cür hiyləyə və hoqqabazlığa əl atırdı.*

**Lakin bütün bu oyunbazlıqlar İlham Əliyevin polad iradəsinə dəyərək parçalanıb tökülürdü.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev hesablanmış və ağıllı addımları ilə Ermənistanı havadarlarından təcrid etdi, sonra bir küncə sıxışdıraraq məqsədinə nail oldu!**

Həm də necə?!

*İlham Əliyevin şərtləri əsasında hazırlanan sülh sazişi layihəsinin paraflanması Ermənistanın Bayden administrasiyasının gethagetdə imzaladığı strateji tərəfdaşlıq haqqında memorandumun qollandığı və yeni prezident seçkilərindən sonra basdırıldığı məkanda - Vaşinqtonda baş tutdu.*

**Amma bu dəfə Ermənistanın dostu sayılan Baydenin deyil, Azərbaycanın dostu Trampın iştirakı və vasitəçiliyi ilə!**

Vaşinqtonda görüş iştirakçıları, habelə dünya mediasını izləyənlər ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi münasibətinin, səmimiyyət və mehribanlığının şahidi oldular.

*D.Tramp Azərbaycana və onun rəhbəri İlham Əliyevə dost münasibətini açıq şəkildə nümayiş etdirdi, fəaliyyətini yüksək qiymətləndirdi.*

❖ ❖ ❖

**XXI əsrin əvvəllərindən bəri dünyada diqqətçəkən məqamlardan biri də güclü siyasi lider qıtlığıdır!**

Belə ki:

* ABŞ prezidenti C.Bayden öz prezidentlik müddətini mürgüləyə-mürgüləyə, yıxılıb-dura başa vurdu.

* A.Merkeldən sonra Almaniya özünə uzunömürlü lider tapmaqda hələ də çətinliklər yaşayır.

* Böyük Britaniyada üzün müddət hakimiyyətdə qalan partiya lideri yoxdur, tez-tez dəyişilir.

* Makron Fransanın demokratik imicini, siyasi nüfuzunu yerlə bir etdi, Ermənistanın maraqlarını öz ölkəsinin maraqlarından daim üstün tutdu.

* Avropa İttifaqında da xeyli müddətdir ki, parlaq və nüfuzlu lider görünmür.

**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dünyada ən çox görünən və sevilən liderlərə çevriliblər.**

Zəngin tarixə və qədim dövlətçilik ənənələrinə malik Türkiyənin qlobal dövlətə çevrilməsi normal və təbiidir.

Ərazicə və əhalicə kiçik Azərbaycanın yüksək siyasi nüfuzu, dünya iqtisadiyyatına və siyasətinə verdiyi töhfələr isə onun qısa zamanda əsrlərə bərabər inkişaf yolu keçməsi ilə bağlıdır.

**Bu nailiyyətlərdə Azərbaycan Prezidenti İlham Əliyevin qeyri-adi zəkasının, siyasi bəsirətinin və uzaqgörənliyinin, ən əsası nəyi nə vaxt və necə etmək məharətinin xüsusi rolu vardır!**

*Başqa sözlə, İlham Əliyev nədən başlamağı, keçilən yoldakı maneələri necə və nə sayaq dəf etməyi, öz ideya və istəklərini gerçəkləşdirməkdən ötrü etibarlı tərəfdaşlar tapmağı, istəyinə haçan və hansı nöqtədə nail olacağını qabaqcadan, həm də müdrikcəsinə müəyyən etməyi ustalıqla bacarır.*

**İlham Əliyev xarizmatik şəxsiyyət olmaqla yanaşı, həm də böyük iş qabiliyyətinə, zəngin təcrübəyə, qətiyyətli mövqeyə və möhkəm iradəyə malik nadir siyasətçilərdəndir.**

Bunu onun Azərbaycana rəhbərliyi dövründə gördüyü işlər və nail olduğu möhtəşəm qələbələr də təsdiq edir.

❖ ❖ ❖

Rusiyanın vasitəçiliyi və zəmanəti ilə imzalanan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat müharibənin ən şiddətli vaxtına təsadüf etdi.

Əslində, bu, təsadüfi deyildi!

Azərbaycan sərhədboyu irəliləyərək bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını azad edəndən sonra heç kəsin gözləmədiyi və ağlasığmaz bir hadisə də baş verdi:

*Azərbaycan Ordusunun igid əsgər və zabitləri keçilməz cığırlarla gedərək, sıldırım qayalara dırmaşaraq demək olar ki, yalın əllə - əsgər lopatkası və xəncərlə döyüşərək Şuşa şəhərindəki erməni hərbi birləşmələrini darmadağın edib qovdular, üçrəngli bayrağımızı onun üzərində dalğalandırdılar!*

Azərbaycan Ordusunun mərkəzdən - Ağdam istiqamətindən hücuma keçəcəyini gözləyən düşmən (əslində, Azərbaycan Ordusu aldadıcı manevr etmişdi) mühasirə vəziyyətinə düşmüş oldu.

Təslim olmayacağı təqdirdə qısa müddətdə iyirmi min əsgər və zabiti məhv ediləcəkdi!

Belə bir vəziyyətdə üçtərəfli Bəyanat imzalandıqdan sonra yenə onun bəzi vacib bəndləri yerinə yetirilmədi.

MƏSƏLƏN:

* *Birgə razılığa əsasən, Laçın dəhlizinə Azərbaycanla Ermənistan birlikdə nəzarət etməliydilər!*

Lakin Rusiya sülhməramlı qüvvələri öz statuslarından istifadə edərək Laçın yolunun əvvəlki kimi qalmasını təmin edirdi.

Yəni yenə də Ermənistandan sərbəst şəkildə təminat və təchizat həyata keçirilir, istənilən adamlar və yüklər sərbəst şəkildə ərazilərimizə daxil olurdular!

Hərdən Azərbaycan silahlı qüvvələri bu özbaşınalığın qarşısını almaq istəyəndə Rusiya Sülhməramlı Kontingenti (RSK) araya girir, ermənilərin müdafiəçisinə və qoruyucusuna çevrilirdi.

* *Bəyanatın Qarabağ ərazisindəki qeyri-qanuni hərbi birləşmələrin və terrorçu qrupların çıxarılması ilə bağlı bəndi də icra edilmədi.*

Onlar da RSK-nın qanadı altında əvvəlki qaydada fəaliyyətlərini davam etdirirdilər.

* *Ermənistan Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyərək müxtəlif hoqqabazlıqlara (məsələn, "sülhün kəsişməsi" abstrakt və cəfəng layihəyə) əl atmaqla vaxtı uzatmağa başladı.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə səbir və təmkinlə hərəkət etdi, bəndlərin ikisini 23 aprel və 20 sentyabr 2023-cü il tarixlərdə "dəmir yumruq"la həyata keçirdi!**

*Zəngəzur dəhlizi (TRIPP) barədə də dediyinin həyata keçəcəyinə əminliklə həmin yolun Azərbaycan ərazisindən keçən hissəsinin qrafik üzrə çəkilişinə nail oldu!*

*Niyyəti Azərbaycan ərazilərində əbədi qalmaqla Qarabağ münaqişəsinin daim və qaynar vəziyyətdə olmasına xidmət edən RSK-nın sakit bir tərzdə, mehribanlıqla yola salınması da kimsənin gözləmədiyi hadisələrdən biridir!*

Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dünyanı heyrətləndirən öncəbilmələrindən və özünəməxsus hesablamalarından biri də möcüzəvi şəkildə baş tutdu.

**Erməni diasporuna səs borcu olan və erməni diasporunun pul kisəsindən bəhrələnən C.Baydenin seçkilərdə məğlubiyyətə uğrayacağını və D.Trampın ABŞ Prezidenti seçiləcəyini cənab İlham Əliyev hələ seçkilər başlamamışdan qabaq açıq şəkildə və ucadan bildirmişdi.**

Çoxlarının inanmadıqları və İlham Əliyevin proqnozunu verdiyi hadisə isə onun dediyi kimi də oldu!

* İlham Əliyev həm də bəyan etmişdi ki, D.Tramp yeganə ABŞ Prezidentidir ki, hakimiyyəti dövründə yeni müharibəyə başlamayıb.

* İlham Əliyev həm də D.Trampın Cənubi Qafqaza da lazımi diqqət yetirəcəyini və burada da sülhə nail olacağını irəlicədən söyləyirdi.

*Bu proqnoz da doğru çıxdı!*

**Üçtərəfli Bəyanatda Rusiyanın üzərinə götürərək edə bilmədiyini (bəlkə də etmək istəmədiyini) indi D.Tramp həyata keçirir.**

Həm də öz adına olan bir layihə əsasında:

"Beynəlxalq Sülh və Rifah naminə D.Tramp Marşrutu" (TRIPP).

D.Trampın bu təşəbbüsünü Rusiya da bəyəndiyini açıqladı.

İranın "qırmızı xətti"ni keçən ABŞ Prezidentinə mollaların hansısa formada mane ola biləcəkləri ağlabatan deyil!

Çünki bu yaxınlarda ABŞ öz gücünü Cənubi Qafqazda ağalıq etmək istəyən bu dövlətə göstərdi və yəqin ki, hələ də yadlarından çıxmayıb.

**Göründüyü kimi, cənab İlham Əliyev həm də nədən başlayıb və harada, necə qurtaracağını da illərlə qabaq və dəqiq şəkildə hesablamağı, həm də məharətlə həyata keçirməyi yaxşı bacarır.**

❖ ❖ ❖

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

**İki əsr öncə yaradılan Qarabağ münaqişəsi Azərbaycanın sinəsində açılan sağalmaz yara idi.**

* Bu yaranı türkə düşmən qüvvələr yaratmışdılar.

* Bu yaranı türk dünyasını bir-birindən ayırmaqdan, quru əlaqələrini kəsməkdən ötrü yaratmışdılar.

* Bu yaranı Azərbaycanı daim təzyiq, itaət altında saxlamaq üçün yaratmışdılar.

*Və tarixin müəyyən, taleyüklü dönəmlərində münaqişəni qızışdıraraq yaradan qan axıdırdılar.*

**Həm də bu münaqişə vasitəsilə Azərbaycandan torpaq qoparaq yurdsuz, vətənsiz Ermənistana dövlət yaratmışdılar.**

Ötən əsrin doxsanıncı illərində Azərbaycan yenidən dövlət müstəqilliyi qazananda onu itaətdə saxlamaq, marionet dövlətə çevirmək üçün yenidən münaqişəni alovlandırdılar.

Birinci Qarabağ müharibəsi dövründə iyirmi min vətən övladı şəhidliyə qovuşsa da, torpaqları qorumaq mümkün olmadı...

Yenidən ərazimizin iyirmi faizini qopararaq ermənilərə hədiyyə etdilər!

*Azərbaycan heç zaman işğalla barışmadı, heç zaman torpaqlarından əlini üzmədi.*

Vaxtaşırı atəşkəs pozularaq şəhidlər verildi.

Sülh danışıqları imitasiya xarakteri daşıdı.

... Ermənilərin torpaqlarımızı könüllü tərk etməyəcəkləri bəlli idi...

**Nəhayət, qisas məqamı, həlledici məqam gəlib çatdı!**

**İlham Əliyev "dəmir yumruğ"unu sıxaraq xalqı ayağa qaldırdı!**

*Orduya "irəli!" əmrini verərək özü öndə getdi!*

*Eyni zamanda üç cəbhədə - hərb, diplomatiya və informasiya meydanında çarpışdı.*

**Hər üçündə də tarixə qızıl hərflərlə yazılan Zəfər əldə etdi!**

**Düşməni qarşısında diz çökdürdü, ona kapitulyasiya aktını imzalatdırdı!**

Lakin havadarları və dəstəkçiləri hayları yenə müdafiə etdilər. Üçtərəfli Bəyanatın bəndləri yerinə yetirilmədi.

Yenidən "dəmir yumruq" işə düşdü!

Azərbaycanın ərazi bütövlüyü, Dövlət suverenliyi və Konstitusiya əsasları da bərpa olundu.

Ermənistan yenə sülh müqaviləsinin imzalanmasını uzatdı və yubatdı.

**Ermənipərəst vasitəçilərdən imtina edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu dəfə ABŞ-nin, Prezident Donald Trampın vasitəçiliyini qəbul etdi.**

❖ ❖ ❖

Prezident İlham Əliyevin Vaşinqton səfərində imzaladığı mühüm sənədlərə və baş verən hadisələrə bir daha diqqət çəkirik:

* "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı!

* "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflandı!

* Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri birlikdə ATƏT-in Minsk qrupunun bağlanması ilə əlaqədar ATƏT-in hazırda fəaliyyətdə olan sədrinə müraciət ünvanladılar.

* ABŞ Prezidenti D.Tramp tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam verildi.

* "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçiriləcəyi təsbit olundu.

Daha iki mühüm məqam:

* Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa Beynəlxalq Nobel Sülh Mükafatı verilməsi üçün Ermənistanın baş naziri N.Paşinyanla Nobel Sülh Mükafatı Komitəsinə birgə müraciət olunmasını təklif etdi.

* ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə Ağ Evin rəmzi qızıl açarını bağışladı.

Sonuncu hadisə ilə bağlı bir neçə məqama da diqqət çəkirik.

**Əvvəlla, görüş zamanı ABŞ Prezidenti Donald Tramp İlham Əliyev haqqında dəyərli fikirlər söylədi:**

* "Siz güclü və ağıllı insansınız, regionunuz dünyanın gözəl bölgəsidir".

* "Siz böyük lidersiniz".

* "Siz gözəl danışıq aparırsınız".

**Ağ Evin rəmzi açarını Azərbaycan Prezidentinə təqdim edən ABŞ Prezidenti D.Tramp dedi:**

"Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm".

**Doğrudan da, Azərbaycan Prezidenti İlham Əliyev rəmzi qızıl açarı alan üçüncü şəxsiyyətdir.**

*Bu həm də o deməkdir ki, Ağ Evin qapıları daim Azərbaycan Prezidentinin üzünə açıqdır!*

ABŞ-də keçirilən möhtəşəm görüşdə Azərbaycanın bütün maraqları təmin olundu, Azərbaycanın şərtlərini ehtiva edən zəruri sənədlər imzalandı!

Artıq möhkəm və etibarlı sülh yaradılacağına zərrə qədər də şübhə yoxdur!

**Bu qələbəni və sülhü Azərbaycana xalqımızın böyük oğlu, XXI əsrin dahisi İlham Əliyev bəxş etdi!**

*İlham Əliyev torpaqları da qaytardı, ərazilərimizi separatçılardan da tam təmizlədi, Naxçıvana birbaşa yolun və Zəngəzur dəhlizinin (TRIPP) də açılacağına nail oldu!*

**Bu, təkcə Azərbaycana deyil, həm də bütün türk dünyasına göstərilən ən böyük xidmətlərdən biridir.**

**Bəxtiyar SADIQOV**

# Humanizm, tolerantlıq, şəfqət və xeyirxahlıq mücəssəməsi



**Mehriban xanım Əliyeva haqqında yazarkən, ilk növbədə, onun əsil-nəsilli bir ailədə doğulub-böyüməsi, mükəmməl təlim-tərbiyə alması göz önünə gəlir.**

Gənc yaşından Ulu Öndər Heydər Əliyev kimi böyük şəxsiyyətin ən yaxın çevrəsində mənimsədiyi siyasi təlim, qazandığı əhatəli sosial-mənəvi baxış, akademik Zərifə xanımdan əxz etdiyi ictimai-mədəni davranış, insani nəciblik və mərhəmət, Mir Cəlal kimi görkəmli yazıçı və Nəsir İmanquliyev kimi ustad jurnalist olan babalarından görüb götürdüyü milli ziyalılıq düşüncəsi, akademik Arif Paşayev və professor Aida xanım İmanquliyeva kimi valideynlərindən aldığı nümunəvi ailə dəyərləri Mehriban xanım Əliyevanın yetişdiyi indiki ali məqamın illər boyu formalaşan möhkəm özülü olmuşdur. Bütün bunlar dünyada tanınan nüfuzlu ictimai-siyasi xadim olaraq Azərbaycanın birinci xanımının milli ziyalılıqda yeni bir tarixi örnək yaratmasının da təbii və coşqun qaynağıdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu dünyada öz çoxmiqyaslı, xeyirxah fəaliyyəti ilə seçilən, böyük layihələrə imza atan vətəndaş cəmiyyəti qurumudur. Ulu Öndərin adını daşıyan, onun ideya və əməllərinin təntənəsinə xidmət işində öncüllük və örnək göstərən bu nadir təsisat ölkədə və dünyada səhiyyə, təhsil, elm, mədəniyyət, mənəviyyat sferalarında müxtəlif səpkili tədbirləri gerçəkləşdirməklə, bir sıra yönlərdə dövlət siyasətinin həyata keçirilməsində hərəkətverici amilə çevrilməklə misilsiz bir nüfuz qazanmışdır.

Mehriban xanım Əliyeva Azərbaycan adət-ənənələrinə hörmət, diqqət və sayğı ilə yanaşan güclü qadın kimi çağdaş dünyada bənzərsiz bir rəhbər xarakterini əks etdirir. Onun çoxşaxəli və səmərəli fəaliyyəti, nəinki qadınlar üçün, eləcə də gənc qızlar üçün örnək olaraq bir sıra ali dəyərlərə söykənir. Mehriban xanım Azərbaycan xalqının, dövlətinin maraqlarını beynəlxalq aləmdə əks etdirməklə yanaşı, müasir Azərbaycan qadınının ictimai-siyasi obrazını da dünyaya tanıdır. Ölkəmizin siyasi-iqtisadi, sosial-ictimai, mədəni-mənəvi tərəqqisində xüsusi yeri, xidmətləri olan Azərbaycanın birinci xanımı hazırda dünyada öz sözü, yüksək nüfuzu olan lider qadın örnəyinə çevrilmişdir.

Mehriban xanım Əliyeva ölkəmizdə milli dövlətçilik institutunun formalaşmasına böyük töhfələr verən siyasi-mədəni rəhbər, çoxyönlü fəaliyyət meydanı ilə dünyada tanınan, qəbul edilən humanist xadimdir. Çağdaş Azərbaycan tarixinə onun adı modern qadın rəhbər, fenomen qadın lider kimi yazılmışdır. 2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü əsasında konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə ölkədə Birinci vitse-prezidentlik institutu yaradılmışdır. Dövlət idarəçilik sistemində yeni təsisatın yaradılması Prezident İlham Əliyevin islahatlar kursunun təzahürü idi.

Dövlət idarəçiliyində funksional vahid kimi Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir demokratik simasının yeni və mütərəqqi əlaməti oldu. Ötən müddət ərzində əldə olunmuş müsbət nəticələri nəzərə alaraq, əminliklə qeyd oluna bilər ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin səmərəliliyini və çevikliyini artırıb. Birinci vitse-prezidentlik institutunun təsis olunması demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edən siyasi islahatların tərkib hissəsidir. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı sərəncama əsasən, Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev dedi: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır". Vətənə sədaqət, milli dəyərlərə hörmət və uğurlu fəaliyyət Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdir. Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması ölkənin müasir tarixinin mühüm hadisəsidir.

Mehriban xanım Əliyeva öz fəaliyyətində hər zaman millətin dili, mədəniyyəti, tarixi və milli-mənəvi dəyərlərinə sadiq qalmışdır. Birinci vitse-prezident özünün çoxşaxəli fəaliyyətini bu amillər üzərində qurmuşdur. Bütün varlığı və əzmkar fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına xidmət edən Mehriban xanım Əliyeva dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir. Milli dəyərlərə sadiqlik birinci xanıma xalqın rəğbət və sevgisini qazandırmışdır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycanda savadlı, peşəkar və sağlam yeni nəslin formalaşmasına xidmət edən önəmli təşəbbüslərlə daim çıxış edir. Ölkə əhalisinin sağlamlığının qorunması naminə daim müxtəlif təşəbbüslərlə çıxış edir və sosial baxımdan həssas əhali qruplarının problemlərinin həlli istiqamətində tədbirlər görür. Azərbaycan xalqının yaratdığı milli mədəniyyət və incəsənət nümunələrinin dünyada tanıdılması istiqamətində layihələri reallaşdırır. Ölkədə idman hərəkatının davamlılığını təmin edir. Ekoloji problemlərin həllinə dəstək göstərir. İşğaldan azad olunan torpaqların bərpasında humanitar missiyanı həyata keçirir.

Azərbaycanda aparılan siyasətin mərkəzində, məhz insan amili dayanır və ölkə rəhbərliyinin sosial siyasətinin fəlsəfəsi bütün vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

Respublikada həyata keçirilən sosial siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf, həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, bu inkişaf əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib. Səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının nəzarətdə saxlanıldığını göstərir.

"İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var", - deyən Prezident İlham Əliyevin fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır. "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və digər sənədlər insan həyatı və sağlamlığına zərbə vura biləcək halların qarşısının alınmasına yönəlib. Tibb müəssisələrinin yeniləşdirilməsi, müasir tələblərə cavab verən avadanlıqlarla təchizat, əqli-fiziki cəhətdən qüsurlu olan şəxslərə maddi-mənəvi dəstək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanizminin əsasında həllini tapıb. Birinci xanımın gerçəkləşdirdiyi layihələr bəhrəsini verir və fondun təşkilatçılığı ilə bir-birinin ardınca keçirilən tədbirlər, görüşlər, simpozium və konfransların hər biri əhalinin sağlam həyatının təminatı məqsədilə reallaşır.

Dünyanın bir çox ölkələri ilə əməkdaşlıq edən fondun iştirakı ilə ölkəmizə gətirilən tibbi avadanlıqlar müasir üsulla müalicə metodlarının tətbiqinə yol açıb. Fondun həyata keçirdiyi "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" kimi proqramları çərçivəsində görülən işlər əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Görülən işlər Azərbaycanın inamlı gələcəyinə bir addımdır. Sağlamlığın qorunması istiqamətində beynəlxalq tədbirlər çərçivəsində Heydər Əliyev Fondu Dünya Diabet Günü kampaniyasına qoşulmuş, əhalinin sağlamlığının qorunması, xüsusilə uşaqların fiziki cəhətdən sağlam böyüməsinə lazımi səviyyədə diqqət yetirilməsi üçün UNICEF-in birgə təşkilatçılığı ilə keçirilən anemiya və talassemiya üzrə "dəyirmi masa"da bu istiqamətdə bir çox mühüm problemlər müzakirə edilmişdir.

Xatirimdədir, Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının, o cümlədən universitetin 500 çarpayılıq Tədris-Cərrahiyyə Klinikasının inşa edilməsi və müasir avadanlıqlarla təmin edilməsində dövlət başçımızla bərabər hörmətli Mehriban xanımın böyük diqqət və qayğısını gördük. Bu klinikaların təntənəli açılış mərasimlərində cənab Prezidentlə birgə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etməsi tibb təhsilinə olan diqqət və qayğının əyani göstəricisi idi. Məhz bu xidmətlərinə görə Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə Mehriban xanım Əliyeva bu beynəlxalq təşkilatın ali mükafatına layiq görülmüşdür.

Koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığının qorunması məqsədilə Prezident İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi və qayğısı ilə virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlər həyata keçirilməyə başlanmışdı. Mehriban xanım Əliyeva öz fəaliyyətində hər zaman millətin dili, mədəniyyəti, tarixi və milli-mənəvi dəyərlərinə sadiq qalmışdır.

Dövlətimizin başçısının müasir çağırışlara uyğun həyata keçirdiyi hərtərəfli islahatlarda, mühüm layihələrin müvəffəqiyyətlə reallaşdırılmasında, humanizm, tolerantlıq ideya və prinsiplərinin uğurla inkişaf etdirilməsində, dünyamiqyaslı mühüm tədbirlərin və mötəbər beynəlxalq forumların yüksək səviyyədə təşkil olunması və keçirilməsində Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Birinci vitse-prezident bu şərəfli dönəmdə Müzəffər Ali Baş Komandanın ən sadiq silahdaşı kimi yorulmaz fəaliyyət göstərib, xalqımızın ədalətli mübarizəsi barədə həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb, onun vətənpərvər çağırış və müraciətləri hər birimizi milli maraqlarımız naminə düşmənlə mümkün platformalarda, o cümlədən informasiya məkanında mübarizəyə səfərbər edib. Mehriban xanım Əliyeva özünün çoxşaxəli fəaliyyətini bu amillər üzərində qurmuşdur. Bütün varlığı və əzmkar fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına xidmət edən Mehriban xanım Əliyeva dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir.

***Əhliman ƏMİRASLANOV,***
***SSRİ Dövlət mükafatı laureatı, akademik***

# Azərbaycan naminə

## Mehriban xanım Əliyevanın fəaliyyəti Ulu Öndər ideyalarına sədaqətin, Prezident İlham Əliyevin siyasətinə dəstəyin mükəmməl örnəyidir

**Azərbaycan dövləti və xalqı İlham Əliyevin rəhbərliyi altında tarixinin ən qüdrətli mərhələsini yaşayır, Ümummilli Liderin müəyyənləşdirdiyi kursla davamlı inkişaf və yüksəliş yolu ilə inamla addımlayır. Bu taleyüklü prosesdə Prezidentin ən yaxın silahdaşı isə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.**

Mehriban xanımın adı Azərbaycanın müasir dövlətçilik tarixində əhəmiyyətli yer tutur. Xalqımızın müstəqillik dövründə milli-mədəni intibahında, haqq səsimizin beynəlxalq miqyasda yayılmasında aparıcı mövqe nümayiş etdirən Birinci vitse-prezident son 5 ilə yaxın dövrdə isə böyük quruculuq işləri ilə fəaliyyətinin yeni zirvəsinə yetişib.

Bütövləşən və konstitusion quruluşu, suverenliyi tam təmin olunan Azərbaycanda Zəfər strategiyasının reallaşmasında, milli hədəflərin gerçəkləşməsində Mehriban xanımın müstəsna xidmətləri var. Haqlı olaraq cəmiyyətdə Zəfərin zərif gücü kimi səciyyələnən, Qarabağ və Şərqi Zəngəzurun quruculuğunda örnək olan Birinci vitse-prezident öz fədakar missiyası ilə əbədi yaşayacaq nümunələr yaradır və əsl azərbaycanlı xanım obrazının ən mükəmməl təcəssümünü formalaşdırır.

Tarixi keçmişimizə nəzər yetirsək görərik ki, Azərbaycan dövlətçiliyinin inkişafında, xalqın mənəvi dəyərlərinin formalaşmasında müdrik, qəhrəman qadınların imzası hər zaman əlahiddə mövqedə olub. Onlar dövlətin, xalqın, cəmiyyətin taleyində mühüm rol oynayıb, bir çoxlarının adları isə hətta bəşər tarixinə yazılıb. Əsrlərə, minilliklərə söykənən bu tarixi missiyanı bu gün öz zərif çiyinlərində daşıyan isə Azərbaycana ləyaqətli xidmət edən Mehriban xanım Əliyevadır. Müstəqil Azərbaycanın inkişafının dərinləşməsinə, dövlətçilik ənənələrinin möhkəmlənməsinə, cəmiyyətin ictimai-siyasi, mədəni həyatında və idarəetmə sistemində davamlı yeniliklərin tətbiqinə əvəzsiz töhfələr bəxş edən Mehriban xanımın bu fədakar fəaliyyəti həm də Azərbaycan qadınının mükəmməl obrazını gələcək nəsillərə ötürür.

Xeyirxahlığı və nəcibliyi, humanizmi və ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir. Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın dinamik inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin qayəsini təşkil edir. Onun çoxşaxəli fəaliyyəti Azərbaycanın yüksəlişinə, mədəniyyətimizin qorunmasına və təbliğinə, dövlətimizin sosial siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələr verir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram, ideyalarını yaşatmaq üçün yaradılan fonda rəhbərlik edən Mehriban xanım Əliyevanın təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr, saysız-hesabsız xeyriyyəçilik tədbirləri həm ölkə daxilində, həm də ondan kənarda böyük əks-səda doğurur. Fond yarandığı gündən ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrinə dərindən nüfuz etmiş çoxşaxəli layihələri ilə dövlət-vətəndaş həmrəyliyinin bariz nümunəsinə, əsl mərhəmət, şəfqət ünvanına çevrilmiş, ölkəmizdə xeyriyyəçilik hərəkatına böyük təkan vermişdir. Fondun təhsil, səhiyyə, mədəniyyətlə bağlı layihələri mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna xidmətə malikdir. Təhsilin inkişafı sahəsində fondun və şəxsən Mehriban xanımın vətənpərvərlik xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri ilə yüzlərlə orta məktəb binası tikilmişdir.

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunub saxlanmasıdır. Ulu Öndərin ölməz ideyaları və onların Prezident İlham Əliyev tərəfindən həyata keçirilməsi ölkəmizin mədəni həyatında baş verən köklü dəyişikliklərin, böyük yüksəlişin əsasını təşkil edib.

Azərbaycan mədəniyyəti hazırda yeni islahatlar dövrünü yaşayır. Bu sırada Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən proqram və layihələr Azərbaycan mədəniyyətinin qorunmasına və dünyada təbliğ olunmasına layiqli töhfələr verir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fond tərəfindən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün sistemli işlər görülür. Bu baxımdan çox haqlı olaraq Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və Mehriban xanım Azərbaycan mədəniyyətinin hamisi kimi qəbul olunur.

Mehriban xanım Vətən yolunda qəhrəmanlıq göstərən, Azərbaycanın ərazi bütövlüyünün bərpası, azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın ailələrinə, sağlamlığını itirən zabit və əsgərlərə, vətən müharibəsi iştirakçılarına yüksək diqqət və qayğı göstərməyi özünün həyat amalı kimi qəbul edib. Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. Mehriban xanım Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünyada böyük fədakarlıqla, uğurla təbliğ edir, qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir.

Azərbaycan ictimaiyyətinin dərin rəğbətini qazanan, köməyə, yardıma ehtiyacı olanların hər zaman yanında olan Heydər Əliyev Fondu Ulu Öndərin amallarını rəhbər tutaraq ölkəmizin həyatı ilə bağlı ən mühüm layihələrə imza atmış və atmaqdadır. Bunların nəticəsidir ki, fond Ümummilli Liderin arzu və istəklərinin, onun ideyalarının həmişəyaşarlığını əks etdirən əsas mərkəzə çevrilib.

İşğaldan azad olunan torpaqlarımızda erməni terrorçuları tərəfindən darmadağın edilmiş mədəni-dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi Mehriban xanımın gündəlik diqqətdə saxladığı prioritet vəzifədir. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam və Zəngilan şəhər məscidləri, Daşaltıda, Hadrutda və Şuşada yeni məscidlərin tikintisi, görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışı, Xalçaçılıq Qalereyası, "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri və bu çərçivədə "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir", "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" və "Yaddaş, Fotoqrafik tarix" sərgiləri qısa zaman çərçivəsində reallaşan layihələr Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti yüksək töhfəsidir.

Mehriban xanım Əliyeva bu gün də çoxşaxəli fəaliyyəti ilə ölkəmizin həyatında böyük xidmətlərə imza atıb, dövlətinə şərəflə xidmət edir, xalqının böyük rəğbət və sevgisi ilə ucalır. Onun humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Bu ali məramın nəticəsi idi ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin fevralında Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunub. Bu təyinat cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılandı. Ümumxalq referendumunda təsis edilmiş bu vəzifəyə milyonların sevgisini qazanmış bir şəxsin təyin olunması Azərbaycanın dövlət idarəçiliyi sistemində keyfiyyətcə yeni və uğurlu mərhələnin başlanğıcı kimi dəyərləndirildi. Yeni vəzifəsində cəmiyyətə ilk mesajlarını vermiş Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva demişdir: *"Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır... Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu, bütün dövlət qurumlarında çalışan insanların əsas borcudur və vəzifəsidir".*

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın qlobal bəşəri dəyərlər, sülh və tolerantlığın təbliğində, fərqli mədəniyyətlər və dinlər arasında dialoq və əməkdaşlıq formatının yaranmasındakı rolu da danılmazdır. Onun təşəbbüsü və dəstəyi ilə elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə həyata keçirilən irimiqyaslı humanitar layihələr, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri də əhatə edir, geniş əks-səda doğurur. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də ölkənin digər əyalətlərində silsilə humanitar aksiyalar bu sıradandır. Mehriban xanımın ölkələrin maddi-mədəni dəyəri sayılan tarixi abidələrin təmirində yaxından iştirakı da xüsusi əhəmiyyət kəsb edir. Humanizm, həmrəylik və dözümlülük dəyərlərinə sadiqlik nümayiş etdirən Heydər Əliyev Fondu Azərbaycanın dünyada tolerantlığın mərkəzinə çevrilməsində əvəzsiz rol oynayır. Fondun xətti ilə Versal sarayının bir hissəsi və Strasburqda orta əsrlərə aid kilsə, Luvr muzeyi qalereyalarından biri, Roma katakombaları bərpa edilib, Berlin qəsrində, Kapitoli Muzeyində mühüm yenidənqurma işləri görülüb. Vatikan arxivlərində Azərbaycan Orta əsrlər əlyazmalarının bərpası və onların rəqəmsallaşdırılması tədbirləri uğurla davam etdirilir. Fond Hollandiya, Gürcüstan, Misir, Rumıniya, Rusiya və digər ölkələrdə də məktəblərin tikintisi və bərpasında yaxından iştirak edir. Mehriban xanımın rəhbərliyi ilə fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib. Bunların nəticəsidir ki, Mehriban xanım haqqında "Washington Times" qəzeti belə yazır: *"Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır"*.

Bu gün tam əminliklə söyləmək olar ki, yüksək dövlət vəzifəsində fəaliyyət göstərən Mehriban xanım Prezidentin də, ona inanan, ümid bəsləyən insanların da etimadını layiqincə doğruldur. O, gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur.

Mehriban xanımın hər bir vətəndaşımızın yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Prezident İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstəyin real nümunələridir. Bütün sahələrdəki fəaliyyətini uğurla davam etdirən Mehriban xanım milli tərəqqi və intibah prosesinə hər gün öz layiqli töhfələrini verməkdədir.

Deyilənlərin və bütün bu keyfiyyətlərin cəmini xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Mehriban xanım Əliyevanın müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında əzmlə çalışması, sadiqliyi, Prezident İlham Əliyevin ictimai dəstəkçisi və ən yaxın silahdaşı olmasıdır.

Bir sözlə, Azərbaycanın Birinci vitse-prezidenti kimi göstərdiyi uğurlu fəaliyyət, gördüyü işlər, ömür yolu, sözün tam mənasında, Vətənə xidmət nümunəsidir. Mehriban xanımın vaxtilə dediyi *"Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam"* sözləri bu gün real nəticələrlə öz təsdiqini tapıb.

Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açmışdır. Bütün bu illər ərzində gərgin əmək sayəsində görülən işlər, həyata keçirilən çoxsaylı layihələr, əldə edilən uğur və nailiyyətlər, ən əsası da milli dəyərlərə sadiqlik Mehriban xanım Əliyevaya xalqın rəğbət və sevgisini qazandırmışdır. Bütün varlığı və əzmkar fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına, xalqın rifahına, keçmişimizdən bu günümüzə bizə işıq salan mədəniyyətimizin, dövlətçiliyimizin qorunmasına, yaşadılmasına xidmət edən Mehriban xanım Əliyeva bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində özünə əbədi taxt qurmuşdur.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Vətənə xidmət nümunəsi



**"Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır". Ulu Öndərimiz Heydər Əliyevə məxsus olan bu dəyərli fikirlər müstəqil Azərbaycanın həyatında qadınların roluna dövlət səviyyəsində verilən yüksək qiyməti əks etdirir.**

Prezident İlham Əliyev də qadınların cəmiyyətin inkişafındakı rolunu qiymətləndirərək qeyd edir ki, tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər. Bəli, böyük tarixi, mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim yüksək ehtiramla yanaşmışdır. Azərbaycan qadını çətin, keşməkeşli inkişaf yolu keçərək bütün mərhələlərdə ilklərə imza atmağa müvəffəq olmuşdur.

Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali keyfiyyətlər Mehriban xanım Əliyevanın şəxsiyyətində daha parlaq təcəssümünü tapır. Mehriban xanım Əliyeva akademik Arif Paşayevin və şərqşünas alim Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açmış, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin ocağından nur almışdır. Onun həyat müəllimləri isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və görkəmli oftalmoloq - alim, akademik Zərifə xanım Əliyeva olmuşlar.

Xalqın taleyini öz taleyində yaşayan Mehriban Əliyevanın mənəvi, ictimai və siyasi vəzifəni, məqsədi ülvi bir sevgiylə daşıması, vətəninə, xalqına qəlbinin sonsuz istəyi ilə xidmət etməsi ictimai mühitə gəldiyi ilk vaxtlardan görünməyə başlamışdır. Mehriban xanım hələ ilk gəncliyindən öz çalışqanlığı ilə hər yerdə və hər zaman birincilik statusunu qazanmış, müvəffəqiyyətlərə nail olması ilə fərqlənmişdir.

Onun ictimai fəaliyyətə qoşulduğu illər Azərbaycanda xalqın milli oyanış dövrünün ilkin çağlarına təsadüf edir. Ulu Öndərin yaratdığı və özünün də müəllifi olduğu Yeni Azərbaycan Partiyasının təşəkkül tapdığı 1992-ci ildən Mehriban xanım partiyanın üzvü kimi müasir və müstəqil dövlətimizin qurulması və inkişaf etməsi prosesinin fəal iştirakçısına çevrildi. O, yaxşı dərk edirdi ki, bütün zamanlarda milləti qədim, köklü xalq kimi tanıdan və dünyada qəbul etdirən onun dili, mədəniyyəti, tarixi, milli-mənəvi dəyərləridir. Məhz buna görə də o özünün çoxşaxəli fəaliyyətini bu amillər, prinsiplər üzərində qurdu. Bütün ictimai şüuru ilə azərbaycançılıq ideologiyasına bağlı olması, dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə fəaliyyət göstərməsi az bir zamanda ona xalqın böyük rəğbətini, sevgisini qazandırdı. Onun fəaliyyətini qiymətləndirən bir çox xarici ölkələrin tanınmış siyasətçiləri, ictimai xadimləri qeyd edirlər ki, Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir.

Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərə nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil. 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunun prezidenti, 2002-ci ildə isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi üzərinə böyük məsuliyyət götürərək, problemlərin dərinliyini dərk edərək, yaddan çıxmış sahələri ətalətdən çıxararaq onlara kütləvilik elementləri ilə zəngin olan ictimai məzmun verdi. Mehriban xanım Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması, təbliği üçün ilk olaraq "İrs" jurnalını təsis etməklə başladı. Təbii ki, görülən işlərin mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı.

Mehriban xanımın fəaliyyətinin mahiyyətində mərhəmət və ülvilik hissi dayanır. Ölkənin birinci xanımının bu fikirləri sözlərimizi təsdiq edər: "Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır - istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır". O, Birinci xanım statusunda bənzərsiz və özünəməxsusdur. Bütün fəaliyyətində işgüzarlığı, böyük səyi və bacarığı ilə seçilən Mehriban xanım müsahibələrinin birində birinci xanım missiyasının məsuliyyətini şərh edərək demişdir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..."

Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti kimi Ulu Öndər Heydər Əliyevin vətənimiz və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyaları yüksək səviyyədə davam etdirir. Fondun çoxşaxəli fəaliyyətini göz önündə canlandıranda belə bir əzəmətli mənzərədən heyrətlənməmək olmur. Mehriban xanımın qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş çalışmalar, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdu. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, "milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir". Görülən işlərin, irimiqyaslı layihələrin həcmini təsəvvürə gətirəndə aydın olur ki, bütün bunlar Birinci vitse-prezident, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, ICESCO-nun ilk qadın xoşməramlı səfiri Mehriban xanım Əliyevanın vətən və xalq naminə qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəldiyinin bariz nümunəsidir.

Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirir, hətta fəaliyyət göstərdiyi dövrdə ölkənin həm daxildə, həm də xaricdə vüsətli inkişafına, böyük nüfuz qazanmasına, yeni dünya cəmiyyətinin öndə olan ölkələrindən birinə çevrilməsinə öz fəaliyyətilə güclü dəstək verir. Bu, ən çox insan faktoruna ali münasibəti, ölkəmizin beynəlxalq arenada layiq olduğu mərtəbədə qərarlaşması ilə dəyərlidir. Dövlət başçısı Prezident İlham Əliyev Fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd etmişdir ki, "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar güclü, aydın təfəkkürə, təxəyyülə malik olan incə ruhlu, zərif təbiətli bir qadının - Respublikanın Birinci vitse-prezidenti, ölkənin Birinci xanımı Mehriban Əliyevanın bilavasitə gərgin çalışmaları sayəsində həyata keçirilir.

Bu gün ictimai-sosial həyatımızın elə bir sahəsi yoxdur ki, Mehriban xanımın nəzərindən kənarda qalsın. Xalqın sosial-mədəni həyatında, səhiyyənin, təhsilin, idmanın inkişafında onun xidmətləri misilsizdir. Uşaqlara şəfqət, mərhəmət göstərilməsi, ailəyə, vətənə bağlılıq duyğuları aşılamaq onların tərbiyəsi, sağlam böyüməsi, sevgi ilə əhatə olunması, gənclərin kamil bir vətəndaş kimi yetişməsi, onları vətənpərvər ruhda tərbiyə etmək - bütün bunlar Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Ölkənin Birinci vitse-prezidentinin bu layihələri böyük həssaslıqla, ən kiçik detallarına, incəliklərinə qədər izləməsi, proseslərin içərisində olması da Onun özünəməxsus iş üslubuna, xarakterə malik olduğunun aydın göstəricisidir. Bütün bunları göz önünə alanda görürük ki, Mehriban xanım tarixdə yaşamış vətənpərvər, maarifpərvər qadınlarımızın örnək olan həyatını öz fəaliyyətində yeni anlamda, həm də ləyaqətlə davam etdirir.

Mehriban xanım Əliyevanın adı yüz minlərin, milyonların qəlbində ümid yerinə, xeyirxahlıq, haqq-ədalət ünvanına çevrilib. Dara düşən, həlli müşkül problemlərlə qarşılaşan yüz minlərlə insan, ilk növbədə, onun adını tutur, ona məktub göndərir, onun qəbuluna yazılır. Və heç biri də ümidsiz qalmır. Mehriban xanım ən ucqar kəndimizdə belə yaşayan valideynsiz, kimsəsiz uşağı, xəstə canı ilə çarpışan balalarımızı özünə yaxınlaşdırır, doğmalaşdırır, bağrına basıb Azərbaycan adlı məmləkətimizin mərhəmətli qol-qanadlarını onların üzünə açır. O, tez-tez körpələr evini ziyarət edir, əziz bayramlarda ölkəmizin ən möhtəşəm saraylarında müxtəlif hədiyyələrlə balalarımızın qəlbinə sevinc, könlünə xoş ovqat bəxş edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əhaliyə göstərdiyi xidmət təqdirəlayiqdir. Fondun məqsədləri sırasında yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək mühüm yer tutur. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Yeniləşən Azərbaycana yeni məktəb", "Tolerantlığın ünvanı - Azərbaycan", "Təhsilə dəstək" layihələri kifayət qədər mühüm fəaliyyətlərdəndir.

Mehriban xanımın xeyirxah əməlləri, təhsilimizin, milli dəyərlərimizin təbliği, inkişafı xalqın rifahı naminə gördüyü işlər Azərbaycan qadınının uğurla fəaliyyət göstərməsinə bariz nümunə olaraq beynəlxalq aləmdə sonsuz rəğbətlə qarşılanır. Qərb dünyası Mehriban Əliyevanı Şərqin müdrik, peşəkar bir siyasətçisi kimi qəbul edir, onun simasında Azərbaycan qadınının ictimai-siyasi həyatda oynadığı rolun əhəmiyyətini vurğulayır.

Heydər Əliyev Fondunun köməyi ilə əlillər üçün yaradılan xüsusi mərkəzdə əlillərin zəruri ehtiyacaları ödənilir, onlara dərman vasitələri və s. verilir. BMT-nin İnkişaf Proqramı ilə birgə "Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi" baxımından reallaşdırılan layihə Heydər Əliyev Fondunun xeyirxah fəaliyyətinin nəticəsidir. Fondun diqqət yetirdiyi məsələlərdən biri də kimsəsiz uşaqlara göstərilən qayğının artırılmasıdır. "Uşaq evləri və internat məktəblərinin İnkişaf Proqramı" bu istiqamətdə həyata keçirilən mühüm layihələrdən biridir. Layihə çərçivəsində paytaxt Bakıda və digər ərazilərdə yerləşən uşaq evləri və internat məktəblərində araşdırmalar aparılır, mövcud problemlər öyrənilir və onların həlli istiqamətində bir sıra vacib işlər görülür.

Bu layihələr sırasında elm, təhsil, səhiyyə və sosial sahələrə xüsusi önəm verilir. Valideyn himayəsindən məhrum olan uşaqların, qocalar evində məskunlaşan ahılların, Böyük Vətən müharibəsi veteranlarının, keçmiş məcburi köçkünlərin, aztəminatlı ailələrin, şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının, xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsil, səhiyyə və digər sosial problemlərinin həllinə yönəlmiş layihələr fondun daim diqqət mərkəzindədir. Həyata keçirilən bütün bu layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daim şəhid ailələri ilə görüşür, onları diqqətlə dinləyir, problemlərini həll edir. Bu çoxsaylı nümunələr aydın surətdə göstərir ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış insanların xatirəsi daim əziz tutulur, onların ailə üzvlərinə diqqət, qayğı əsirgənmir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir. 2005, 2010 və 2015-ci illərdə Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Xəzər ikinci seçki dairəsindən deputat seçilmişdir. Birinci xanım Milli Məclisin deputatı kimi fəaliyyətində əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərmişdir. "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz", - deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etmişdir ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.

Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il mayın 8-də Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, çıxışında qeyd etmişdir ki, "…səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk". Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. Birinci xanım bu təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə minlərlə insanın azadlığa çıxmasına səbəb olmuşdur. Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi istiqamətində mühüm çıxışlar etmiş və bir çox qanun layihələrinin, o cümlədən "Gender (qadın və kişi) bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması" Azərbaycan Respublikasının qanunlarının, qadın və kişilər üçün nikah yaşının bərabərləşdirilməsi, nikaha məcbur etməyə, xüsusi ilə həddi-büluğa çatmayanların nikaha məcbur edilməsi üzrə məsuliyyətin müəyyən olunması, nikahdan öncə tərəflərin icbari qaydada tibbi müayinədən keçmələri və digər mühüm qanun layihələrinin qəbul olunmasında müstəsna xidmətləri olmuşdur.

Azərbaycan ailəsinin problemlərini həmişə diqqət mərkəzində saxlayan Mehriban xanım ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Onun fikrincə, "Ailəyə olan hörmət - Azərbaycan xalqına məxsus ən gözəl xüsusiyyətlərdən biridir. Bu gün Azərbaycan qadını ana olmaqla öz ölkəsinin sosial həyatında fəal iştirak edir". Mehriban xanımın təşəbbüsü ilə ailələrin rifahına yönələn maraqlı layihələr reallaşır. Qadın hüquqlarının müdafiəsi, onlar üçün bərabər imkanların yaradılması istiqamətlərində etdiyi çağırışlar qadın hərəkatının yeni mərhələsinin əsasını qoydu. "Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara siyasətini gerçəkləşdiririk. Mən bu yolda bütün Azərbaycan qadınlarını daha fəal olmağa, öz potensialını genişləndirməyə, cəmiyyətdə öz sözünü deməyə çağırıram". "Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur" - söyləyən Mehriban xanım qadının ailədəki rolu və ailəyə münasibətini hər zaman önə çəkir. "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm".

Ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğı, verdiyi böyük dəstək idmançılarımızın beynəlxalq yarışlarda vətənə medallarla dönməsinə səbəb olur. Mehriban xanım Əliyevanın nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarların qəbul olunmasında həlledici rol oynayıb. Mehriban xanımın "Bakı-2015" Birinci Avropa Oyunları və 2017-ci ildə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları Təşkilat komitələrinin sədri kimi onun əməyi və bacarığı ən ali səviyyədə yüksək qiymətləndirilmişdir.

Mehriban Əliyevanın bütün çıxışları, müsahibələri zənginliyi, dərin məzmunu ilə hər zaman cəmiyyətdə böyük maraq oyadır. Ağlına, zəkasına, böyük təşkilatçılıq bacarığına görə Mehriban xanımı başqa dövlətlərdə də tanıyır, sevir və rəğbətlə qarşılayırlar. Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bu, fitri istedad sahibinin milli-bəşəri ideallara sadiqliyi, dünya cəmiyyətinə nikbin baxışlarının məntiqi ifadəsidir.

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarının müdafiəsinə yönəlmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətdəki rolu barədə aydın təsəvvür yaradır. O, humanizm və qayğı kimi keyfiyyətləri təcəssüm etdirməklə hamı üçün gözəllik, xeyirxahlıq və mərhəmət nümunəsidir.

Mehriban xanım eyni zamanda Prezidentin ən yaxın silahdaşı, qayğıkeş ana, sevimli nənədir. Ailə qayğıları, ictimai və siyasi fəaliyyəti bir arada və yüksək səviyyədə yerinə yetirmək böyük peşəkarlıq və səbir tələb edir. Bununla bağlı Mehriban xanım deyir: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən, ilk növbədə, həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, nəvələrim var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm. İndiyə qədər bunu bacarmışam. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam. Mən bişirib-düşürməyi çox xoşlayıram. Bu işlə məşğul olanda yaxşıca dincələ bilirəm. Axı dadlı yeməklər hazırlamaq da müəyyən mənada yaradıcı işdir. Mən bu işi sevirəm, bu işi görürəm və bacarıram".

Adətən, biz gənc nəsli tarixi nümunələr əsasında tərbiyə edirik. Lakin Mehriban xanım özünün çoxşaxəli fəaliyyəti ilə bu gün gənc nəsil üçün vətənə xidmətin, milli ənənələrə sədaqətin canlı örnəyidir. İlk davamçıları isə övladlarıdır. Övladlar ki, əsl vətəndaş kimi insanpərvərlik, vətənpərvərlik ruhunda tərbiyə olunublar və biz bunu onların fəaliyyətlərində əyani şəkildə görürük.

Mehriban Əliyeva bu illərdə çox titullara, təltiflərə, mükafatlara layiq görülüb. Onun beynəlxalq aləmdəki nüfuzu, aldığı mükafatlar təbii ki, ölkəmizin, xalqımızın adına başucalığı gətirir. Amma onların içərisində bir mükafatın adı xüsusi qeyd olunmalıdır. Bu, Azərbaycanda keçirilmiş I Avropa Oyunlarının uğurla, böyük qələbə ilə başa çatmasında Təşkilat Komitəsinin sədri kimi əsl fədakarlıq nümayiş etdirən Mehriban Əliyevanın 29 iyun 2015-ci ildə "Heydər Əliyev" ordeni ilə təltif olunmasıdır.

Artıq 5 ilə yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Vaxtilə Azərbaycanın həqiqətlərini, Ermənistanın torpaqlarımızı işğal etməsi, etnik təmizləmə siyasəti aparması, xalqımıza qarşı soyqırımının törədilməsini bütün dünyaya çatdıran, ölkəmizin haqq səsini ucaldan Mehriban xanım indi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında böyük əzmlə iştirak edir.

İnanırıq ki, Azərbaycan və Ermənistan arasında tezliklə yekun sülh sazişi imzalanacaq. Əlbəttə ki, biz xalqımıza qarşı edilən ədalətsizliyi, haqsızlığı, müharibə cinayətlərini heç vaxt unutmayacağıq. Və buna haqqımız yoxdur. Lakin biz həm də irəliyə baxmalıyıq. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə nəhəng quruculuq işləri aparılır. Böyük qayıdış Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində davam edir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin komitə sədri,***
***professor***



# Nəcib missiya

**Torpaqlarını müharibə yolu ilə işğaldan azad edən, bütün əraziləri üzərində milli suverenliyinə nail olan, regionda və dünyada söz və nüfuz sahibi kimi tanınan və qlobal əməkdaşlığa töhfələr verən dövlət... Bu gün dünyanın harasında olmasından asılı olmayaraq, Azərbaycan deyəndə ilk yada düşən bu reallıqlar hər bir azərbaycanlının qürur və fəxr mənbəyidir. Ulu Öndər Heydər Əliyev ideayalarının təcəssümü, möhtərəm Prezident İlham Əliyevin müdrik, qətiyyətli və uzaqgörən siyasətinin nəticəsi olan bu həqiqətlər xalqımızı şərəfləndirməklə yanaşı, Azərbaycan dövlətinin öz tarixinin ən qüdrətli dövrünü yaşadığını dünyaya nümayiş etdirir.**

## Mükəmməl nümunə

Uğurlarımız davamlıdır. Prezident İlham Əliyevin avqustun 7-8-də Vaşinqtona etdiyi işgüzar səfərinin nəticələri göstərdi ki, 44 günlük Vətən müharibəsində, birgünlük antiterror tədbirlərində güc yolu ilə ədaləti yoluna qoyan, Azərbaycanın milli haqqını təmin edən Prezident İlham Əliyev həm də respublikamıza siyasi-diplomatik müstəvidə qələbələr qazandırır. Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri bütün tərəfləri ilə bir daha təsdiqlədi ki, dövlətimizin başçısı Azərbaycanın milli maraqlarını və mənafelərini uğurla, layiqincə qoruyur. Vaşinqtonda D.Tramp tərəfindən yüksək səviyyədə qarşılanma, olduqca səmimi atmosferdə keçirilən görüş, dövlətimizin başçısına Ağ Evin rəmzi açarının verilməsi cənab Prezident İlham Əliyevin qlobal səviyyədə ehtiram göstərilən siyasi lider olduğunu bir daha nümayiş etdirdi.

Bütövlükdə, torpaqlarımızın işğaldan azad olunması nəticəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi bir mərhələni şərəflə başa vurdu. Daxil olduğumuz yeni mərhələdə isə qarşıda duran vəzifələr Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, regionda dayanıqlı və etibarlı sülhün bərqərar olunmasıdır. Bütün bunlarla yanaşı, Azərbaycanın nəqliyyat qovşaqlarının kəsişdiyi ölkə kimi regionda rolunun daha da artması, "yaşıl enerji"yə sürətli keçid etməsi qədəm qoyduğumuz mərhələdə respublikamız üçün formalaşan yeni çağırışlar, prioritetlər deməkdir. İndi biz haqlı olaraq daxil olduğumuz yeni siyasi, sosial və iqtisadi mərhələdə dövlət və vətəndaş olaraq qarşımızda dayanan vəzifələrdən və üzərimizə düşən məsuliyyətdən bəhs edirik. Bu dövrün mənzərəsi və reallıqları ondan ibarətdir ki, Azərbaycan dövləti yeni çağırışlara vaxtında cavab verir və qarşıya qoyduğu prioritetlərin uğurla həyata keçməsini təmin edir.

Vətəndaş olaraq üzərimizə düşən məsuliyyətə gəldikdə, bu gün vətənini və xalqını sevən hər bir vətəndaş milli və mənəvi təəssübkeşlik nümayiş etdirməli, dövlətimizin başçısı ətrafında səfərbər olmalı, respublikamızın qarşısında dayanan yeni prioritetlərin həyata keçirilməsində yaxından iştirak etməli və dəstəyini əsirgəməməlidir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın siyasi-ictimai fəaliyyəti, gördüyü işlər və fəal vətəndaşlıq mövqeyi bu məsələdə hər birimiz üçün ən mükəmməl nümunədir. Mehriban xanım Əliyeva öz əməlləri ilə dövlətə və xalqa xidmətin, milli təəssübkeşliyin ən gözəl nümunələrini yaradıb. Onun bu vəzifələrdə həyata keçirdiyi çoxməzmunlu fəaliyyəti respublikamızın yüksəlişinə, həssas və qayğıya ehtiyacı olan vətəndaşların sosial rifahının yaxşılaşmasına, ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir. Onun Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ICESCO-nun xoşməramlı səfiri kimi daşıdığı vəzifələr isə Azərbaycanın milli-mədəni irsinin qorunmasına və dünyada təbliğinə, o cümlədən idmanın gimnastika növünün respublikamızda inkişafına layiqli töhfələr verib.

Mehriban Əliyeva müstəqil Azərbaycanın tarixində həm də ilk dəfə olaraq birinci xanımlıq institutunu formalaşdırıb. Məlum olduğu kimi, birinci xanımlıq institutu dünyanın bütün sivil dövlətlərində hakimiyyətin vacib atributlarından və ictimai fəaliyyətin ən mühüm istiqamətlərindən biridir. 2003-cü ilin oktyabrından bu missiyanı layiqincə həyata keçirən Mehriban Əliyeva cəmiyyətin həyatına yeni daxil olan bu yeni fəaliyyət anlayışını uğurla realizə edib. Müsahibələrinin birində Mehriban Əliyeva bununla bağlı deyib: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür... Fikrimcə, vəziyyətindən və statusundan asılı olmayaraq, bu və ya digər rolu oynamalı deyilsən və kimliyini saxlamağı bacarmalısan. Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm".

Mehriban Əliyeva bu missiyası ilə həm birinci xanımlığın mükəmməl nümunəsini yaradıb, həm bütün dünyaya Azərbaycan qadınının ən nümunəvi və gözəl mənəvi dəyərlərin daşıyıcısı olduğunu nümayiş etdirib.

## Milli amallar və ülvi dəyərlər uğrunda

Gördüyü bütün işlərin mərkəzində Heydər Əliyev ideyalarına bağlılıq dayanan Mehriban Əliyevanın ümummilli məqsədlərə xidmət edən fəaliyyəti Azərbaycan ictimaiyyətinə 1990-cı illərdən məlumdur. Onun 30 il əvvəl, 1995-ci ildə yaratdığı Azərbaycan Mədəniyyət Fondunun milli mədəniyyətimizin dünyada təbliğ edilməsi və daha yaxından tanıdılması sahəsində həyata keçirdiyi əzmkar fəaliyyətin təməlində məhz Mehriban Əliyevanın peşəkarlığı, işgüzarlığı və vətən sevgisi dayanır. Azərbaycan Mədəniyyət Fondunun gördüyü işlərin nəticəsində muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği istiqamətində mühüm layihələr həyata keçirilib, xalqımızın milli mədəniyyət nümunələri UNESCO-nun irs siyahısına salınıb. Hansı ki, bunlar son nəticədə əsas dövlətçilik məqsədini - Azərbaycanın dünyada tanıdılmasını uğurla təmin edib. Bununla da həmin maddi və mədəni irsin tarixi sahiblərinin Azərbaycan xalqı olduğu dünyaya bəyan edilib. Və elə bu fəaliyyətin nəticəsi kimi Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanı hələ 1990-cı illərdən yüksək mənəvi idealların və dəyərlərin yorulmaz daşıyıcısı, milli-mədəni dəyərlərimizə olduqca bağlı bir vətəndaş, mədəniyyətimizin fədakar qoruyucusu və təbliğatçısı kimi tanıyır.

Ümummilli Lider Heydər Əliyevin ideyaları ilə silahlanan, babaları Mir Cəlal Paşayev, Nəsir İmanquliyev kimi korifeylərdən, görkəmli elm adamları Arif Paşayev, Aida İmanquliyeva və Zərifə Əliyeva kimi şəxsiyyətlərdən mənəvi güc alan Mehriban Əliyevanın bağlı olduğu dəyərlər özündə ən yüksək milli-mənəvi idealları təcəssüm etdirir. Elə bağlı olduğu yüksək mənəvi dəyərlərdən irəli gələrək Mehriban xanım Əliyevanı tək Azərbaycanda deyil, dünyada daha yaxından tanıtdıran və ona böyük ehtiram qazandıran amillərdən biri onun insanlara təmənnasız yaxşılıq etmək, hər zaman maddi dəstəyə ehtiyacı olanların yanında olmaq kimi nəcib və sosial missiya həyata keçirməsidir. Xeyirxahlıq, mərhəmət, şəfqət kimi savab əməllər onun həyat fəlsəfəsinin, daşıdığı dəyərlərin ayrılmaz hissəsidir. Ona görə Mehriban Əliyeva həm də böyük xeyriyyəçi, onun prezident olduğu Heydər Əliyev Fondu isə Azərbaycanda və onun hüdudlarından kənarda məhz xeyirxahlıq, mərhəmət və ümid ünvanı kimi tanınır.

Ulu Öndər Heydər Əliyevin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün yaradılan fond 21 ildən artıqdır ki, respublikamızın ictimai, mədəni və sosial həyatının ən müxtəlif sahələrində əsaslı və böyük nəticələri olan proqram və layihələr həyata keçirir. Bu layihələr respublikamızda təhsilin, səhiyyənin, idmanın inkişafında, mədəni və tarixi dəyərlərimizin qorunmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, müxtəlif xəstəliklərdən əziyyət çəkən vətəndaşlarımızın, xüsusilə körpə və uşaqların müalicəsində, aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsində böyük rol oynayır. Qeyri-hökumət təşkilatı olsa da, Mehriban xanım Əliyevanın sayəsində Heydər Əliyev Fondunun fəaliyyəti respublikamızın yüksəlişinin qeyri-institusional və effektiv amili kimi özünü göstərir. Fondun fəaliyyəti həm də ölkəmizdə xeyriyyəçilik institutunun formalaşmasında əhəmiyyətli rol oynayır.

Ölkəmizdə təhsilin inkişafına xidmət "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi Heydər Əliyev Fondunun uğurla həyata keçirdiyi sosial layihələrdən biridir. Bu layihə çərçivəsində indiyədək yüzlərlə məktəb binasının inşa olunması və təhsillə bağlı digər tədbirlərin həyata keçirilməsi, o cümlədən uşaq və körpələr evlərinin, uşaq bağçalarının tikilməsi və yenidən qurulması, ilk növbədə, Mehriban Əliyevanın fəal vətəndaşlıq mövqeyinin təzahürüdür.

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun rəhbəri kimi qarşıya qoyduğu ən ümdə vəzifələrdən biri milli genefondumuzun qorunması, bu sırada müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların, o cümlədən uşaqların müalicə olunaraq sağlam həyata dönüşüdür. Fondun bu istiqamətdə reallaşdırdığı "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri indiyədək neçə-neçə xəstə uşağa şəfa bəxş edib. Fond tərəfindən Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin yaradılması, onlarla xəstəxananın inşası məhz Mehriban Əliyevanın nəcib missiyasının, bağlı olduğu ülvi və mərhəmət dəyərlərinin növbəti göstəricisidir. Bununla da Prezident İlham Əliyevin inkişaf siyasətinə böyük dəstək verən fondun keçirdiyi tibbi aksiyalar nəticəsində minlərlə vətəndaşımız sağlam həyata qovuşub. Yaşlılara, tənha vətəndaşlara, kimsəsizlərə hər zaman dayaq olan Mehriban Əliyeva ona edilən müraciətləri xüsusi diqqət mərkəzində saxlayır, köməyə ehtiyacı olanlara himayədarlığını əsirgəmir.

Bunlarla yanaşı, Heydər Əliyev Fondu milli və vətənpərvər dəyərlərə bağlı gənc nəslin formalaşdırılması, Azərbaycan həqiqətlərinin, o cümlədən artıq həllini tapmış Dağlıq Qarabağ məsələsi ətrafında Azərbaycanın haqlı və ədalətli mövqeyinin dünya ictimiyyətinə çatdırılması, beynəlxalq səviyyədə erməni yalanlarının ifşa edilməsi, Xocalı soyqırımının tanıdılması, qlobal səviyyədə sivilizasiyalararası dialoqun təşviqi sahəsində də əvəzsiz fəaliyyət həyata keçirməkdədir. Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondunun dünyanın müxtəlif şəhərlərində, ən mötəbər ünvanlarda Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu və irsi özəlliklərini müvəffəqiyyətlə təbliğ etməsi vətənə və xalqa layiqli xidmətin təzahürüdür.

"2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir... Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Bütövlükdə, fəaliyyət və məqsədləri kifayət qədər geniş olan, ictimai həyatın, demək olar ki, bütün sahələrini əhatə edən, cəmiyyətin inkişafında, milli-mənəvi dəyərlərin qorunması və dünyada təbliği istiqamətində mühüm işlər görən Heydər Əliyev Fondu öz fəaliyyəti ilə cəmiyyətdə həm ümid və pənah məbədi, həm də milli təəssübkeşliyin ünvanı kimi tanınır.

Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətinin başqa məqamı bu missiyanın yalnız Azərbaycanla kifayətlənməməsi, respublikamızın hüdudlarını aşmasıdır. Bu mənada Heydər Əliyev Fondu Azərbaycanın sərhədlərindən uzaqlarda da ölkəmizlə bağlı yüksək ictimai rəyin yaradılmasında mühüm nailiyyətlərə imza atıb. Bu sırada fond tərəfindən dost və qardaş Pakistanda həyata keçirilən xeyriyyəçilik tədbirlərini xüsusi qeyd edə bilərik. Burada baş verən dağıdıcı zəlzələdən sonra Heydər Əliyev Fondu tərəfindən qızlar məktəbinin tikintisi, habelə Pakistanın müxtəlif əyalətlərində səhiyyə, təhsil və humanitar sahələrdə silsilə layihələrin həyata keçirilməsi Mehriban Əliyevanın həm xeyriyyəçilik missiyasının, həm də Pakistan xalqına olan səmimi münasibətinin təcəssümüdür. Bütün bunlar, o cümlədən Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Fransada, Rusiyada, Vatikanda, Romada həyata keçirilən layihələr yalnız bu dövlətlərdə deyil, qlobal səviyyədə mədəni və tarixi dəyərlərin qorunmasını dəstəkləyən hər kəs tərəfindən təqdir olunur, razılıq və minnətdarlıqla qarşılanır. Ən əsası, böyük qürur hissi ilə qeyd etməliyik ki, Heydər Əliyev Fondunun ayrı-ayrı dövlətlərdə keçirdiyi xeyriyyə tədbirləri, gördüyü bərpa və quruculuq işləri Azərbaycanın dünyada daha yaxından tanınmasına, respublikamız barəsində antiazərbaycançı dairələr tərəfindən formalaşdırılan yanlış və qərəzli stereotiplərin aradan qaldırılmasına xidmət edir.

## Etimada sədaqətlə

Mehriban Əliyeva həm də ona göstərilən siyasi-icitmai etimadı ən yüksək səviyyədə doğruldan və bununla dövlətə, xalqa layiqli xidmətin nümunələrini yaradan siyasi xadimdir. Bu sırada onun Milli Məclisin deputatı kimi 2005-2017-ci illərdə həyata keçirdiyi fəaliyyətini xüsusi qeyd edə bilərik. 3 çağırış Azərbaycan Milli Məclisinin üzvü seçilən Mehriban Əliyeva bu dövrdə deputatlıq fəaliyyətinin də mükəmməl örnəyini yaradıb. Mehriban Əliyeva yalnız seçildiyi seçki dairəsini əhatə edən yaşayış məntəqələrinin və onun sakinlərinin deputatı olmayıb, ona müraciət edən hər kəsin, Azərbaycanın bütün bölgələrinin vəkili olub. Onun parlamentin müzakirəsinə təqdim etdiyi məsələlər, o cümlədən əlamətdar hadisələrlə bağlı amnistiya elan edilməsinə dair qərar layihələri Milli Məclisin tarixində daim xatırlanacaq. Milli Məclisin deputatı, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbəri kimi Mehriban Əliyeva respublikamızın beynəlxalq münasibətlərinin inkişafına layiqli töhfələr verib.

Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanı ona həvalə edilən bütün vəzifələri ən yüksək səviyyədə, işgüzarlıqla yerinə yetirən bacarıqlı təşkilatçı kimi tanıyır. Respublikamızda 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsinin, bütün dünyanın bu təşkilatçılığa heyran olmasının əsas səbəblərindən biri sözügedən tədbirlərin təşkilat komitələrinə rəhbərliyin Prezident İlham Əliyev tərəfindən məhz Mehriban Əliyevaya həvalə olunması idi.

Mehriban Əliyevanın respublikamız qarşısındakı digər xidməti idmanın inkişafına verdiyi töhfələrdir. Onun Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi səmərəli və uğurlu fəaliyyəti ölkəmizdə idmanın bu növünün daha da inkişafında və populyarlaşmasında mühüm rol oynayır. Son illərdə idmançılarımızın gimnastikanın bütün növləri üzrə beynəlxalq yarışlarda göstərdikləri yüksək nəticələr hər birimizi sevindirir. Mehriban Əliyeva, eyni zamanda idmançıların yaxın dostudur. Dünyanın birnömrəli idman yarışması olan Yay Olimpiya Oyunlarında fəxri kürsüyə yüksəlmiş idmançılarımıza Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi Mehriban Əliyevanın idmanın inkişafına göstərdiyi diqqət və qayğısının göstəricisi, eyni zamanda respublikamızda həyata keçirilən idman siyasətinə verilən töhfənin təcəssümüdür.

Bütün qeyd olunanlar Mehriban Əliyevaya Azərbaycan cəmiyyətinin, xalqımızın böyük rəğbətini və ehtiramını qazandırıb. Ona görə Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması cəmiyyətdə böyük rəğbət və razılıqla qarşılandı.

Prezident İlham Əliyevin sədrliyi ilə 21 fevral 2017-ci ildə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən onun fəaliyyətinə diqqət çəkərək bildirmişdi: "Bax bu çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır". Dövlət başçısı belə bir əminliyi ifadə etdi ki, Mehriban xanım bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

Həmin vaxt Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi çıxışında gələcək fəaliyyətinin prinsiplərini açıqlayaraq demişdi: "Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Respublikamızda dövlət idarəçiliyində Birinci vitse-prezidentlik institutu 2016-cı ildə keçirilmiş referendumdan sonra Konstitusiyada təsbit olunub. Bu, prezidentdən sonra başlayan idarəetmə məqamıdır. Əlbəttə, idarəetmənin belə yüksək pilləsində fəaliyyət göstərəcək dövlət adamının nümunəvi keyfiyyətlərə malik olması vacibdir. Bütün bunlar isə Mehriban Əliyevanın həm fəaliyyətində, həm də xarakterində öz əksini tapıb. Başqa cür desək, Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsinə ən layiqli namizəd olduğunu buna qədər həyata keçirdiyi fəaliyyətlə və yüksək mənəvi keyfiyyətləri ilə təsdiq etmişdi.

Birinci vitse-prezident vəzifəsinə təyin olunması həm də Mehriban Əliyevanın buna qədər gördüyü işlərə verilən ali qiymət və eyni zamanda fəaliyyətində yeni missiyanın başlanması demək idi. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı kimi həyata keçirdiyi məzmunlu fəaliyyət göstərirdi ki, Mehriban Əliyeva ona etimad göstərilən yeni missiyasını da uğurla həyata keçirəcək, dövlətə və xalqa xidmətin yeni nümunələrini yaradacaq.

Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz yeni missiyasının icrasına ilk olaraq keçmiş məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından və 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsindən, onların cəmiyyətə inteqrasiyasından başlamışdı. Qısa müddətdə bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirildi, uğurlu nəticələr əldə olundu. Bütün bunlar ondan xəbər verirdi ki, sosial məsələlər Mehriban Əliyevanın Birinci vitse-prezident kimi də diqqət yetirəcəyi məsələlər olacaq.

Koronavirus pandemiyası zamanı da Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın fəal vətəndaşlıq mövqeyinə şahidlik etdi. Məhz Mehriban Əliyevanın təşəbbüsləri ilə pandemiya günlərində ölkəmizə xaricdən xüsusi tibbi ləvazimatların, avadanlıqların, laboratoriyaların alınıb gətirilməsi təmin edildi, habelə xarici ölkələrdən həkimlər dəvət olundular. Pandemiya günlərində Mehriban Əliyeva evdən çıxa bilməyən yaşlı, tənha və qayğıya ehtiyacı olan insanları xüsusi diqqət mərkəzində saxladı, Heydər Əliyev Fondu tərəfindən belə vətəndaşlarımızın evlərinə mütəmadi olaraq ərzaq sovqatı göndərildi.

Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında da Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri böyükdür. Onun Birinci vitse-prezident kimi xarici dövlətlərə etdiyi səfərlər, Bakıda müxtəlif dövlətlərin rəhbər şəxsləri ilə keçirdiyi görüşlər Azərbaycanın xarici siyasət kursunun uğur qazanmasında mühüm rol oynayır.

## Vətənpərvərliyin təcəssümü

Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın fəal vətəndaşlıq missiyasına 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrdə də şahidlik etdi. Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qarşılandı. O, hər zaman şəhid analarının yanında oldu, qazilərimizin şəfqət alması üçün əlindən gələni əsirgəmədi. Mehriban Əliyevanın torpaqlarımızın azad olunması uğrunda milli mübarizəyə verdiyi yüksək siyasi-mənəvi dəstək, sosial şəbəkələrdə xalqımızı milli birliyə, müzəffər ordumuzu zəfərə ruhlandıran müraciətləri, paylaşımları, müharibə başa çatdıqdan sonra dövlətimizin başçısı ilə birgə işğaldan azad edilmiş ərazilərə səfərləri bir daha onun vətənpərvərliyinin, yüksək milli dəyərlərə bağlılığının göstəricisinə çevrildi.

Mehriban Əliyeva Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi prosesində Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Cənab İlham Əliyevlə yanaşı, Mehriban Əliyeva da işğaldan azad edilmiş ərazilərdəki quruculuğun memarlarındandır. Azad edilmiş ərazilərdə, Şuşada, Ağdamda, Zəngilanda Heydər Əliyevin Fondunun həyata keçirdiyi çoxsaylı quruculuq layihələri, ermənilər tərəfindən dağıdılmış milli və tarixi mədəniyyət nümunələrimizin, məscidlərimizin bərpası Mehriban Əliyevanın vətənpərvərliyinin təcəssümüdür.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi ötən 8 ildən artıq fəaliyyət dövrü göstərir ki, o, həm qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirir, həm də Birinci vitse-prezident institutunun dövlət idarəetməsindəki rolunun əhəmiyyətini təsdiq edir.

Mehriban Əliyeva həm də Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan siyasi xadimdir. 2021-ci il martın 5-dən YAP Sədrinin birinci müavini vəzifəsini həyata keçirən Mehriban Əliyeva Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ən yaxın siyasi silahdaşı kimi partiya fəaliyyətinin daha dinamik həyata keçirilməsinə, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Heydər Əliyev partiyasında qadınların fəallığının artırılmasına böyük töhfələr verir. Mehriban Əliyeva respublikamızda qadın hərəkatının da önündə gedərək beynəlxalq səviyyədə Azərbaycan qadınlarını layiqincə təmsil edir. Bu fəaliyyət Azərbaycan qadınının mərhəmət, xeyirxahlıq və digər bu kimi mənəvi və əxlaqi dəyərlərin daşıyıcısı olduğunu dünyaya nümayiş etdirir.

*Öz əməlləri ilə Prezident İlham Əliyevin inkişaf siyasətinə dəstək verən, dövləmizin və xalqımızın rifahı, yüksəlişi üçün əzmlə çalışan Mehriban Əliyeva ölkə istimaiyyətinin əbədi ehtiramını qazanıb. O, özünün işgüzarlığı, fəal dövlətçilik mövqeyi, humanizm prinsiplərinə söykənən təşəbbüsləri ilə əsl vətəndaş modeli yaradıb. Onun dövlətə və xalqa xidmət missiyası çoxməzmunlu fəaliyyətinin ana xəttini təşkil edir. Mükəmməl mənəvi dəyərlərin tərənnümçüsü kimi Mehriban Əliyeva intellektual Azərbaycan qadınının ən gözəl nümunəsini nümayiş etdirir.*

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

# Xeyirxahlığı həyat amalına çevirən nəcib insan



**Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə müasir tariximizdə yeni dövrün, ölkəmizi müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Onun iradəsi, qətiyyəti, zəngin idarəçilik təcrübəsi, Vətənin azadlığı və müstəqilliyi uğrunda apardığı gərgin mübarizə nəticəsində ictimai-siyasi sabitlik, əmin-amanlıq bərqərar oldu, demokratik-hüquqi dövlət quruculuğunda böyük nailiyyətlər qazanıldı. Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu.**

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi.

İslahatçılıq müasir Azərbaycan cəmiyyətinin fərqləndirici xüsusiyyəti kimi diqqəti cəlb edir. Son illər ərzində Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi, siyasi, idarəçilik islahatları ölkənin həyatında yeni meyil və təşəbbüslərin əsasını qoymaqla yanaşı, Azərbaycanın beynəlxalq imicinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına təkan vermişdir.

Hazırda Azərbaycan dövlətinin çoxəsrlik şanlı tarixinin ən parlaq intibah dövrünü yaşadığını qürurla söyləyə bilərik. Bu gün dünya dövlətləri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir.

Bu qürurun əsasında isə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın vətən və xalq naminə gərgin və miqyaslı fəaliyyəti, yüksək intellekt və dünyəvilik kimi şəxsi keyfiyyətlərinin möhtəşəm harmoniyası dayanır.

Tarixi həqiqətdir ki, vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir. Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir. Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir.

2016-cı ildə keçirilən referendum və Azərbaycanın Konstitusiyasında edilən dəyişikliklər ölkəmizdə siyasi və idarəçilik islahatlarının növbəti mərhələsini əks etdirir. Vitse-prezident institutunun təsis edilməsi dövlət idarəçiliyi sahəsində həm islahatçılıq konsepsiyasının ardıcıl surətdə həyata keçirilməsinin məntiqi nəticəsi, həm də yeni hədəflərə doğru inamlı addımların başlanğıcı sayılmaq qədər tarixi əlamətdarlıq yükü daşıyır. Lakin diqqəti çəkən və düşünülən islahatların gələcək uğurlu taleyinə zəmanət verən cəhət təsis edilən Birinci vitse-prezident vəzifəsinə ölkənin ictimai və siyasi həyatında yaxından iştirak edən, insanların dərin məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın təyin olunmasıdır.

Həmin tarixi hadisədən keçən müddətdə nəinki sözügedən təyinatın doğruluğunu tam təsdiq etdi, həm də bu seçimin Prezident İlham Əliyevin islahatlarının uğur simvoluna çevrildiyini nümayiş etdirdi.

Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı məhz sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlıdır. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilir, üzərilərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirir, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sıralarda dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Həyatının başlıca amalı məhz xeyirxahlıq və xoş niyyət olan birinci xanımın adı çoxşaxəli fəaliyyəti, insanlarla ünsiyyəti ilə sanki bir vəhdət təşkil edir. "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar. Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Bu sözləri Mehriban Əliyeva Birinci vitse-prezident kimi ilk çıxışında səsləndirib. Bu gün biz Mehriban xanımın söylədiyi fikirlərinin real həyatda uğurla həyata keçirdiyinin şahidiyik.

Bütün dövrlərin belə parlaq simaları üçün səciyyəvi keyfiyyətlərdən biri də onların qlobal miqyasda insanlığın nicatına xidmət edən ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. Bu baxımdan deyə bilərik ki, narahat dünyamızda nəcib və ali məqsədlər naminə əzmlə çalışan, insan amilini daim uca tutan sülh elçiləri sırasında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adı xüsusi çəkilir.

Xalqın taleyini öz taleyində yaşayan Mehriban xanımın mənəvi, ictimai və siyasi vəzifəni qürurla daşıması vətəninə, xalqına qəlbinin sonsuz istəyi ilə xidmət etməsi ictimai mühitə gəldiyi vaxtlardan görünməyə başlamışdır.

Mehriban xanım gəncliyindən öz çalışqanlığı ilə hər yerdə və hər zaman birincilik statusunun qazanması, uğurlara nail olması ilə fərqlənib. Ziyalı ailədə doğulub-böyümüş, mükəmməl təlim-tərbiyə almışdır.

Gənc yaşından isə Ulu Öndər Heydər Əliyev kimi dövlət xadiminin ailəsində mənimsədiyi siyasi təlim və əhatəli sosial baxış, akademik Zərifə xanım Əliyevadan öyrəndiyi ictimai-mədəni davranış, insani nəciblik və mərhəmət, valideynlərindən aldığı nümunəvi ailə tərbiyəsi Mehriban xanım Əliyevanın illər boyu formalaşan ictimai-siyasi-mədəni təməli olmuşdur.

Mehriban xanımın qadın lider olaraq formalaşması və yüksəlməsi həm daxili istedadı, bacarığı, mükəmməl təhsili, praqmatik zəkası, həm də taleyinə yazılmış Ulu Öndər Heydər Əliyev kimi böyük strateqin həyat və siyasət məktəbindən yetərli dərs alması olmuşdur.

Mehriban xanım 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunun prezidenti, 2002-ci ildə isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi üzərinə böyük məsuliyyət götürərək, yaddan çıxmış sahələri ətalətdən çıxararaq onlara kütləvilik elementləri ilə zəngin olan ictimai məzmun verdi. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması, təbliği üçün ilk olaraq "Azərbaycan-İrs" jurnalını təsis etməklə başladı. Təbii ki, görülən işlərin mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban xanımın Azərbaycan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı.

Mehriban xanım 2004-cü il mayın 10-da Heydər Əliyev Fondunun yaradılması ilə Ulu Öndər Heydər Əliyevin vətənimizin və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Onun qarşıya qoyduğu məqsəd, demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş çalışmalar, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdur. Görülən işlərin, irimiqyaslı layihələrin həcmini təsəvvürə gətirəndə aydın olur ki, bütün bunlar Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətən və xalq naminə qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəldiyinin bariz nümunəsidir.

Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirmiş, hətta fəaliyyət göstərdiyi müddətdə Azərbaycanın həm daxildə, həm də xaricdə böyük nüfuz qazanmasına, yeni dünya cəmiyyətinin öndə olan ölkələrindən birinə çevrilməsinə güclü dəstək olmuşdur. Bu, ən çox insan faktoruna ali münasibəti, ölkəmizin beynəlxalq arenada layiq olduğu mərtəbədə qərarlaşması ilə dəyərlidir. Dövlət başçısı Prezident İlham Əliyev fondun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Mehriban xanımın Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçilməsi də ölkəmizdə idmanın inkişafına təkan vermişdir. Azərbaycanda bir-birinin ardınca keçirilən beynəlxalq konfrans və festivallar, yüksək səviyyədə təşkil olunan idman oyunları dünyanın nüfuzlu dövlətlərinin böyük marağına səbəb olmuşdur. "Bakı-2015" 1-ci Avropa Oyunları Təşkilat Komitəsinin sədri kimi fəaliyyəti iştirakçı ölkələr tərəfindən yüksək qiymətləndirilmiş, ölkə rəhbərliyi tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur. Ölkəmizdə 4-cü İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsində də Təşkilat Komitəsinin sədri kimi onun zəhməti əvəzsizdir.

Yeri gəlmişkən, bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycan növbəti böyük idman yarışına - III MDB Oyunlarına evsahibliyi edəcək. Bunun üçün bir neçə şəhər və rayon seçilsə də, MDB Oyunlarının açılış və bağlanış mərasimləri, həmçinin əsas oyunlar Gəncədə keçiriləcəkdir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhər stadionunda və digər idman obyektlərində aparılan hazırlıq işlərinin gedişi ilə tanış olublar.

Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın ilk keçirdiyi müşavirə müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin mənzillə təmin edilməsinə həsr edildi. Birinci vitse-prezident bildirdi ki, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı üçün lazım olan tədbirlərin mərhələlərlə həyata keçirilməsi davam edir.

Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədər sadədir. O, əzmkar fəaliyyəti ilə təkcə milli-mənəvi dəyərlərin, mənəvi və qeyri-maddi irsin dünya miqyasında təbliğini deyil, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, multikulturalizmi, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Mehriban xanım Əliyeva üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir. Milli Məclisin deputatı kimi Mehriban xanım, sözün əsl mənasında, xalqın elçisi olmuşdur. Millət vəkili olaraq ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi istiqamətində fəaliyyəti aktual problemlərə olan həssas münasibətin ifadəsi idi.

Milli Məclisdə respublikamızın qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbul edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı qanunlara dəyişiklik edilməsi, əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsi, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaradan yeni qanunların qəbul edilməsində Mehriban xanımın iştirakı diqqətəlayiq olmuşdur. Elə bu səbəbdən Birinci vitse-prezident Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

Mehriban xanımın rəhbərliyi altında əvvəlki illərdə Rusiya Federasiyasında keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumlarında Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri də iştirak etmişlər. Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərə konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr də qatılmışlar.

Keçən il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsini beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadın, eləcə də milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfələrimizin təqdirinin bariz nümunəsidir. Bu tədbirin həyata keçirilməsi işinin təşkilində ölkənin Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın da müstəsna əməyi vardır.

Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmayıb, ümumbəşəri mahiyyəti ilə diqqəti cəlb edir. Xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda təqdir edilir.

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal antiterror əməliyyatı zamanı qazanılan möhtəşəm qələbə də ölkədə formalaşmış siyasətin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Torpaqlarımızın işğaldan azad olunması Qurtuluş günündən sonra tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan növbəti böyük Zəfərdir.

2024-cü il prezident seçkilərində dövlət başçısı qarşıda dayanan vəzifələri, milli prioritetləri elan etdi. Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışı respublikamızın gələcəyinə olan konseptual baxış idi. O, çıxışında qeyd etdi ki, "Hər birimiz öz fəaliyyət sferamızda fəal olmağı, əməllərimizlə ölkədə həyata keçirilən siyasi kursa layiqli töhfələr verməliyik".

Uğurların əsası, əlbəttə ki, Azərbaycan iqtisadiyyatıdır. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə ümumi daxili məhsul 4 dəfə, büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi 10 dəfədən çox artıb. Valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 72 milyard dollara yüksəlib. Minimum əməkhaqqı 400, minimum pensiyalar 320 manata çatıb. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərin bərpasına, yenidən qurulmasına, tikinti-abadlıq işlərinə 22 milyard manat vəsaitin ayrılması Azərbaycan iqtisadiyyatının davamlı inkişafda olmasının nəticəsidir. Dövlət başçısı haqlı olaraq bildirir ki, Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır.

İqtisadi inkişafın tərkib hissəsi olan Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərində Mehriban Əliyevanın nümayiş etdirdiyi quruculuq əzmi olduqca qürurvericidir.

Qarabağ müharibəsində həlak olmuş şəhid ailələrinə və qazilərə Mehriban xanımın təşkilatçılığı ilə göstərilən sosial yardımlar davam edir. Ümumiyyətlə, şəhid ailələri və qazilərin qayğıları hər zaman dövlət üçün prioritet məsələ olmuş, onların çətinliklərinin həlli daim dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Bu sahədə dövlət orqanları ilə yanaşı, Heydər Əliyev Fondu da geniş və səmərəli işlər görür. Fond tərəfindən qazilər protez ortopedik vasitələrlə təmin edilir, şəhid və qazi övladlarının problemləri həll olunur, onlarla mütəmadi əlaqələr qurulur.

Bu sahədə görülən tədbirlərdən biri də bütün yerli icra hakimiyyəti orqanlarında şəhid ailələri və qazilərlə iş üzrə müvafiq struktur bölmənin yaradılmasıdır. Yerli icra hakimiyyətlərində yeni yaradılmış bu şöbələrin əsas funksiyası şəhid ailələri və qazilərin müraciətlərinin dərhal icraata qəbul edilməsi, onların həlli istiqamətində müvafiq addımların atılması və nəticələri barədə məlumatların verilməsidir.

Mehriban xanım öz çıxışlarının birində demişdir: "Bu gün biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə və dözümlülüyünüzə görə sizə minnətdarıq! Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə görə! Vətənə sədaqətlə xidmət etmək nümunəsinə görə! Siz bizim fəxrimizsiniz! Bu əlamətdar gündə Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Bütün əsgər və zabitlərimizi səmimi-qəlbdən təbrik edirəm, Uca Tanrıdan onların hər birinə möhkəm cansağlığı, sevinc, sevgi və səadət, doğma Azərbaycanımıza sülh və əmin-amanlıq bəxş etməsini diləyirəm!"

Doğma Qarabağ və Şərqi Zəngəzur torpaqlarında geniş quruculuq işləri aparılır, 30 ildə erməni vandalları tərəfindən dağıdılan evlər, sosial infrastruktur, talan olan ərazilər, meşələr, tarixi-mədəni-dini abidələr bərpa olunur. Bu işlərdə də şəxsən Mehriban xanımın xüsusi yanaşmasını hiss etməmək mümkün deyil. Onun tapşırıqları əsasında həyata keçirilən layihələr tezliklə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcək, bir çox beynəlxalq tədbirlərin keçiriləcəyi məkan olacaqdır.

Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda 8 avqust 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan respublikasının Prezidenti cənab İlham Əliyevlə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında sülh müqaviləsi layihəsi paraflanmışdır.

Sülh sazişinin iqtisadi əhəmiyyəti regionda davamlı sabitliyin güclənməsi və xarici sərmayələrin artımı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında maneəsiz quru yolun açılması, yeni tranzit imkanlarının formalaşması və qeyri-neft sektorunun inkişafı üçün əlverişli şərait və nəqliyyat-logistika potensialının əhəmiyyətli dərəcədə güclənməsi kimi mühüm aspektləri özündə birləşdirir. Bu təşəbbüslər sayəsində Azərbaycan genişmiqyaslı infrastruktur layihələrinə evsahibliyi edərək, Avropa-Asiya ticarət dəhlizində strateji mövqe tutacaq. Nəticədə iqtisadiyyatımızın şaxələnməsi sürətlənəcək, qeyri-neft sahələri mühüm investisiya yönlü sektorlar olaraq formalaşacaq.

Azərbaycanın beynəlxalq hüquqa əsaslanan məntiqli mövqeyi danışıqlarda müvəffəqiyyət qazanılmasını təmin etmişdir. Dövlət başçısı ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığını və qonşu ölkələrlə əməkdaşlığa əsaslanan münasibətləri daim vurğulamış, danışıqlarda məhz bu prinsipləri müdafiə etmişdir. ABŞ Prezidenti Tramp çıxışında "35 il münaqişədən sonra indi tərəflər dost olublar" sözləri ilə bu tarixi razılaşmanın əhəmiyyətini vurğulamışdı. Eyni zamanda Avropa Birliyi bu sənədi "dayanıqlı sülhə gedən yol" adlandırmışdır. Bütün bunlar Azərbaycanın milli maraqlarına sadiq qalaraq apardığı fəal diplomatiyanın beynəlxalq səviyyədə dəstəkləndiyinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu məsələ ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edərək bildirmişdir: "Bu gün Vaşinqtonda Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın baş naziri tərəfindən Birgə Bəyannamə imzalandı və sülh sazişi paraflanmaqla yekun sülh sazişi istiqamətində mühüm addım atıldı. Bu tarixi hadisə münasibətilə xalqımızı təbrik edirəm! Qoy hər zaman sülh olsun! Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımıza Allah rəhmət eləsin! Uca Tanrı hər zaman doğma Azərbaycanımızı qorusun!"

Son illərdə Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atılır. Vətən müharibəsindəki böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi, yenidənqurma, tikinti-quruculuq işlərinin başlanması qarşıda duran ən prioritet məsələlərdir. Azərbaycan heç kimdən yardım almadan bu missiyanı da uğurla icra edir.

Ölkə Prezidenti və Birinci vitse-prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələri nəzarətdə saxlayır, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edirlər.

Azərbaycan Prezidenti işğaldan azad olunmuş rayonlara səfəri zamanı öz çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırır. Dövlət başçısı çıxışlarının birində qeyd etdi ki, "Mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə Prezidentinin bu çağırışını dəstəkləyir və ona görə də iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə öz töhfəsini verir.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Azərbaycan Sahibkarlar Konfederasiyası mütəmadi olaraq üzv sahibkarları ilə birlikdə tədbirlər keçirir, sahibkarların maarifləndirilməsi istiqamətində öz fəaliyyətini genişləndirir.

Təsadüfi deyil ki, dövlət və özəl sektor arasında səmərəli tərəfdaşlığın keyfiyyətcə növbəti mərhələyə yüksəldilməsi və risklərin, məsuliyyətin dövlət və özəl sektor arasında optimal paylaşdırılması müasir dünyanın ən mühüm çağırışlarından biridir. Bu dayanıqlı inkişaf üçün mühüm alətlərdən hesab olunur və əsas məqsədi müvafiq investisiya mühitinin təkmilləşdirilməsi yolu ilə bu sahədə beynəlxalq investisiyaların ölkəmizə axınının stimullaşdırılmasından ibarətdir.

Bu hədəflərə nail olunmasında isə özəl sektorun üzərinə böyük məsuliyyət və öhdəliklər düşür və Azərbaycan Sahibkarlar Konfederasiyası bu missiyanı uğurla icra etməkdə biznesə dəstək verməyə hazırdır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar olaraq bu işdə yaxından yardımçı olmalıdırlar.

Bütün müharibə dövründə ölkə rəhbərinin ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.

Azərbaycan sahibkarları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfəni yüksək dəyərləndirirlər. Son illərdə ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Mehriban xanımın rolu danılmazdır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Mehriban xanım tərəfindən görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Bütün Azərbaycan xalqı kimi sahibkarların da ölkənin birinci xanımına yüksək hörməti və ehtiramı danılmazdır. Bu hörməti Mehriban xanım Əliyeva hər bir azərbaycanlının istək və maraqlarına yaxın olması ilə qazanmışdır. Xeyirxahlıq onun amalında, mənəviyyatında, dövlətçiliyə sədaqət əqidəsindədir.

Praqmatiklik, kreativlik, siyasi çeviklik, yüksək erudisiya, alicənablıq, humanizm kimi ali şəxsi keyfiyyətlərə malik olan, milli köklərimizə, bəşəri ideyalara daim sadiq qalan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva vətənimizin və xalqımızın taleyində bundan sonra da müstəsna rol oynayacaq, ölkəmizin inkişafına yeni-yeni töhfələr verəcəkdir. Onun dövlətçiliyimizə və xalqımıza xidmət etmək arzusu bizdə olan bu inamı daha da gücləndirir.

Qarşıdakı illərdə ölkəmizin yüksəlişi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi tarixi missiyaya Mehriban Əliyevanın daha möhtəşəm töhfələr verəcəyinə cəmiyyətimizdə dərin inam mövcuddur.

"Tanrı Azərbaycanı qorusun" söyləyən xanım Mehriban Əliyeva, Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurla davam etdirilməsində, Prezident İlham Əliyevin "Güclü Azərbaycan" modelinin gerçəkləşdirilməsində müstəsna rolu və mövqeyi olan, modern Azərbaycan qadınının obrazını ölkəmizdə və beynəlxalq aləmdə parlaq surətdə canlandıran ictimai-siyasi xadimdir.

Mehriban xanım Əliyeva ölkəmizdə milli dövlətçilik institutunun formalaşmasına böyük töhfələr verən siyasi-mədəni rəhbər, çoxyönlü fəaliyyət meydanı ilə dünyada tanınan, qəbul edilən humanist siyasi xadimdir. Çağdaş Azərbaycan tarixinə onun adı artıq modern qadın rəhbər, fenomen qadın lider kimi yazılmışdır.

*Azərbaycan Sahibkarlar Konfederasiyası Mehriban xanım Əliyevanın xalqımızın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə inanır, ona Azərbaycanın parlaq gələcəyinin qurulması istiqamətində göstərdiyi yorulmaz fəaliyyətində uğurlar arzulayır.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***



# Milli təəssübkeşlik örnəyi

**Humanizm, xeyirxahlıq, xoş əməllər sahibi olmaq Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın genetik kod yaddaşı, nəcib ailəsindən ona ötürülən mənəvi irsdir. Yüksək insani dəyərlərin daşıyıcısı olan Mehriban xanım Əliyevaya bu ali keyfiyyətlər, milli-mənəvi ideallar, həm də doğulub böyüdüyü və yetişdiyi mühitdən əxz olunub.**

Dinindən, dilindən, irqindən asılı olmayaraq, insanlara dayaq-dəstək olmağı, onların üzünü güldürməyi, sözün əsl mənasında, həyat amalı sayan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həyat fəlsəfəsini elə özünün söylədiyi bu bir neçə kəlmə aydın ifadə edir: "Mən tam əminəm ki, mehribanlıq və səxavətlik dünyamızı daha da yaxşılaşdıra bilər. Mən inanıram ki, humanizm, mərhəmət və sevgi bizim həyatımızı daha da xoşbəxt edir".

Mehriban xanım Əliyeva humanizmə köklənmiş çoxşaxəli fəaliyyəti ilə Azərbaycan xalqının, hər bir vətəndaşın qəlbində özünəməxsus yer tutub. Sosial statuslarından asılı olmayaraq, bütün vətəndaşlarımız Mehriban xanımın timsalında özünün ən böyük hamisini, himayədarını görür. Hansısa çətinliyə düçar olan, problemlərlə üzləşən, nəyəsə ehtiyacı olan insanların üz tutduğu birinci güvənc yeri məhz Mehriban xanım Əliyevadır. Hər kəs bilir ki, Mehriban xanım ona edilən heç bir müraciətə qeydsiz qalmır, xahişi cavabsız qoymur, sidq ürəklə əlindən gələn qədər çalışır ki, insanlar naümid, çarəsiz vəziyyətdə qalmasın.

Əbəs yerə deyil ki, valideyn himayəsindən məhrum uşaqlar Mehriban xanım Əliyevanı özlərinin mənəvi anası sayırlar. Çünki Mehriban xanım Əliyeva mütəmadi olaraq uşaq evlərində onlara baş çəkir, ünsiyyətdə olur, gələcək həyatlarında uğurlu olmaları üçün dəstək verir. Azərbaycanın birinci xanımı insanların xoşbəxt yaşamaları üçün onlara həyatın bütün sferalarında dayaq olur, təhsil, səhiyyə sahələrində əlindən gələn köməyi edir, sosial şəraitlərinin yaxşılaşdırılmasına çalışır.

Keçmiş məcburi köçkünlərin yurd nisgillərini bölüşəndə də, şəhid analarını bağrına basıb kövrələndə də, valideyn himayəsindən məhrum uşaqları sevindirəndə də, xoş günlərdə onlarla birgə şənlənəndə də, qol götürüb oynayanda da xanım Mehriban Əliyevanı daim xalqının yanında, onların sevincinə də, kədərinə də şərik olan görürük.

Gücünü xalqının sevgisindən, hörmətindən, doğmalığından alan Mehriban xanım Əliyevanın Azərbaycan xalqının xoşniyyət, güləruz, mehriban qızı olaraq əlamətdar günlərlə, bayramlarla bağlı etdiyi müraciətlərinin sonunda qürurla "Sizin Mehriban" imzasını qoyması da əbəs deyil.

Ötən illər ərzində dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasına dayanan və uzaqgörən siyasəti sayəsində ölkəmiz tarixindəki ən qüdrətli dövrünü yaşayır. Torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü, suverenliyini tam təmin edən Azərbaycan bu gün dünyanın sayılıb-seçilən, nüfuzlu ölkələri sırasındadır. Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti uzun illərdən sonra bölgəmizə barış gətirib. Bu il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyannamə imzalamaları həm Cənubi Qafqaza uzunmüddətli sülh vəd etməsi, həm də ölkəmizin möhtəşəm diplomatik qələbə qazanması baxımından böyük tarixi əhəmiyyətə malikdir.

Azərbaycanın bugünkü qələbələr zirvəsinə ucalması birbaşa Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düzgün və düşünülmüş uğurlu siyasətin nəticəsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva dövlətimizin rifahına xidmət edən bu inkişaf və uğurlu strategiyaya hər zaman Prezident İlham Əliyevlə çiyin-çiyinə, onun yaxın silahdaşı kimi sidq ürəklə xidmət edir. Milli maraqlarımız uğrunda yorulmaz fəaliyyət göstərən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti çoxşaxəliliyi ilə seçilir. Hələ 2005-ci ildən etibarən üç çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmiş xanım Mehriban Əliyevanın millət vəkili kimi fəaliyyəti də praqmatik addımlarla yadda qalıb. Seçicilərinə xüsusi diqqət və qayğı ilə yanaşan Mehriban xanım Əliyeva Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə milli qanunvericiliyimizin təkmilləşməsinə əhəmiyyətli töhfələr bəxş edib. Təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında minlərlə insanın azadlığa çıxması xanım Mehriban Əliyevanın humanizm ideyalarına dayanan əməllərinə növbəti nümunədir.

Azərbaycanın inkişafına, dünyada təbliğinə töhfələr verən ictimai-siyasi xadim Mehriban xanım Əliyeva fədakar silahdaş olaraq Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri uğurla yerinə yetirir. Onun təşkilatçılığı ilə Azərbaycan dövlətinin beynəlxalq miqyaslı neçə-neçə tədbirə layiqli şəkildə evsahibliyi etməsinin şahidi olmuşuq. İstər "Avroviziya" mahnı müsabiqəsi, istərsə də I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi tərəfindən qısa müddət ərzində yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Azərbaycanda könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Birinci vitse-prezidentin böyük rolu var. Məhz hörmətli Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində yuxarıda sadaladığımız və ölkəmizin müvəffəqiyyətlə ev sahibliyi etdiyi digər mötəbər beynəlxalq tədbirlərdə, xüsusilə nəhəng iqlim sammiti COP 29-da on minlərlə könüllünün fəaliyyətinə şərait yaradıldı.

Azərbaycanın birinci xanımının ölkə idmanının inkişafında da mühüm xidmətləri var. Azərbaycan Gimnastika Federasiyasının inkişafı isə birbaşa Mehriban Əliyevanın adı ilə bağlıdır.

2017-ci il fevralın 21-də Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması ilə Azərbaycanın siyasi idarəetmə tarixində yeni bir səhifə açılmış oldu. Buna qədər hərtərəfli və humanizm dəyərlərini əsas tutan missiyası ilə Vətənə layiqli xidmət edən Mehriban xanım Əliyevanın Prezident İlham Əliyev tərəfindən Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi təsadüfi xarakter daşımırdı, olduqca geniş, çoxşaxəli və məzmunlu fəaliyyətə əsaslanırdı.

Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva fəaliyyətində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi aparıcı siyasi kursun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafını, xalqımızın sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsini prioritet götürüb. Həmin vaxtdan ötən dövr ərzində Prezident İlham Əliyevin yüksək etimadını doğruldan təqdirəlayiq fəaliyyəti ilə Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi xalqımızın böyük inamını və sonsuz sevgisini qazanıb. Başqa cür desək, Mehriban xanım Əliyeva Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürərək onların reallığa çevrilməsi istiqamətində atdığı addımları ilə qədirbilən xalqımızın Ona olan sevgisini, məhəbbətini daha da artırıb. Milli və ictimai məzmunlu işləri, çoxşaxəli və səmərəli fəaliyyəti ilə xanım Mehriban Əliyeva həm də Birinci vitse-prezidentlik institutunda nümunə, məktəb yaradıb.

Çoxşaxəli fəaliyyətində sosial məsələlərin həllinə geniş yer ayıran Azərbaycanın Birinci vitse-prezidenti genişmiqyaslı və ictimai əhəmiyyətli layihələrin həyata keçirilməsində mühüm təşəbbüslər irəli sürüb. Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ yaradan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə yaradılan DOST layihəsi də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir.

Azərbaycanın layiqli evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu da fəal iştirakı ilə xüsusi diqqət çəkdi. Təbiətin mühafizəsinə fəaliyyətində geniş yer ayıran Birinci xanım Mehriban Əliyeva BMT-nin nüfuzlu tədbiri çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunan konfransda etdiyi çıxışında da "yaşıl dünya"nın vacibliyini xüsusi vurğuladı. COP29-un keçirildiyi ərazidə - "yaşıl zona"da yerləşən Heydər Əliyev Fondu və qardaş Türkiyənin birinci xanımı Əminə Ərdoğanın təşəbbüskarı və rəhbəri olduğu Sıfır Atık Fondunun birgə yaratdıqları Həmrəylik Mərkəzi təbiətə həssas yanaşmanı, həqiqətən də özündə əks etdirirdi.

Ölkəmizin rifahı naminə çalışan, bu yolda Prezident İlham Əliyevə əsl silahdaş olan Mehriban xanım Əliyevanın fəaliyyətində diqqətçəkən mühüm məqamlardan biri də onun təkcə doğma xalqımızın deyil, xalqların inkişafına hesablanmış və çoxdan sərhədlərimizi aşan xoşməramlı missiyasıdır. Dünyada çoxsaylı müharibələr gedir, vaxtaşırı pandemiyalar yayılır, dəhşətli təbiət hadisələri baş verir. Qlobal fəlakətlərlə mübarizə və onların fəsadlarının aradan qaldırılması istiqamətində bu gün də Mehriban xanım Əliyeva yorulmaz fəaliyyət göstərir.

2023-cü ildə Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və göstərişi ilə zəlzələdən zərərçəkənlərə yardım və zəruri ehtiyaclar göndərildi ki, bu xoşməramlı əməl özündə təkcə humanitar yox, zəngin mənəvi çalarlar daşıyırdı. Bundan əvvəl, 2005-ci ildə Pakistanda baş verən və xeyli sayda insan tələfatına səbəb olan dəhşətli zəlzələ zamanı Müzəffərabad şəhərində dağılmış 150 nəfərlik məktəbin yerində 2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən 500 nəfərlik müasir məktəb binası inşa edilmişdir. 2012-ci ildə isə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva adına yenidən əsaslı təmir olunmuş qızlar məktəbinin açılış mərasimi keçirilmişdir. Həmçinin Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Parisdə Luvr muzeyində islam mədəniyyəti bölməsinin təşkili, Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası və bu kimi çoxsaylı və bəşəri irsin qorunmasına xidmət edən xoşməramlı missiyası dünyada geniş rezonans doğurmuşdur.

Mehriban xanım Əliyevanın yorulmaz və örnək götürüləsi fəaliyyətinin əsasını xalqımıza məxsus mənəvi dəyərlərin qorunması, ölkəmizin həqiqətlərinin dünyada təbliği, milli maraqlarımızın qətiyyətli müdafiəsi istiqamətində gördüyü işlər təşkil edir. Azərbaycan xalqı olaraq biz buna 27 sentyabr 2020-ci ildə başlayan zəfər yolçuluğumuz zamanı da yaxından şahid olduq. 44 günlük Vətən müharibəsinin hər günündə Mehriban xanım Əliyeva Birinci vitse-prezident olaraq bir dövlət xadimi, torpağını sevən bir azərbaycanlı kimi şanlı ordumuza, qəhrəman xalqımıza daim dəstək nümayiş etdirdi. Həmin çətin, sınaqlarla dolu mübarizə günlərimizdə Mehriban xanım Əliyeva haqq işimizin beynəlxalq aləmə duyurulması istiqamətində yorulmadan fəaliyyət göstərdi. Düşmənin cəbhə bölgəsindən uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə məruz qoyaraq mülki əhalimizi hədəf almasını beynəlxalq aləmə çatdırdı.

Həmin günlər rəsmi "İnstaqram" səhifəsində etdiyi paylaşımların birində Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edən birinci xanım Mehriban Əliyeva vurğulayırdı ki, bu gün xalq niyyəti, hərəkət və duaları ilə misli görünməmiş birlik göstərir: "Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Birinci xanımın bu duası həm də ana torpağımızın Mehriban xanım Əliyevanın qəlbində hansı əlahiddə müqəddəs məqamda olduğunun zərif təcəssümü idi.

Haqq uğrunda Vətən savaşına çıxdığımız 44 günlük müharibə zamanı cəbhədən gələn qələbə müjdələri ilə yanaşı, şəhid xəbərləri alıb dərindən kədərlənirdik. Həmin ağır günlərdə daim xalqının yanında olan, onlarla birgə sevinib, birgə kədərlənən Mehriban Əliyeva şəhid yaxınlarına ən böyük dayaq oldu. "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm", - deyə keçirdiyi ağır sarsıntıları, şəhid ailələrinin dərdinə şərik olmasını, onların kədərlərini bölüşməsini bu cür kövrək sözlərlə ifadə etmişdi əziz Mehriban xanım.

Ümummilli Lider Heydər Əliyevin milli ideyalarına əsaslanan və Mehriban xanım Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi dövrdə ölkənin ictimai həyatının bütün sahələrində vacib işlərə imza atıb. Heydər Əliyev Fondu uzun illərdir təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Təhsil sahəsindəki "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi layihələr də bu qəbildəndir.

Artıq 5 ildir ki, Heydər Əliyev ideyalarının daha bir təntənəsi Qarabağda və Şərqi Zəngəzurda yaşanır. İşğaldan azad edilmiş bu torpaqlar indi yenidən qurulur, onlara yeni həyat verilir. Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə indiyədək görülmüş işlərin miqyası böyük və həm də qürurvericidir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən görülən işlər xüsusi diqqətə layiqdir. Fondun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Qarabağda, Zəngəzurda həyata keçirilən quruculuq işləri azad edilmiş ərazilərin bərpası prosesinə böyük təkan və yaddaqalan töhfələr verir.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyevlə birlikdə işğaldan azad olunan ərazilərimizə mütəmadi səfərlər etməsi Mehriban xanım Əliyevanın tarixi ərazilərimizin bərpası və keçmiş məcburi köçkün vətəndaşlarımızın öz yurdlarına qaytarılmasına göstərdiyi həssas münasibətin təzahürüdür. Dövlətimizin başçısı ilə birgə o yerlərə səfər edən Mehriban xanımın dağıdılmış ərazilərimizlə bağlı çəkib paylaşdığı videogörüntülər erməni vandallığını bir daha dünyaya tanıtdı. Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu işğaldan azad edilən torpaqlarımızdakı quruculuq işlərinə dəstək verir, xüsusilə də düşmən tərəfindən vəhşicəsinə dağıdılan tarixi, mədəni, dini irsimizin bərpası ilə əlaqədar mühüm fəaliyyət göstərir.

İşğaldan azad edilmiş ərazilərdə Heydər Əliyev Fondu tərəfindən ilk bərpaolunan abidələrdən biri böyük şair Molla Pənah Vaqifin məqbərəsidir. Görkəmli şairin Şuşada yerləşən büstü də Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub. Cıdır düzündə yerləşən Mir Möhsün Nəvvab Qarabağinin məzarı və qəbirüstü abidəsi, məşhur tarzən, bəstəkar Sadıqcanın vaxtilə yaşadığı ev, "Şirin su" hamamı bərpa olunub, Milli Xalça Muzeyinin Şuşa filialı yenidən qurulub, Şuşa Yaradıcılıq Mərkəzi, Mehmandarovların malikanə kompleksi təmir-bərpadan sonra istifadəyə verilib. Üzeyir bəy Hacıbəylinin Şuşada yerləşən heykəli Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanıb.

Heydər Əliyev Fondu Şuşada Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa, Saatlı, Mamayı və Çöl Qala məscidlərini bərpa edərək dini ayinlərini icra etmələri üçün şuşalıların ixtiyarına verib. Şuşada təməli Prezident İlham Əliyev tərəfindən qoyulan yeni məscidin tikintisi də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Həmçinin Ağdam Cümə məscidi əvvəlki görkəminə qaytarılıb, Zəngilan məscidində də Heydər Əliyev Fondu bərpa-tikinti işləri həyata keçirib.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda tarixi mədəni ənənələrin bərpasını da həyata keçirir. Zəfər qalamız Şuşada - Cıdır düzündə fond tərəfindən keçirilən "Xarıbülbül" Musiqi festivalları bu ərazilərə milli ruhumuzun qayıdışını simvolizə edir.

Mehriban xanım Əliyevanın vətənə xidmət qayəsinin mükəmməl örnəyini həm də qədim tarixə malik Naxçıvan Muxtar Respublikasının timsalında da görürük. Birinci xanımın müxtəlif vaxtlarda Prezident İlham Əliyevlə birgə bu ulu diyara səfərləri muxtar respublikanın inkişafında yeni tarix yazıb. Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevlə birlikdə Əshabi-Kəhf ziyarətgahını ziyarət etməsi, 2008-ci ildə Türkiyənin o zaman baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı Naxçıvan ictimaiyyəti tərəfindən hər zaman minnətdarlıqla xatırlanır.

2009-cu ildə Prezident İlham Əliyev və Mehriban xanım Əliyevanın Naxçıvan şəhərində Heydər Əliyev Sarayının yenidənqurmadan sonra açılış mərasimində iştirakı, həmçinin Naxçıvan şəhərində "Badamlı" mineral sular zavodunun, Naxçıvan şəhərində yeni inşa olunmuş Şahmat Mərkəzinin, eləcə də Şərur rayonunda Olimpiya-İdman Kompleksinin açılışlarında iştirak etməsi də buna bariz nümunələrdir.

2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə məhdud fiziki imkanlı insanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi yaradılaraq istifadəyə verilib. Mehriban xanım Əliyevanın muxtar respublikaya böyük hədiyyəsi olan mərkəzin açılışı zamanı Prezident İlham Əliyev də Heydər Əliyev Fondu tərəfindən yaradılan bu mərkəzin vacib əhəmiyyət daşıdığını vurğulamışdı: "Burada fiziki imkanları məhdud olan uşaqlar üçün bütün şərait yaradılıbdır. Bildiyiniz kimi, Heydər Əliyev Fondu çox böyük fəaliyyətlə məşğuldur. Azərbaycanın bütün bölgələrində məktəb tikintisi, xəstəxanaların avadanlıqla təchiz edilməsi, mədəni irsimizin qorunması sahəsində böyük işlər görür. Eyni zamanda uşaqlar, yeniyetmələr, kimsəsiz uşaqlar üçün şərait yaradılır".

Xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vətən müharibəsində şəhid olmuş naxçıvanlı övladlarımızın ailə üzvlərinə, qazilərə yaxından diqqət və qayğısı isə qədirbilən naxçıvanlıların yaddaşından heç vaxt silinməyəcək.

*Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti və digər sahələrdəki çoxvektorlu fəaliyyəti göstərir ki, Mehriban xanım Əliyeva Azərbaycan dövlətinin, xalqının rifahı və inkişafı naminə yorulmadan və səylə xidmət göstərir. Onun fəaliyyətinin qısa xronikasından da göründüyü kimi, bütün bu işlər Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının gerçəkləşməsi yönündə həyata keçib.*

***Bəxtiyar ƏSGƏROV,***
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının***
***Daimi Nümayəndəliyinin rəhbəri***



# Xalqın Mehribanı

## Birinci vitse-prezidentin fəaliyyəti humanizmə, quruculuğa və rifaha xidmət edir

**Humanizm, xeyirxahlıq, nəciblik, insanlara və cəmiyyətə faydalı olmaq duyğusu bəşəriyyət var olduqca yaşayan dəyərlərdir. Bu ali keyfiyyətlərin daşıyıcıları isə həmin missiyanı yerinə yetirə biləcək böyük şəxsiyyətlərdir. Onlar saleh əməlləri ilə adlarını ucaldır, nəsillərin yaddaşına əsl örnək kimi daxil olurlar. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva da məhz belə şəxsiyyətlərdəndir. Bu nəcib xanımın keçdiyi həyat yolu, malik olduğu dəyərlər, gördüyü işlər ölkəmizdə və bütün dünyada böyük rəğbətlə qarşılanır, xeyirxahlığın, mehribanlığın, sevginin simvoluna çevrilir.**

### "Bizim birinci xanım"

Azərbaycan və dünya ictimaiyyətinə, adı daha çox, ötən əsrin 90-cı illərinin ortalarından yaxşı tanış olan Mehriban xanım Əliyevanın bu uzun illər ərzində yerinə yetirdiyi vəzifələr, gördüyü işlər çoxşaxəlidir - Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, "Azərbaycan-İrs" jurnalının redaktoru, Azərbaycan Gimnastika Federasiyasının rəhbəri… Bu vəzifələrin hər biri şərəfli Azərbaycan qadınının fəaliyyətinin yalnız bir istiqamətini əks etdirir. Lakin bütün bu vəzifələrin, ali yüksək məqamların arxasında duran bir əsas mənəvi vəzifə var: xalqa və insanlığa xidmət missiyası.

Elə buna görə də milyonlarla insan üçün o, bütün titullardan, vəzifələrdən kənar sadəcə doğma bir insandır, hər kəsin ümid və qürur yeridir, özünün də ifadə etdiyi kimi, "Bizim Mehriban"dır. Bu doğma adı ilə Mehriban xanım Əliyeva - Azərbaycan qadınının müasir siması, xalqın sevgi və ehtiramını qazanmış şəfqət, ümid işığı, xeyirxahlıq, haqq-ədalət ünvanıdır.

Prezident İlham Əliyevin söylədiyi kimi: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır".

Hansısa məsələdə dara düşən, çarəsiz qalan, problemlərinin həllini axtaran insanların ilk xatırladığı adlardan biri də məhz onun adıdır: insanlar Mehriban xanım Əliyevaya üz tutur, məktub yazır, qəbuluna gəlir və ən önəmlisi - heç kim bu addan, ünvandan ümidsiz geri dönmür.

Mehriban xanımın səmimiyyəti, sadəliyi, insanlara yaxınlığı, mehribanlığı onun ətrafında xüsusi bir mühit formalaşdırır. Bu mühitdə saxtakarlığa yer yoxdur - yalnız etibar, xoş enerji, saf münasibət var. İnsanların dərdini dinləmək, çətinliyini bölüşmək, ona əl uzatmaq - bütün bunlar onun həyat kredosuna çevrilib. Birinin ağrısını öz ağrısı kimi yaşamaq, hər bir müraciətə insanlıqla yanaşmaq isə onu fərqləndirən əsas xüsusiyyətdir.

### Sosial sifarişdən doğan böyük etimad

Səkkiz il əvvəl Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban xanım Əliyeva ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olundu. Vətəndaşlarımızın ürəyindən xəbər verən bu qərar adi bir vəzifə təyinatı deyildi. Son illər ölkəmizdə aparılan ardıcıl islahatların, baş verən dəyişikliklərin bundan sonra daha da sürətlənəcəyinin, Azərbaycanda müsbətə doğru əsaslı dəyişikliklərin baş verəcəyinin, idarəetmə sistemində və ümumən cəmiyyətimizdə tamamilə yeni bir dövrə keçidin xoş müjdəsi idi.

Azərbaycanın Birinci vitse-prezidenti təyinatı 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla ölkə Konstitusiyasına edilmiş dəyişikliklər əsasında yaradılmışdı. Bu dəyişikliyə qədər Azərbaycanın idarəetmə sistemində belə bir təsisat mövcud deyildi. Özünü doğrultmuş bu mütərəqqi dünya təcrübəsinin Azərbaycanda da yaradılması bir sıra məqsədlərə xidmət edirdi. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün aparılan sistemli islahatlar fonunda vitse-prezidentlik institutu dövlət idarəetməsinin daha səmərəli və çevik hala gətirilməsinə töhfə verir. Daxili və xarici siyasətdə səmərəliliyin əldə olunmasına, bir çox məsələnin, layihənin icrasında daha operativ qərarların qəbuluna, onların icrası vəziyyətinin həssaslıqla nəzarətdə saxlanmasına şərait yaradır, ölkənin iqtisadi və sosial inkişaf strategiyasının gücləndirilməsində mühüm rol oynayır.

Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə məhz Mehriban xanım Əliyevanın təyin edilməsi, əslində, xalqımızın sosial sifarişi idi. Vətəndaşlarımız əmin idilər ki, bu təsisatı ən mükəmməl şəkildə məhz Mehriban xanım formalaşdıra, bu vəzifənin öhdəliklərini layiqincə yerinə yetirib cəmiyyətimizin, insanlarımızın həyatına yeni faydalar gətirə bilər.

Prezident İlham Əliyevin bu qərarı bir tərəfdən Azərbaycan naminə görülmüş işlərin, ardıcıl fəaliyyətlə dövlətimiz, cəmiyyətimiz üçün yaradılmış faydaların layiqli qiyməti, digər tərəfdən isə cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verilən dəyərin ifadəsidir. Mehriban xanım bu təyinatdan sonrakı müsahibələrinin birində qeyd edirdi ki, onun Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağı barədə qərar məhz Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü idi: "Əlbəttə, mənim artıq uzun illər Prezidentin təkcə həyat yoldaşı deyil, deyə bilərəm ki, həmməsləki olmağım yəqin ki, öz rolunu oynayıb. Lakin düşünürəm ki, onun belə qərara gəlməsinin səbəbi bu deyildi. Əsas budur ki, rəhbər vəzifədə - Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev, ilk növbədə, ölkənin və Azərbaycan xalqının maraqlarına istinad edir. Düşünürəm ki, bu qərarı da o, bu prinsiplərə istinad edərək qəbul etmişdir. Buna görə də, əlbəttə, üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".

21 fevral 2017-ci ildən keçən tarix salnaməsinin hər səhifəsi bu inamı doğruldan layiqli işlərlə, real əməllərlə, parlaq nəticələrlə zəngindir. Bu illərdə Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətinin ən mühüm istiqamətlərindən biri sosial sahəyə aid olmuşdur. Dövlətimizin genişmiqyaslı sosial inkişaf proqramlarının icrasında, bu çərçivədə görülən işlərin bilavasitə nəzarətdə saxlanmasında çox mühüm rol oynamış, həyata keçirilən sosial siyasətin öz məqsədlərinə çatmasına, bu sahəyə yönələn resurslardan səmərəli şəkildə istifadə edilməsinə, ən yaxşı beynəlxalq təcrübələrin, innovasiyaların tətbiqinə nail olmuşdur.

Dövlətimizin sosial dəstəyi, diqqət və qayğısı ilə əhatə olunmuş hər bir Azərbaycan vətəndaşı bu nailiyyətləri gündəlik həyatında hiss edir.

### Xeyirxahlıq genindən gəlir

Bir müddət əvvəl dünya mətbuatı onun haqqında belə yazırdı: "Azərbaycanın birinci xanımı müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır". Bu dəqiq qiymətləndirmə heç də təsadüfi deyil. Mehriban xanım Əliyeva yalnız Azərbaycanın deyil, bütövlükdə Şərq qadınının müasir simasına, humanizm və nəciblik rəmzinə çevrilib. Azərbaycan qadınının ən gözəl keyfiyyətləri - qayğıkeşlik, mərhəmət onun simasında parlaq şəkildə öz əksini tapır.

Mehriban xanım dünyaya işıq bəxş edərək bu işığın zərrələrində aydın gələcəyə can atan şəxsiyyətlərdəndir. Tarixin ən müxtəlif dövrlərində yaşamış bütün böyük maarifçilər kimi, o da fərqindədir ki, insanların düşüncəsində, əməllərində, taleyində parlamağa başlayan işığın mənbəyi məhz təhsildən gəlir. Ona görə Mehriban xanım Əliyevanın fəaliyyətində təhsil xüsusi yer tutur. Onun təşəbbüsü ilə ölkəmizdə böyük uğurla həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu fəaliyyətin yaratdığı ən gözəl nəticələrdəndir. Bu layihə çərçivəsində ölkəmizin bütün bölgələrində müasir standartlara cavab verən, yüksək tədris mühiti təmin edən yüzlərlə yeni məktəb inşa edildi və yaxud mövcud olanları yenidən quruldu. Böyüməkdə olan nəslin sağlam və işıqlı sinif otaqlarında təhsil alması, müəllimlərin rahat və modern şəraitdə işləməsi üçün hər cür şərait yaradıldı. Əyalətlərdə yaşayan Azərbaycan balaları da paytaxtdakı həmyaşıdları ilə eyni standartlarda təhsil almaq imkanları qazandılar. Bu, yalnız bir infrastruktur layihəsi deyil - sosial ədalətin, bərabər imkanların, gələcəyimizə qayğının bariz nümunəsidir.

Bu gün ölkəmizin hər guşəsində tikilən yeni məktəblər sabaha atılan möhkəm təməldir. Burada təhsil alan hər bir uşaq Azərbaycanın gələcəyi, dövlətimizin intellektual potensialı deməkdir. Bu mənada, Mehriban xanım Əliyeva, sözün əsl mənasında, Azərbaycanın sabahını işıqlandıran yol açır.

Birinci xanımın təşəbbüsü ilə həyata keçirilən "Təhsilə dəstək" layihəsinin də məqsədi oxşardır. Layihə təhsildə bərabər imkanları təmin etmək, məktəblərdə və ali təhsil müəssisələrində şagird və tələbələrin ehtiyaclarını ödəmək, müəllimlərin iş şəraitini yaxşılaşdırmaqdır. Bu təşəbbüs çərçivəsində məktəblər müasir avadanlıq, kompüter sinifləri, laboratoriyalar, kitabxanalarla təmin edilir, ehtiyacı olan şagirdlərə təhsil vəsaitləri, dərsliklər paylanır. Layihə sayəsində minlərlə gənc daha keyfiyyətli təhsil almaq, potensialını reallaşdırmaq imkanına malik olur.

"Təhsilə dəstək" layihəsi yalnız maddi yardım deyil - bu həm də mənəvi dəstəkdir. Hər bir uşaq və gənc bilir ki, onların uğuru dövlətin və cəmiyyətin diqqətindədir, bu təbəqənin inkişafı gələcəyimiz üçün prioritetdir. Bu isə həmin təbəqəni daha məsuliyyətli, daha hədəfli və yaradıcı olmağa ruhlandırır. Mehriban xanımın təşəbbüsü ilə bu layihə çərçivəsində dünyanın müxtəlif ölkələrində də təhsillə bağlı dəstəkləyici tədbirlər həyata keçirilmiş, məktəblər inşa olunmuş, təhsil müəssisələrinin təchizatına dəstək verilmiş, bütün bunlar Azərbaycanın dünyadakı dostlarının sayını daha da artırmışdır.

### Mehriban ana

Mehriban xanım kimsəsiz körpələr üçün də ən doğma bir insandır. Bütün Azərbaycan balaları onun şəfqətli qəlbinin işığından pay alır, xəstəliklə mübarizə aparan balacalar onun qayğısında ümid tapır. Birinci vitse-prezident bu uşaqları bağrına basaraq Azərbaycan adlı böyük ailənin mərhəmətli qanadlarını onların üzünə açır.

Mehriban Əliyevanın təşəbbüsü ilə "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı" çərçivəsində paytaxtda və bölgələrdə yerləşən müəssisələrdə aparılan islahatlar, problemlərin öyrənilməsi və həlli istiqamətində görülən işlər uşaqların gələcəyinə inam bəxş edir. Azərbaycanın Birinci vitse-prezidentinin bayramlarda körpələr evlərinə etdiyi səfərlər, uşaqlara təqdim etdiyi hədiyyələr, saraylarımızda balacalar üçün təşkil olunan şənliklər sadəcə mərasim deyil - bu, saf sevginin, qayğının canlı təcəssümüdür. Artıq yaşa dolaraq uşaq evlərindəki həyatını başa vuran kimsəsiz gənclər üçün ölkənin müxtəlif regionlarında yaşayış binalarının tikintisi, onlara mənzillərin verilməsi, ailə qurub ev-ocaq sahibi olmalarına kömək göstərilməsi də əsl ana sevgisindən, qayğısından irəli gəlir.

Uşaqlar hər bir xalqın sabahı, millətin gələcəyidir. Onların sağlam böyüməsi, keyfiyyətli təhsil alması, cəmiyyətin fəal üzvünə çevrilməsi dövlətin və cəmiyyətin ən ümdə vəzifəsidir. Bəzənsə həyat uşaqları körpə vaxtlardan ağır sınaqlarla üzüzə qoyur. Onlardan biri də şəkərli diabetdir - hər gün ciddi nəzarət, pəhriz, xüsusi dərman və qayğı tələb edən xəstəlik fidan ömürlü balaların ömrünü təhdid edir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi erkən yaşlardan bu xəstəliklə mübarizə aparan uşaqlara kömək niyyətindən irəli gəlir. Layihənin məqsədi diabetdən əziyyət çəkən uşaqların həyatını asanlaşdırmaq, onların sağlamlığına diqqəti artırmaq, müasir müalicə vasitələri ilə təmin etməkdir.

Layihə sayəsində hər il minlərlə uşaq pulsuz olaraq insulin preparatları, müasir tibbi avadanlıqlar, lazımi dərman vasitələri ilə təmin olunur. Xüsusi tibbi müşahidə, maarifləndirici proqramlar, valideynlərlə keçirilən görüşlər uşaqların gündəlik həyatını daha rahat və təhlükəsiz edir.

Ən önəmlisi isə odur ki, layihə sadəcə tibbi yardım deyil - mənəvi dəstəkdir. Bu təşəbbüs hər bir uşağa "sən tək deyilsən, cəmiyyət sənin yanındadır" ismarışını verir. Diabetli balalarımıza göstərilən diqqət onların həyata daha güclü bağlanmasına, özlərinə inamlarının artmasına səbəb olur.

Mehriban xanım Əliyeva bu layihə ilə də bir daha təsdiqləyir ki, insan sağlamlığı, xüsusən uşaqların sağlam gələcəyi hər şeydən önəmlidir. Çünki sağlam gələcək, güclü dövlət deməkdir.

### Sağlam həyat naminə

Onun təşəbbüsü ilə həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi də bu baxımdan minlərlə ailə üçün ümid işığına çevrilib. Mehriban xanımın rəhbərliyi ilə ölkəmizdə Talassemiya Mərkəzinin yaradılması bu istiqamətdə atılmış ən mühüm addımlardan biridir. Burada müasir laboratoriyalar, qan bankı, yüksəksəviyyəli diaqnostika və müalicə imkanları mövcuddur.

Belə bir təşəbbüs sayəsində illər ərzində minlərlə uşaq və gənc yenidən həyat qazanıb, sağlam həyata qovuşmaq şansı əldə edib. Buna paralel olaraq cəmiyyətimizdə qan donorluğunun təşviqi, ictimaiyyətin məsələyə diqqətinin artırılması da həmrəylik və insanpərvərlik nümunəsidir.

Əslində, "Talassemiyasız həyat naminə" layihəsi sadəcə tibbi proqram deyil - bu, mənəvi missiyadır. Layihə hər bir uşağa "sənin gələcəyin var, sən ümidini itirmə" inamını aşılayır, minlərlə ailənin həyatına sevinc, işıq gətirir.

Mehriban xanım Əliyeva bu təşəbbüslə bir daha sübut etdi ki, "Talassemiyasız həyat naminə" həm də minlərlə insanın ürəyində yaşatdığı ümid dolu şüardır.

Birinci xanımın rəhbərliyi ilə indiyə qədər digər çoxsaylı sosial-humanitar layihələrə də imza atılıb. Fiziki əngəllilər üçün xüsusi mərkəzlərin yaradılması, ehtiyacı olanların tibbi təminatının gücləndirilməsi, BMT-nin İnkişaf Proqramı ilə birgə görmə qabiliyyətini itirmiş və zəif görən insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin olunması - bütün bunlar sadəcə layihə deyil, nə qədər insanın həyatını dəyişən real dəstəkdir.

### Mədəniyyətimizin hamisi

Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və dünyada təbliğində, tarixi irsimizin mühafizəsində də Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Dünya Azərbaycan həqiqətlərinə bu illər ərzində həm də birinci xanımın fədakar fəaliyyəti sayəsində bələd oldu, region tarixini onun ardıcıl layihələri sayəsində öyrəndi. Bütün bunlar ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarıdır. İllər əvvəl həyata keçirilmiş "Qarabağ xanəndələri" kimi mədəniyyət layihələri beynəlxalq ictimaiyyət üçün Azərbaycanla bağlı əsl gerçəkləri göstərən yol bələdçisinə çevrildi. Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarıqları ilə Azərbaycanda ən yüksək səviyyədə təşkil olunmuş "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsi, I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi tədbirlər dünyaya əsl Azərbaycanın simasını, gözəlliklərini göstərdi. Planetimizin müxtəlif məkanlarında yaşayan hər kəs gördü ki, Azərbaycan - müxtəlif dinlərin, mədəniyyətlərin, etnik qrupların minilliklər boyu bir arada yaşadığı, qarşılıqlı hörmət və anlaşma mühitinin qorunduğu nadir ölkələrdən biridir. Bu xüsusiyyət ölkəmizi yalnız regionda deyil, bütün dünyada fərqləndirir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi də məhz bu minillik ənənələrin qorunması və inkişaf etdirilməsi məqsədinə xidmət edir. Layihə çərçivəsində keçirilən tədbirlər, konfranslar, maarifləndirici proqramlar, interaktiv layihələr gənc nəsli müxtəlifliyə hörmət etməyə, fərqlilikləri zənginlik kimi qəbul etməyə ruhlandırır. Bu təşəbbüs uşaqlara, gənclərə və cəmiyyətin bütün təbəqələrinə bir mesaj verir: biz müxtəlif ola bilərik, amma birlikdə güclüyük.

Mehriban xanım Əliyeva belə təşəbbüslərlə, layihələrlə bir daha göstərir ki, təhsil və mədəniyyət yalnız bilik vermir, həm də insanları birləşdirir, onlara humanizm və hörmət aşılayır. Layihə həm ölkəmizin, həm də bölgənin tolerantlıq və sülh modeli kimi nüfuzunu artırır. Bununla Mehriban xanım dolayısı ilə bütün dünyada sülhə, quruculuğa, insanın rifah və xoşbəxtliyinə xidmət edir.

### Bəşəri dəyərlər daşıyıcısı

Mehriban xanım Əliyeva sülh elçisi olaraq fərqli sivilizasiyalar, dinlər arasında körpü yaradan, fərqli mədəniyyətlərə hörmət ruhu aşılayan şəxsiyyətdir. Bu gün Azərbaycanın dünyada dialoq məkanı kimi tanınmasında Birinci vitse-prezidentin əməyi çox böyükdür. Bütün bunlar dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin təşkilinə Mehriban xanımın da böyük zəhmət sərf etdiyi humanitar forumların, müxtəlif mədəni təşəbbüslərin sayəsində mümkün olmuşdur. Məhz bu fəaliyyət nəticəsində 2008-ci ildə paytaxtımızdan start götürmüş "Bakı prosesi" bu gün dünyada mədəniyyətlərarası dialoq, multikulturalizm sahəsində ən uğurlu platformalardan biri kimi qəbul olunur. Bu istiqamətdə apardığı ardıcıl fəaliyyətlə, mədəniyyət incilərimizin, milli-mənəvi dəyərlərimizin dünyada təbliği ilə Mehriban xanım Azərbaycanın mədəniyyət diplomatiyasının uğurları üçün də misilsiz işlər görür.

Ən mühümü isə Birinci vitse-prezident bütün dinlərin, mədəniyyətlərin bəşəriyyətə təlqin etdiyi ali dəyərləri - insana sevgini, şəfqəti, xeyirxahlığı, köməyə ehtiyacı olanlara əl tutmağı, eləcə də çağdaş dünyamızda bu dəyərlərin daşıyıcılarına nə qədər böyük ehtiyacın olduğunu öz fəaliyyəti ilə təsdiqləyir. Bunları həyat normalarına çevirir.

Bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Şərqi Zəngəzurda, Qarabağda tarixi yaddaşı bərpa edir, yerlə yeksan olunmuş abidələrimizi yenidən həyata qaytarır. Şuşa şəhərindəki Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Çöl qala, Mamayı, Saatlı məscidlərinin, Ağdam və Zəngilan şəhərlərindəki Cümə məscidlərinin təmir-bərpası, Hadrutda, Daşaltıda yeni məscidlərin inşası və yenə də görülməkdə olan işlər Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizə sevgisinin, sülh və quruculuq amalının Qarabağda, Şərqi Zəngəzurda nəcib əməllərə çevrilən ifadəsidir.

Mehriban xanım Əliyeva - bu ad siyasətdə müdriklik, idarəetmədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ən yaxın silahdaşlıq, cəmiyyətdə xeyirxahlıq, mərhəmət, mədəniyyətdə incə zövqün rəmzidir. O, çağdaş düşüncə tərzini Azərbaycan qadınının zərifliyi ilə birləşdirərək, cəmiyyətimizdə qadınların ictimai fəallığını əks etdirən yeni bir modelin müəllifidir.

"Mən dünyanı dəyişmək niyyətində deyiləm, mənim üçün özümü dəyişmək maraqlıdır - daha yaxşı olmaq. Bu, məncə daha faydalı işdir". Özü həyat fəlsəfəsini, insanlara və dünyaya baxışını ən gözəl şəkildə belə ifadə edir. Belə bir fəlsəfə ilə Mehriban xanım, əslində, dünyanı da yaxşılığa doğru dəyişir, kamilləşdirir, çünki ən böyük dəyişikliklər, kamilliyə gedən yol özümüzdən başlanır.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva üçün hər yeni yaş da kamilliyə doğru daha bir addım, zirvəyə doğru daha bir pillə, böyük hədəflərə doğru daha bir nailiyyətdir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***



# Mehriban Əliyevanın sosial dəstək manifesti

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi dəyərin, ümidin və sevginin ünvanıdır







**Hər bir insanın cəmiyyətdə layiqli yer tutmaq, sevilmək, qəbul olunmaq və bacarıqlarını həyata keçirmək haqqı var. Lakin bəzən həyatın gətirdiyi çətinliklər bu haqqı reallaşdırmağı ikiqat çətinləşdirir. Əlilliyi olan insanlar üçün isə bu yol çox zaman görünməz maneələrlə dolu olur. Elə bu səbəbdəndir ki, onlara dəstək olmaq və cəmiyyətin bir parçası kimi dəyərləndirmək son dərəcə vacibdir.**

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi (İİYM) məhz bu amalla yaradılıb - insanların fərqliliklərini zəiflik kimi deyil, dəyər kimi görmək üçün. Mərkəz əlilliyi və həssas kateqoriyadan olan digər şəxslərə sadəcə xidmət göstərmir, onlara güvən və ümid verir, cəmiyyətə adaptasiya olunmaq üçün əllərindən tutur. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2021-ci ildə yaradılan DOST İİYM ölkəmizdə inklüziv cəmiyyət quruculuğuna atılmış ən mühüm addımlardan biridir. Mehriban xanımın illərdir həyata keçirdiyi sosial-humanitar layihələr, xüsusilə də əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına yönəlmiş təşəbbüsləri bu mərkəzdə öz bariz təcəssümünü tapır.

Mərkəzə qəbul təbii ki, təsadüfi deyil. Beş əsas həssas kateqoriyadan olan istedadlı şəxslər xüsusi seçim əsasında bura cəlb olunurlar. Bunlar şəhid ailələrinin üzvləri, müharibə ilə bağlı əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynsiz və valideyn himayəsindən məhrum uşaqlar, aztəminatlı ailələrin nümayəndələri və əlilliyi olan şəxslərdir ki, hər birinə ümid, stimul, gələcəyə baxış verilir. Bir benefisiara eyni anda iki fərqli istiqamət üzrə təlim almaq imkanı tanınır. Bu isə o deməkdir ki, heç kimin istedadına sərhəd qoyulmur, əksinə, onun bütün potensialı maksimum dərəcədə açılır. Təlimlərin müddəti də iştirakçının inkişaf tempinə uyğun olaraq dəyişir - 6 aydan 2 ilə qədər davam edə bilər.

DOST İİYM-in fəaliyyəti sadəcə bir layihə və ya sosial proqram deyil. Bura cəmiyyətin unudulmuş səslərinə qulaq verən, onların potensialını dəyərləndirən, hər bir fərdin içindəki gücü ortaya çıxaran sosial ədalət və humanizm məktəbidir. Bu, Mehriban xanım Əliyevanın hər zaman həyata keçirdiyi dərin məzmunlu sosial və humanitar siyasətin canlı təcəssümüdür. Sirr deyil ki, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas qayəsi hər zaman insanın rifahı, ləyaqəti və cəmiyyət içində layiqli yer tutmasının təminidir. Burada əlilliyi olan şəxslər cəmiyyətin yükü kimi deyil, onun bənzərsiz bir parçası, yaradıcı və faydalı fərdi kimi yetişdirilir.



Təəccüblü, bəlkə də bir qədər sehrli gəlir insana: mərkəzin həyatinə addım atdığın andan etibarən fərqli bir mühitdə olduğunu hiss edirsən. Və qapıdan içəri girəndə hisslərində yanılmadığını anlayırsan. Bütün otaqlarda, eləcə də dəhlizlərdə insan ruhunu anlayan, onu dinləyən və gücləndirməyə çalışan bir enerji, bir yaradıcılıq ab-havası hökm sürür. Divarlardan asılmış rəsm əsərləri, xalçalar, ağac üzərində oyma, keramika üzərindəki əl işləri və s. kimi əsərlər ilk baxışdan insanı valeh edir. Hər biri özündə bir həyat hekayəsini, duyğuları və zəhməti ehtiva edir. Emalatxana və dərnəkləri gəzdikcə baxışların istər-istəməz bu əsərlərdə ilişib qalır. Hər tablo, hər əl işi tamaşaçını dayanmağa, düşünməyə və bəzən kövrəlməyə vadar edir. Bu "işlər" susaraq danışan, duyğuları dilləndirən səssiz şahidlərdir. Məlum olur ki, hər kəsin deyəcək sözü, yaradacaq dəyəri, bölüşəcək istedadı var. Yetər ki, ona özünüifadə, özünüqəbul və özünüreallaşdırmaq üçün fürsət verilsin.

Əlilliyi olan şəxslər cəmiyyətin ən həssas qruplarından biridir və çox vaxt onların potensialı düzgün görülmür, qiymətləndirilmədən geridə qalır. DOST İİYM isə bu yanaşmanı dəyişdirir, insanı olduğu kimi qəbul edir, onu imkanlarına görə dəyərləndirir. Rəsm çəkə bilən bir əl, toxuculuq bacaran bir barmaq, musiqi hissi olan bir ruh ayrıca xəzinə sayılır. DOST İİYM-in benefisiarları üçün bu mərkəz özünü tapmaq yolunda bir başlanğıcdır. Və həmin başlanğıc onları həyatın ən gözəl məqamına qədər aparır.

Bu baxımdan mərkəzin iki gənci - Rəvanə Ağamirova və kamança ifaçısı Fatimə İsrafilovanın adları artıq bütün ölkəyə tanışdır. Onların istedadı və əzmi sadəcə fərdi uğurlarla məhdudlaşmadı. Prezident İlham Əliyevin sərəncamı ilə Prezident Mükafatına layiq görülmələri gənclərin həyat hekayələrinin nə qədər dəyərli olduğunu göstərdi. Fatimənin uğur yolu isə mərkəzdə bitmədi, təlimləri başa vurduqdan sonra o, artıq özü başqalarına yol göstərən bir müəllimə çevrildi. İndi o, Mərkəzin Kollektiv Yaradıcılıq şöbəsində təlimçi kimi çalışır və bəlkə də onun bir vaxtlar aldığı dəstəyin indi kiminsə həyatını dəyişdirəcəyindən xəbəri belə yoxdur.

Daha 12 gənc mərkəz və onun filiallarında müxtəlif vəzifələrdə çalışırlar. Kimisi təlimçi, kimisi sosial agent kimi fəaliyyət göstərir. Lakin hamısının missiyası ortaqdır: dəstək olmaq, ilham və güc vermək. Onlar artıq bir vaxtlar aldıqları dəstəyi indi başqalarına ötürür, həm motivasiya, həm də ümid mənbəyinə çevrilirlər. 10-dan çox benefisiar ölkənin müxtəlif ali təhsil müəssisələrinə qəbul olunaraq, ali təhsillərini davam etdirirlər. Onların bu göstəriciləri sadəcə şəxsi uğur deyil. Bu, DOST İİYM-in nə qədər doğru bir yolda olduğunu göstərən ən güclü sübutdur. Çünki burada hər şey bir sualla başlayır: "Əgər dəstək versək, nə baş verər?" Cavab isə göz önündədir: insan dəyişir, həyat dəyişir, cəmiyyət dəyişir.

Bəzən bir insanın hekayəsi neçə yüz sözün ifadə edə bilmədiyi bir həqiqəti göstərir. Mərkəzin digər bir benefisiarı Səbinə Əsgərova gözdən əlil olsa da, dünyanı öz səsi ilə "görən" bir gəncdir. Görmə qabiliyyətini 3 yaşında itirib, amma həyat onun üçün orada dayanmayıb. 6 yaşında fortepianonun dillərində öz dünyasını yaratmağa başlayıb, daha sonra isə ürəyindəki melodiyanı vokal səsi ilə "danışdırıb". Bu gün Səbinə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində estrada müğənniliyi üzrə təhsil alır və 2023-cü ildən DOST İİYM-in əməkdaşı kimi çalışır. Amma onun uğur yolu təkcə bununla bitmir. Heydər Əliyev Fondunun dəstəyi ilə bu ilin fevral-may aylarında Səbinə 3 aylıq beynəlxalq yaradıcılıq səfərinə çıxıb, İtaliya və İspaniyada vokal bacarıqlarını təkmilləşdirib. İtaliyanın Korbetta şəhərində dünya şöhrətli La Skala Teatrının tanınmış tenoru Andrea Semeraronun ustad dərslərində iştirak edib. Orada səs imkanlarını daha da inkişaf etdirərək, Korbetta Meriyasının binasında solo konsert proqramı ilə çıxış edib və şəhər meri Marko Ballarini tərəfindən sertifikatla təltif olunub. Səfərin növbəti ünvanı İspaniya olub. Barselonadakı "Shine" Musiqi Məktəbində tanınmış vokal müəllimi və ifaçı Ceyms Sedqvikin dərslərində iştirak edərək sertifikatlar qazanıb. Səbinənin hekayəsi onu göstərir ki, istedadın gözü, imkanın sərhədi yoxdur, sadəcə fürsət verilməlidir.

Bəzən də səhnə səslə deyil, akrobatika və ritmik döyüş texnikası ilə silkələnir. Bu ilin aprelində keçirilən Solo Kapoeyra üzrə Bakı birinciliyi və çempionatı təkcə bir idman tədbiri deyil, əsl iradə, bərabərlik və qələbə bayramına çevrildi. Məlumat üçün bildirək ki, kapoeyra Braziliyada yaranmış, döyüş sənəti, rəqs, musiqi və akrobatikanı özündə birləşdirən unikal bir hərəkət növüdür. Kapoeyra bu gün Braziliya mədəniyyətinin ayrılmaz hissəsi olmaqla yanaşı, bütün dünyada məşhurdur və UNESCO tərəfindən Qeyri-maddi Mədəni İrs kimi tanınıb. İlk dəfə olaraq kapoeyra tarixində inklüziv qrupların da yarışa qatılması bir dönüş nöqtəsi oldu və bu tarixi dönüşdə DOST İİYM-in benefisiarları parlaq iz buraxdılar. Cəmaləddin Ağayev birinci yerə yüksəldi, Ramid Əliyev gümüş medal qazandı, Əlicamal Qasımov isə üçüncü yerin sahibi oldu. Onların qələbəsi təkcə medal uğrunda mübarizənin yox, özünə inamın, imkanların sərhəd tanımadığının simvoluna çevrildi.

DOST İİYM-in yaradıcılıq işləri artıq beynəlxalq səviyyədə də öz sözünü deməkdədir. Bu ilin iyun ayında benefisiarların çəkdiyi rəsm əsərləri Cənubi Koreyanın Pyonqtek şəhərində keçirilən "2025 - Beynəlxalq Uşaq İncəsənət Mübadiləsi Sərgisi"ndə nümayiş etdirilib. Onların fırçasından çıxan hər bir rəsm sanki susaraq danışır, iç dünyalarındakı zənginliyi dünyaya çatdırırdı. Bu, təbii ki, ilk uğur deyildi. Daha öncə benefisiarların əl işləri Cenevrədə, Millətlər Sarayında keçirilən və 2 Aprel Dünya Autizm Məlumatlandırma Gününə həsr olunmuş beynəlxalq sərgidə də nümayiş etdirilmişdi. Habelə Cənubi Koreyanın Qanqvon əyalətində, Qış Olimpiya Oyunları çərçivəsində təşkil olunan sərgidə də onların incə zövq və zəhmətlə ərsəyə gətirdiyi işlər yer almışdı. Bu uğurlar göstərir ki, DOST İİYM təkcə dəstək mərkəzi deyil, həm də istedadın yolunu açan, görünməyən bacarıqları üzə çıxaran, insanlara "sən bacararsan" mesajını sevgi ilə verən bir ümid mənbəyidir.

Dörd ildir fəaliyyət göstərən mərkəz bir çox insanın həyatında yeni səhifə açıb. Qeyd etmək yerinə düşər ki, mərkəz filialları kimi fəaliyyət göstərən İsmayıllı "DOST Evi" və Bərdədəki şöbə yüzlərlə insan üçün ümid ünvanına çevrilib. Ümumilikdə indiyədək 770 nəfər DOST İİYM-in imkanlarından faydalanaraq bacarıqlarını inkişaf etdirmək və cəmiyyətə adaptasiya olunmaq şansı qazanıb. Hazırda mərkəz və onun filiallarında ümumilikdə 201 benefisiar müxtəlif istiqamətlərdə fəaliyyətə cəlb olunub. Onlardan 138 nəfəri birbaşa mərkəzin özündə fəaliyyət göstərir. Elə buradaca onu da qeyd edək ki, İsmayıllı "DOST Evi" filialı bu təşəbbüsün uğurlu nümunələrindən biridir. Artıq iki ilə yaxındır ki, İsmayıllı və ətraf rayon və kənd sakinləri üçün sosial xidmətlərə çıxışı asanlaşdırır. Hazırda burada 30, Bərdədə yerləşən Qarabağ Regional DOST Mərkəzinin "DOST Evi" şöbəsində isə 33 benefisiar təlimlərə cəlb olunub.

Bütün bu təşəbbüslərin arxasında isə sosial rifahı dövlət siyasətinin əsas prioritetinə çevirən, humanizm və diqqət prinsiplərini daim ön planda tutan Mehriban Əliyevanın yorulmaz fəaliyyəti dayanır. Birinci vitse-prezidentin bu sahədəki fəaliyyəti göstərir ki, inklüzivlik sosial məsuliyyət olmaqla yanaşı, həm də milli və mənəvi borcdur. Onun təşəbbüsləri nəticəsində bu gün yüzlərlə insan gizli qalan potensialını reallaşdırır, içindəki işığı cəmiyyətlə bölüşmək imkanı qazanır. Bu, təkcə fərdlərin deyil, bütöv bir cəmiyyətin mənəvi yüksəlişinə xidmət edən bir yanaşmadır. DOST İİYM Mehriban xanımın mərhəmət və şəfqətdən yoğrulan sosial baxışının real nümunəsidir. Burada həyata keçən hər bir fəaliyyət, göstərilən hər bir dəstək insan ruhuna toxunan, onu ayağa qaldıran, həyata bağlayan bir sosial missiyadır.

Mehriban Əliyevanın tez-tez vurğuladığı kimi, hər bir fərd fərqlilik deyil, bir dəyərdir. Bu fikir DOST İİYM-in iş prinsiplərinin əsasını təşkil edir. Burada fərqlilik cəmiyyətə yeni rəng, yeni nəfəs gətirən zənginlik kimi qəbul edilir. Mərkəz hər kəsə göstərir və sübut edir ki, cəmiyyətin həqiqi inkişafı yalnız o zaman mümkündür ki, heç kim kənarda qalmasın. Kiminsə fiziki məhdudiyyəti, duyğu fərqliliyi və ya sosial vəziyyəti onu digərlərindən ayırmamalı, əksinə, birləşdirməlidir. Bunların arxasında duran əsas dəyər şəfqət və insana sevgidir ki, bu duyğuların nəticəsində buradakı benefisiarlar ictimai həyatda yer tutan, öz sözünü deyən fərdlərə çevrilirlər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***







# Milli dəyərlərə bağlı dövlət xadimi

**Azərbaycanın siyasi tarixində ictimai-siyasi xadim kimi tanınan xanımlar az olmamışdır. Belə xanimlardan biri də özünün çoxşaxəli ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük hörmətini qazanmış, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.**

Ölkəmizin Birinci vitse-pezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın fəaliyyəti müasir dövr Azərbaycanımızın inkişafında öz ülvi və əzəmətli yeri - böyük tarixi əhəmiyyətli işlər görən xanım, dövlət və ictimai-siyasi xadim olaraq təqdir olunmalıdır.

Mehriban Əliyeva uzun illərdir həm ölkə daxilində, həm də beynəlxalq miqyasda çoxsaylı layihələrin müəllifi və təşəbbüskarı kimi çıxış edir. Onun fəaliyyəti sosial rifah, mədəniyyətin inkişafı, təhsil və səhiyyənin təkmilləşdirilməsi, eləcə də humanitar əməkdaşlığın gücləndirilməsi kimi sahələri özündə birləşdirir.

*Dövlət idarəçiliyində strateji fəaliyyət.* Birinci vitse-prezident kimi Mehriban Əliyeva ölkənin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasında yaxından iştirak edir. Son illərdə xüsusilə:

- Qarabağın bərpası prosesində humanitar və sosial infrastruktur layihələrinin reallaşdırılmasına dəstək göstərir. İşğaldan azad olunmuş ərazilərdə məktəblərin, xəstəxanaların və mədəniyyət mərkəzlərinin inşası fondun prioritetlərindəndir.

- Pandemiya dövründə əhaliyə dəstək məqsədilə tibbi avadanlıqların gətirilməsi, müasir xəstəxanaların istifadəyə verilməsi və sosial layihələrin genişləndirilməsi təşkil olunub.

Heydər Əliyev Fondunun fəaliyyəti Mehriban Əliyevanın təşəbbüsləri ilə son illərdə daha da genişlənib. Belə ki:

- "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində yüzlərlə təhsil müəssisəsi tikilib və ya əsaslı təmir olunub.

- Səhiyyə sahəsində yeni müasir klinikalar istifadəyə verilib, xüsusilə regionlarda tibbi xidmətlərin əlçatanlığı artırılıb.

- Mədəni irsin qorunması istiqamətində tarixi abidələr, məscidlər, kilsələr və digər dini-mədəni obyektlər bərpa olunub.

*Beynəlxalq humanitar təşəbbüslər.* Mehriban Əliyeva Azərbaycanın mədəniyyətlərarası dialoq və tolerantlıq məkanı kimi mövqeyinin möhkəmlənməsinə xüsusi töhfələr verir. Onun təşəbbüsü ilə:

- Bakı Humanitar Forumu, Bakı Mədəniyyətlərarası Dialoq Forumu kimi beynəlxalq tədbirlər təşkil olunur.

- Xarici ölkələrdə tarixi abidələrin bərpasına dəstək göstərilir. Bu, Azərbaycanın beynəlxalq humanitar əməkdaşlıqda fəal tərəfdaş olduğunu nümayiş etdirir.

- UNESCO və ICESCO xətti ilə təhsil və mədəniyyət layihələri dəstəklənir, dünya miqyasında mədəni irsin qorunmasına töhfə verilir.

*Sosial dəstək və xeyriyyəçilik.* Mehriban Əliyevanın təşəbbüsləri arasında aztəminatlı ailələr, uşaqlar, əlilliyi olan şəxslər və digər həssas qruplara dəstək xüsusi yer tutur:

- "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində yüzlərlə uşaq üçün müasir yaşayış və təhsil şəraiti yaradılıb.

- Kənd yerlərində sosial infrastruktur layihələri həyata keçirilib - su, enerji, yol və digər vacib layihələr reallaşdırılıb.

- Humanitar yardım kampaniyaları ilə minlərlə insanın həyat şəraiti yaxşılaşdırılıb.

*Qarabağın dirçəlişində rolu.* İşğaldan azad olunmuş torpaqlarda bərpa-quruculuq işlərinin mədəni-humanitar aspektlərinə diqqət yetirilməsi Mehriban Əliyevanın fəaliyyətində mühüm yer tutur. Mehriban Əliyeva işğaldan azad olunmuş ərazilərdə təhsil, səhiyyə və mədəniyyət layihələrinin sürətlə icrasına rəhbərlik edir. Şuşa, Füzuli və Ağdamda müasir məktəblərin, mədəniyyət evlərinin, məscidlərin və digər obyektlərin bərpası həyata keçirilir. Bu layihələr həm yerli əhali üçün yeni imkanlar açır, həm də Qarabağın yenidən dirçəlişinə xidmət edir.

Mehriban Əliyeva müasir Azərbaycanın inkişafına töhfə verən lider xanımdır. Onun son illərdəki fəaliyyətinin ön plana çıxan mühüm istiqamətlərindən bir neçəsi ilə yaxından tanış olaq.

2022-ci il Azərbaycanda "Şuşa ili" elan olundu. Bu qərar Şuşanın işğaldan azad edilməsindən sonra şəhərin tarixi-mədəni mərkəz kimi dirçəlməsinə güclü təkan verdi. Şuşada musiqi festivalları, mədəniyyət günləri və beynəlxalq tədbirlər keçirildi. Heydər Əliyev Fondu burada mədəni irsin qorunmasına, tarixi abidələrin bərpasına və şəhərin mədəniyyət paytaxtı statusunun möhkəmlənməsinə önəmli töhfələr verir.

*COP29 tədbirində fəaliyyətləri.* Azərbaycanın 2024-cü ildə evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) istər hazırlıq mərhələsində, istərsə də konfrans dövründə Mehriban Əliyeva xüsusi fəallıqla iştirak etdi. Bu istiqamətdə onun fəaliyyəti aşağıdakılardan ibarətdir:

- Ekoloji maarifləndirmə layihələri;

- "Yaşıl enerji" təşəbbüslərinin dəstəklənməsi;

- Azərbaycanda ekoloji mədəniyyətin gücləndirilməsi üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi.

*Beynəlxalq humanitar nüfuzun möhkəmləndirilməsi.* Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan bir çox beynəlxalq mədəniyyət və humanitar platformalarda fəal rol oynamağa başlamışdır. Onun UNESCO və ICESCO çərçivəsində irəli sürdüyü layihələr Azərbaycanın tolerantlıq və multikulturalizm dəyərlərini dünyada tanıtmağa yönəlmişdir.

*Sosial sahədə yeniliklər:*

- Əlilliyi olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması üçün yeni reabilitasiya mərkəzləri istifadəyə verilmişdir;

- Gənclərin inkişafı üçün innovasiya və startap layihələri dəstəklənmişdir;

- Pandemiyadan sonrakı dövrdə əhalinin psixoloji və sosial dəstək proqramları həyata keçirilmişdir.

Mehriban Əliyeva dövlət idarəçiliyində strateji qərarların icrasına verdiyi töhfə, humanitar və mədəni layihələrdə liderliyi, sosialyönümlü təşəbbüsləri və beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti ilə müasir Azərbaycanın inkişaf yolunda mühüm simalardan biridir. Onun təşəbbüsləri həm ölkə vətəndaşlarının rifahına, həm də Azərbaycanın dünyada humanist dəyərlər daşıyıcısı kimi tanınmasına xidmət edir.

***Rufiz QONAQOV,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Birləşmiş Krallığın dövlət naziri Azərbaycan-Ermənistan sülh prosesi barədə məlumatlandırılıb

**Avqustun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan və Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, enerji təhlükəsizliyi, bağlantılar, iqlim dəyişmələri və ətraf mühit, humanitar, təhsil sahələri üzrə əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ölkəmizin enerji təhlükəsizliyi sahəsində təşəbbüskarı və əsas icraçısı olduğu nəhəng layihələrlə bu istiqamətdə etibarlı tərəfdaş olduğunu sübuta yetirdiyi qeyd edilib, ənənəvi enerji növləri üzrə əməkdaşlığın bu müsbət dinamikasının alternativ enerji mənbələrinin inkişafı istiqamətində davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Bu istiqamətdə, SOCAR və BP şirkətləri arasında bərpaolunan enerji üzrə əməkdaşlığın qurulmasının təqdirəlayiq olduğu vurğulanıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində Birləşmiş Krallığın sessiyada Baş nazir və heyəti tərəfindən fəalı iştirakı və töhfələri məmnunluqla qeyd edilib.

Təhsil sahəsi üzrə əməkdaşlıq çərçivəsində həyata keçirilən birgə təşəbbüslər, ali təhsil müəssisələri arasında yeni tərəfdaşlıqların qurulması, habelə dövlət proqramlarının əhəmiyyəti və bu sahədə işlərin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Ceyhun Bayramov həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin gedişatı barədə ətraflı məlumatlandırıb.

Avqustun 8-də keçirilmiş tarixi Vaşinqton görüşü çərçivəsində "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətninin paraflanması, habelə ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların bağlanması ilə əlaqədar birgə müraciətin ünvanlanmasının sülh prosesi çərçivəsində əldə olunmuş əhəmiyyətli nailiyyətlərdən biri olduğu vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycanın və Birləşmiş Krallığın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr təşkil olunub. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Fariz Rzayev, Birləşmiş Krallıq tərəfindən isə Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti rəhbərlik edib.

# Baş prokuror Laçın, Qubadlı, Cəbrayıl və Kəlbəcər rayonlarında olub

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev avqustun 21-22-də işğaldan azad edilmiş ərazilərə işgüzar səfər çərçivəsində Laçın, Qubadlı, Cəbrayıl və Kəlbəcər rayonlarında olub.**



Baş prokuror əvvəlcə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyində olub. Burada o, müasir və müstəqil Azərbaycan dövlətinin banisi, dahi şəxsiyyət Ulu öndəri Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyaraq dahi liderin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətlərini dərin hörmətlə anıb.

Daha sonra baş prokuror Laçın rayon prokurorluğunun inzibati binasında yaradılmış şəraitlə tanış olub, prokurorluq əməkdaşlarının istifadəsində olan yenicə təmir olunmuş xidməti mənzillərə baxış keçirib.

Səfər çərçivəsində baş prokuror Qubadlı rayon və Qubadlı hərbi prokurorluğunun xidməti binasında mövcud vəziyyətlə tanış olub, eləcə də, istifadəyə verilməsi planlaşdırılan yeni inzibati binanın təmiri prosesi ilə maraqlanıb.

Səfər çərçivəsində baş prokuror Cəbrayıl rayon prokurorluğunun inzibati binasında olaraq prokurorluq əməkdaşlarının iş şəraiti ilə tanış olub, onlarla söhbət aparıb.

Baş prokuror səfər zamanı həmçinin Kəlbəcər hərbi prokurorluğu və Kəlbəcər rayon prokurorluğunun inzibati binalarında yaradılan iş şəraiti ilə də tanış olub, əməkdaşlarla görüş keçirib.

Qeyd edək ki, səfər zamanı baş prokuror Kamran Əliyevi Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev, hərbi prokuror Bəhruz Əhmədov, Baş Prokurorluq və Hərbi Prokurorluğun rəhbər heyəti müşayiət edib.

# Milli Məclisdə görüş



**Avqustun 25-də Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Rumıniya Senatının Mədəniyyət və media daimi komitəsinin sədri, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvü Kristian-Auqustin Nikulesku-Tsıqırlaşın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinlən verilən məlumata görə, Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev ölkəmizə səfəri çərçivəsində Nikulesku-Tsıqırlaşın Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olmasını, "Heydər Əliyev" zirvəsinə yürüşünü yüksək dəyərləndirib, parlamentlərarası əlaqələrin ölkələrimiz arasında münasibətlərin inkişafına müsbət təsirindən danışıb, bu istiqamətdə dostluq qruplarının əməkdaşlığının əhəmiyyətini vurğulayıb. Söhbət zamanı Azay Quliyev beynəlxalq təşkilatlarda əlaqələrin önəmi və parlament diplomatiyasının vacibliyi barədə fikirlərini bölüşüb.

Ölkələrimiz arasındakı münasibətlərdən bəhs edən Kristian-Auqustin Nikulesku-Tsıqırlaş rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanın Qarabağ iqtisadi rayonuna səfəri ilə bağlı təəssüratlarını bölüşüb, Ulu Öndərin xatirəsinə dərin ehtiramının ifadəsi olaraq "Heydər Əliyev" zirvəsinə yürüşündən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə bölgədə aparılan bərpa və quruculuq işlərini yüksək qiymətləndirib, ölkələrimiz arasında əməkdaşlığın potensialı və parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildirib.

Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Kamal Cəfərov, Aydın Mirzəzadə və Samir Vəliyev, Rumıniyanın Maramureş Vilayət Vəkillər Kollegiyasının rəhbəri Florin Andreykuts ölkələrimiz arasında münasibətlərin yüksəksəviyyəli siyasi dialoq sayəsində uğurla inkişaf etdiyini bildiriblər. Deputatlar həm ikitərəfli formatda, həm parlamentlər səviyyəsində, həm də beynəlxalq platformalar çərçivəsində qarşılıqlı-faydalı əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

*"Azərbaycan"*

## Azərbaycanın xarici siyasətinin uğurları

# Sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı

**Avqustun 22-də Türkmənistanda Azərbaycan, Türkmənistan və Özbəkistan arasında keçirilən yüksəksəviyyəli görüş, regionun siyasi-iqtisadi inkişafında mühüm mərhələdir. Bu münasibətlər yalnız diplomatik əməkdaşlıqla məhdudlaşmır. Xalqlarımızı tarix, mədəniyyət, dil və dini ortaq dəyərlərə əsaslanan dərin və çoxşaxəli əlaqələr, ən başlıcası, qardaşlıq münasibətləri və inkişaf etməkdə olan strateji tərəfdaşlıq birləşdirir. Liderlərin görüşündə bir daha vurğulandı ki, üç ölkə arasında mövcud dostluq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi bölgədə sülh, sabitlik və rifah üçün mühüm platforma yaradır.**

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 22-də Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü zamanı xüsusi olaraq vurğulamışdır: "Bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri xalqlarımızın iradəsinə əsaslanır. Xalqlarımız qardaşdır, dostdur, əsrlər boyu bir-biri ilə yaxın olublar".

2021-ci il yanvarın 21-də Aşqabad şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu"nun imzalanması Xəzərdə yeni birgə imkanlar yaratdı. Ölkələrimiz arasında ticarət və iqtisadi əməkdaşlıq sahəsində ciddi artım müşahidə olunmağa başladı.

Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfəri bir daha göstərdi ki, ölkəmiz Aşqabadla əməkdaşlığı daha da dərinləşdirmək üçün ardıcıl addımlar atır. Xatırladaq ki, Türkmənistan 1995-ci ildən BMT tərəfindən tanınmış daimi bitərəf statusunu qoruyur. Bu mövqenin davamlılığı ölkəni hərbi bloklardan kənarda saxlayır. Türkmənistanla sıx əməkdaşlıq həm ikitərəfli iqtisadi maraqlara, həm də Türk Dövlətləri Təşkilatının güclənməsinə, Orta Asiyanın Qafqaza daha sıx inteqrasiyasına xidmət edir. Elə üçtərəfli görüşdə də liderlər xüsusi olaraq regional və beynəlxalq məsələlərdə qarşılıqlı dəstək və əməkdaşlığın əhəmiyyətini qeyd etdilər. Azərbaycan, Türkmənistan və Özbəkistan kimi Orta Asiya və Cənubi Qafqaz ölkələri coğrafi baxımdan strateji bir mövqedə yerləşir və bu üstünlük onları Şərqlə Qərb, həmçinin Şimalla Cənub arasında körpü rolu oynamağa imkan verir. Bir məqamı da qeyd edək ki, Zəngəzur dəhlizinin Cənubi Qafqaza daha faydalı olmasında birmənalı olaraq Türkmənistan faktorunun rolu böyük olacaq.

Faktiki olaraq Bakı-Türkmənbaşı bərə və dəmir yolu xətti, Türkmənbaşı limanının gücləndirilmiş imkanları, eyni zamanda Transxəzər rəqəmsal layihələri iki ölkəni Orta dəhliz və Lapis-Lazuli dəhlizində mühüm tərəfdaş edir. Həmçinin Türkmənistan mənşəli neftin Bakı-Tbilisi-Ceyhan kəməri ilə tranzit həcmləri də ardıcıl surətdə artmaqdadır. Azərbaycan Türkmənistanın enerji resurslarının dünya bazarına çıxarılmasında logistik körpü rolunu oynayır. Türkmən qazının və neftinin Trans-Xəzər dəhlizi vasitəsi ilə Azərbaycan ərazisindən keçərək Avropaya çatdırılması imkanları hər iki ölkə üçün strateji əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, ölkələrimiz arasında əlaqələr yalnız iqtisadi-ticari münasibətlə yekunlaşmır. Xalqlarımız arasında münasibətlər, eləcə də mənəvi bağlılığı tamamlayır. Buna daha bir nümunə Türkmənistanın Füzuli şəhərində məscid inşa etmək niyyətində olmasıdır. Bütün bunlar mənəvi bağlılığı göstərən cəhətlərdir.

Son illər Azərbaycanın Özbəkistanla münasibətləri sürətlə inkişaf etməkdədir. İşğaldan azad edilmiş ərazilərimizdə qardaş Özbəkistan tərəfindən Füzuli şəhərində dahi alim Mirzə Uluqbəyin adını daşıyan orta məktəb inşa olunub. Xankəndi şəhərində isə Özbəkstanın dəstəyi və təşəbbüsü ilə böyük bir tikiş fabriki fəaliyyət göstərir. Bu prosesə artıq energetika sahəsi də daxil olub. Dövlətimizin başçısının qeyd etdiyi kimi, SOCAR artıq Özbəkistanda neft yatağının işlənilməsinə başlayıb və kontrakt imzalanıb. Bu, Azərbaycan üçün həm iqtisadi, həm də siyasi baxımdan mühüm hadisədir. SOCAR-ın Özbəkistanda fəaliyyəti, Azərbaycanın xaricdə enerji layihələrinə investisiya qoyması və regional bazarlarda texniki biliklərini paylaşması baxımından vacibdir. Bu addım həmçinin Özbəkistanın enerji sektorunda modernləşmə proseslərinə də töhfə verir və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığı möhkəmləndirir. Azərbaycanın Türkmənistanla ənənəvi energetika əməkdaşlığı, eləcə də Özbəkistanla birlikdə bu sahəyə yeni qədəm qoyması, regionda enerji siyasətinin dərinləşdiyini və genişləndiyini göstərir. İftixarla qeyd edə bilərik ki, bu həm də Azərbaycanın regional lider kimi mövqeyini möhkəmləndirir və ölkəmizin enerji diplomatiyasının uğurlu nümunəsi hesab olunur. Bu, eyni zamanda o deməkdir ki, Azərbaycan yalnız enerji ixracatçısı deyil, enerji əməkdaşlığının təşəbbüskarıdır. Azərbaycanın Türkmənistan və Özbəkistanla enerji əməkdaşlığı, regionda beynəlxalq əməkdaşlıq nümunəsi, iqtisadi inteqrasiyanın təşviqi və enerji təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyət daşıyır.

Son dövrlər xüsusi mərhələyə qədəm qoyan Bakı-Aşqabad münasibətləri daha geniş əməkdaşlıq formatına qapı açmaqdadır. Hər üç ölkənin lideri yüksəksəviyyəli siyasi dialoq, qarşılıqlı hörmət və bərabərhüquqlu prinsiplərə söykənən çoxtərəfli qarşılıqlı münasibətləri inkişaf etdirmək niyyətlərini ortaya qoyurlar.

Liderlərin Türkmənistanda apardığı müzakirələrdən, səslənən bəyanatlardan, əldə olunan razılaşmalardan bir daha aydın oldu ki, siyasi-iqtisadi-nəqliyyat, mədəni-humanitar sahələrdə ölkələr arasında yeni perspektivlər mövcuddur. Üç qardaş ölkə sülhün, sabitliyin tərəfdarıdır və üçtərəfli əməkdaşlıq regional iş birliyi ilə yanaşı, regional təhlükəsizliyə də töhfə verəcək.

Bakı, Aşqabad və Daşkənd mövcud iqtisadi potensialı bütövlükdə Avrasiyanın inkişafına yönəltməyin tərəfdarıdır. Tərəflər Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanlarını nəzərdən keçirdilər. Liderlər bir daha bəyan etdilər ki, əsas məqsəd dayanıqlı inkişafı təmin etməkdir. Bunun üçün isə regionda fəaliyyətdə olan və perspektivli marşrutların birləşdirilməsi planları nəzərdən keçirilir.

Prezident İlham Əliyevin də söylədiyi kimi, bölgəmizdə yeni, çox perspektivli, sülhə və tərəfdaşlığa yönəlmiş əməkdaşlıq formatı yaradılır. Azərbaycan-Türkmənistan-Özbəkistan yüksəksəviyyəli görüşünün geosiyasi əhəmiyyəti, təkcə bu üç ölkə arasındakı əməkdaşlığın dərinləşməsi ilə məhdudlaşmır, həm də Avrasiya məkanında regional güc balansına, enerji siyasətinə, nəqliyyat-logistika sistemlərinə və böyük güclərin maraqlarına da birbaşa təsir göstərir. Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin gerçəkləşən görüşünün əsas hədəfi qarşıdakı dövrdə üçtərəfli əlaqələri gücləndirmək idi. Bu isə öz növbəsində Xəzər və Mərkəzi Asiyanın kəsişməsində yerləşən, enerji, nəqliyyat və geosiyasi baxımdan strateji aktor olan, Avropa ilə Çin arasındakı ticarət yollarında vacib rol oynayan üç ölkəni birləşdirir. İnamla demək olar ki, liderlərin görüşü ilə buna nail olunub.

Üçtərəfli görüşdə çıxış edən Azərbaycan Prezidenti qeyd etmişdir: "Azərbaycan, Türkmənistan və Özbəkistan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geostrateji mövqeyə malikdir. Ölkələrimizin qarşısında nəqliyyat-tranzit əməkdaşlığı sahəsində yeni vəzifələr və imkanlar durur. Bunların arasında Orta dəhliz, limanların genişləndirilməsi, dəmir yolu məsələlərini biz bu gün hörmətli qardaşım Qurbanqulu Məlikquliyeviçlə geniş müzakirə etdik. Bu məsələləri Şavkat Miromonoviçlə də son görüşümüzdə müzakirə etmişik. Yəni üç ölkənin nəqliyyat, tranzit, logistika istiqamətində birgə səylər göstərməsi nəinki ölkələrimiz üçün, böyük region üçün mühüm əhəmiyyət daşıyacaq".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## *Amerikalı akademik Stiven Frederik STAR:* "Azərbaycanın regional liderlikdə aktiv rol oynaması dövrünün şəfəqi yüksəlməyə başlayır"

AZƏRTAC **Mərkəzi Asiya-Qafqaz İnstitutunun və İpək Yolu Tədqiqatları Proqramının sədri və təsisçisi, Con Hopkins Universitetinin Nitze Beynəlxalq Araşdırmalar Məktəbinin professoru, Amerika Xarici Siyasət Şurasının baş elmi işçisi, Oberlin Kollecinin və Aspen İnstitutunun keçmiş prezidenti, Mərkəzi Asiya və Asiya ölkələrinin tarixi və konfessiyaları üzrə ekspert Stiven Frederik Star ilə müsahibəni təqdim edir.**

*- Siz Azərbaycanın Avrasiya regionunda enerji və logistika mərkəzi kimi rolunu necə qiymətləndirirsiniz?*

- Artıq Azərbaycanın enerji və logistika mərkəzi kimi rolu əhəmiyyətlidir və mən şübhə etmirəm ki, onun önəmi artacaq. Lakin məsələnin həqiqi, daha dərin mahiyyəti bundan genişdir: Azərbaycanın suveren dövlət kimi rolu nədir və bu yalnız özü üçün yox, həm də daxil olduğu region kontekstində necədir? Bu mürəkkəb dövrlər əslində ölkə üçün yeni bir qızıl dövrün başlanğıcı ola bilər. Bakı təkcə regionda "solo ifaçı" kimi deyil, həm də Qafqazda və Mərkəzi Asiyada müxtəlif suveren dövlətlərin "səs xorunun" görkəmli və hörmətli üzvü kimi çıxış edə bilər. Başqa sözlə, söhbət yalnız logistikadan getmir. Logistika bir vasitədir, məqsəd özü deyil. Həqiqi məqsəd odur ki, Azərbaycan güclü və suveren dövlət kimi möhkəmlənsin, regional koordinasiya və liderlikdə aktiv rol oynasın. Mən əminəm ki, belə bir dövrün şəfəqi artıq yüksəlməyə başlayır və bunu alqışlayıram.

Qeyd etmək istəyirəm bu cür inkişaf heç kimə zərər vermir. Əgər kimsə, o cümlədən sizin şimal qonşunuz, düşünürsə ki, bu onlara qarşıdır, böyük səhvdir. Azərbaycanın regional rolunun güclənməsi labüddür və bu, bütün region üçün xeyirli olacaq.

*- Sizin "Lost Enlightenment" ("İtirilmiş Maarif") kitabınızda nəqliyyat dəhlizlərinin önəmi vurğulanır. Siz Azərbaycanın Orta dəhliz çərçivəsində potensialını necə qiymətləndirirsiniz? Bu marşrutun inkişafı ölkənin tranzit rolunun güclənməsi üçün hansı imkanlar açır?*

- Orta dəhliz həm Şərq, həm də Qərbə əhəmiyyətli faydalar gətirəcək. Lakin mənim fikrimcə, yalnız bu istiqamətlə məhdudlaşmaq düzgün deyil. Biz həm də cənuba uzanan, Hind altqitəsi və Cənub-Şərqi Asiyaya aparan böyük dəhlizdən danışmalıyıq. Xatırladım ki, Bakı yaxınlığında çoxəsrlik Hind ticarət məntəqəsinin qalıqları qorunub saxlanıb. Niyə o mövcud idi? Çünki Hind tacirləri Bakıda, Bakı tacirləri Hindistanda bir zamanlar canlı və dinamik mübadilə şəbəkəsinin parçası idilər. Bu tarix aydın göstərir ki, bir vaxtlar Əfqanıstan ərazisindən aktiv və nizamlı daşımalar, kommunikasiya axını mövcud olub. Belə bir marşrutun bərpası həqiqətən böyük və əhəmiyyətli imkan olardı. Bu baxımdan Azərbaycan qonşuları - Qafqaz ölkələri ilə, həmçinin, Türkmənistan, Qazaxıstan, Özbəkistan və Tacikistanla əməkdaşlıq edərək əhəmiyyətli rol oynaya bilər. Bu cazibədar və ilhamverici perspektivdir, lakin eyni zamanda mürəkkəb siyasi, təşkilati və iqtisadi çağırışlarla bağlıdır. Belə çağırışlar liderlik tələb edir. Mən əminəm ki, Azərbaycan bu müzakirədə daha görünən mövqe tutmalıdır. Əslində, Azərbaycan "Böyük Mərkəzi Asiya" adlandırıla biləcək regionun bir hissəsidir. Bu statusla o, cənuba - Əfqanıstan, Pakistan və İrana, sonra isə Hindistana və bütün Cənub-Şərqi Asiyaya uzanan nəqliyyat dəhlizinin açılmasında açar rol oynaya bilər.



*- Cənubi Qafqaz ölkələri üçün qlobal tədarük zəncirlərinin yenidən qurulması kontekstində hansı iqtisadi riskləri və imkanları görürsünüz? Region Rusiya, Çin və ABŞ-dən asılı olmayaraq öz iqtisadi modelini yarada bilərmi? Sizcə, bölgədə həqiqi iqtisadi inteqrasiyanın katalizatoru nə ola bilər?*

- Bu gün Cənubi Qafqazı vahid bütöv kimi - yəni Azərbaycan, Ermənistan və Gürcüstanı birgə - nəzərdən keçirmək üçün tədricən böyük imkan yaranır. Bu, böyük ölçüdə Azərbaycanla Ermənistan arasında münasibətlərdə həqiqi irəliləyişin baş verməsi ilə mümkün olub. Əlbəttə, bu proses hələ tamamlanmayıb, lakin hər iki tərəf səmimi niyyət və konstruktiv yanaşma ilə vacib addımlar atıb. Lakin bu irəliləyişdən kənarda, heç də az əhəmiyyətli olmayan bir məsələ də var - Qafqaz daxilində müntəzəm dialoqun qurulması. Mən əminəm ki, bu gün regionun qarşısında duran əsas məsələlərdən biridir: Azərbaycan, Ermənistan və Gürcüstan arasında strukturlaşdırılmış və daimi ünsiyyət formatının yaradılması. Bu, o demək deyil ki, Azərbaycan digər iki ölkənin hökumət siyasətini təsdiqləməlidir və ya əksinə. Lakin onların hamısı başa düşməlidir ki, birgə çalışaraq, ayrı-ayrı, izolyasiya olunmuş "solo ifaçı" kimi fəaliyyət göstərdiklərindən daha böyük nəticələr əldə edə bilərlər. Bərpaolunan daxili əlaqələr, Türkiyə, İran, Ukrayna, ABŞ və Rusiya daxil olmaqla, ətraf dövlətlərlə yeni əməkdaşlıq formatlarının əsasını qura bilər. Belə bir müntəzəm regional dialoq qurulduqda, məsələn, bütün əsas qlobal maliyyə oyunçularının dəstəkləyəcəyi Regional inkişaf bankının yaradılması barədə düşünmək mümkün olacaq. Belə bir institut hər iştirakçı üçün faydalı olar. Məsələn, prioritet olaraq dağlıq ərazilərin inkişafını əhatə edə bilər. Bu, Qafqazın üç ölkəsi üçün ümumi çağırışdır, çünki bu ərazilər hələ də nisbətən az inkişaf edib. Regional inkişaf bankı oxşar problemlərin çoxuna konkret və praktik həllər təklif edə bilər.

İmkanlar həqiqətən böyükdür. Azərbaycan və qonşuları Qafqazda dönüş nöqtəsindədirlər. Bu irəliləyişdə Azərbaycan və Ermənistanın müdrik rəhbərliyinin böyük rolu var. Lakin qeyd etmək lazımdır ki, bu prosesə xarici faktorlar da təsir edib.

*- Zəngəzur dəhlizinin Cənubi Qafqazın regional inteqrasiyası kontekstində iqtisadi əhəmiyyətini necə qiymətləndirirsiniz? Sizcə, bu nəqliyyat marşrutunun reallaşmasından Azərbaycan, Ermənistan və onlara qonşu ölkələr hansı konkret iqtisadi faydaları əldə edə bilər?*

- Bu, çox müsbət bir addımdır. Lakin bütün region üçün böyük potensiala malik olan yeni dəhlizdən iqtisadi faydalar əldə edilməsindən əvvəl, Bakı və İrəvanın Tehrandan olan reaksiyanı aradan qaldırması lazım olacaq. Mən, həmçinin Moskvanı da bura daxil edərdim.

*- Dəyişən geosiyasi vəziyyəti nəzərə alaraq, Azərbaycan, Mərkəzi Asiya və Avropa İttifaqının enerji əməkdaşlığının genişlənməsi perspektivlərini necə qiymətləndirirsiniz?*

- Çağırışlar nə qədər ciddi olsa da, bu proses qaçılmazdır və prosesi mümkün edən müdrik rəhbərliyə görə iştirak edən bütün ölkələr təbrikə layiqdir. Bu əməkdaşlıqda iştirak edən ən böyük beynəlxalq korporasiyalar da tərifə layiqdir.

# 26 Avqust Laçın Şəhəri Günüdür

## Laçının azad edilməsi hərbi və diplomatik zəfərimizin parlaq nümunəsidir

**2020-ci il sentyabrın 27-də başlayan və tarixə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı ilə 30 illik işğala son qoyuldu. Prezident İlham Əliyevin diplomatik bacarığı, qətiyyəti və dəmir iradəsi, eləcə də Azərbaycan Ordusunun şanlı qələbəsi Ermənistanı kapitulyasiyaya və işğal etdiyi ərazilərdən çıxmağa məcbur etdi.**



Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan tərəfindən boşaldıldı. Ondan əvvəl noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Ordusu tərəfindən azad olunmuşdu. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri tam nəzarətə götürüldü. Laçının azad edilməsi həm hərbi, həm də diplomatik zəfərimizin növbəti parlaq nümunəsi oldu.

Bu əlamətdar gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası yolunda atılan mühüm addımlardan biri kimi tarixə yazıldı. Laçının azad edilməsi təkcə hərbi uğur deyil, həm də milli qürur, xalqın illərlə gözlədiyi ədalətin bərpası idi.

Otuz ilə yaxın erməni işğalı altında qalan Laçın dirçəliş və yenidənqurma dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçın şəhəri və rayonu qısa zamanda böyük bərpa və inkişaf mərhələsinə daxil olub. Dövlət başçısının Laçına etdiyi səfərlər çərçivəsində Güləbird Su-Elektrik Stansiyası, "Qorçu" və "Laçın" şəhər yarımstansiyaları istifadəyə verilib, şəhərin əsas küçələrində 1 Dekabr, Heydər Əliyev, Zəfər, 28 May, Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişmələrindəki lövhələrin açılışı olub. Həmçinin Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometrlik tunel, "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsi, Şəlvə kəndi və şəhərdə ilk çoxmənzilli yaşayış məhəlləsinin, eləcə də İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub. Bütün bunlar Laçının yeni həyatının təməlini təşkil edir. Laçında aparılan genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə həyata keçirilir. Baş plan layihəsində, təbii yaşıllıqlarla əhatələnmiş və tarixən mövcud olmuş təxminən 258 hektarlıq məskunlaşma ərazisində əsasən həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı çoxfunksiyalı zonalarda və digər yaşayış sahələrində çoxmənzilli binaların tikintisi də nəzərdə tutulur.

Laçında bərpa və quruculuq işləri istehsal müəssisələrinin yaradılması ilə paralel şəkildə davam etdirilir. Bu işlərdən biri də Laçın rayonunun sənaye zonasında yaradılan mebel fabrikidir. Müəssisədə yataq və qonaq otaqları dəstlərinin, qapıların və digər mebel məhsullarının istehsalı nəzərdə tutulub. Fabrikin illik istehsal gücü 3 min kubmetrdir. Burada Avropa ölkələrinin, Türkiyə və Çinin istehsalı olan avadanlıqlardan, Türkiyə və Rusiyadan alınan xammaldan istifadə olunacaq. İstehsal sahələrində hazırda 54 nəfər çalışır ki, onların da 42-si Laçın sakinidir. İş həcminə görə gələcəkdə işçilərin sayının artırılması nəzərdə tutulur. Prefabrik modul evlərin istehsalı müəssisəsində isə ildə 200 ev hazırlanacaq.

Laçın şəhərində yaradılan "Laçın Aqro-Sənaye Parkı"nda ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək. Burada mebel fabrikləri, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi və digər müəssisələr yaradılacaq. "Laçın Aqro-Sənaye Parkı"nda işə başlayan müəssisələrdən biri də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialıdır. Müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir.

Bütün istiqamətlərdə həyata keçirilən işlər rayonun tarixi ənənələrinə əsaslanaraq planlaşdırılıb. Yaxın gələcəkdə burada ekoloji cəhətdən təmiz və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis olunub. Həmin sərəncama əsasən, 26 avqust Laçın şəhəri günü kimi müəyyən edilib. Bu gün Laçında genişmiqyaslı quruculuq və bərpa işləri yüksək zövq və keyfiyyətlə davam etdirilir. Rayonda həyata keçirilən layihələr və tikinti işləri artıq laçınlıların doğma şəhərlərinə qayıdışını mümkün edib. Prezident İlham Əliyevin tapşırığına əsasən, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə mərhələli şəkildə qayıdışına start verilib. 31 ildən sonra laçınlılar öz doğma yurdlarına qayıdıblar və burada daimi yaşayışa başlayıblar.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***

## Əzəli yurda əbədi qayıdış

**44 günlük Vətən müharibəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə torpaqlarımız işğaldan azad olundu. 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz Azərbaycana qaytardı. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri ölkəmizə təhvil verildi. Beləliklə, 30 ildən sonra Laçın şəhəri azadlığına qovuşdu.**

Bununla belə, Azərbaycanın humanist davranışlarından istifadə edən Ermənistan isə Qarabağda qalmış separatçılara Laçın yolu vasitəsilə silah-sursat daşımağa davam edirdi. Hərbi təyinatlı yüklərin daşınmasının qarşısını almaq, təhlükəsizlik mühitini formalaşdırmaq üçün 2023-cü il aprelin 23-də Azərbaycan tərəfindən Laçın nəzarət-buraxılış məntəqəsi yaradıldı.

Milli Məclisin deputatı Rövşən Muradov "Azərbaycan" qəzetinə Laçının geri qaytarılması, bu istiqamətdə aparılan uğurlu siyasətdən söz açıb. Deputat bildirib ki, 26 avqust - Laçın Şəhəri Günü xüsusi günlərdən biridir: "Laçının düşmən tapdağından azad olunmasından danışanda bir məqama diqqət yetirməliyik. Əgər Şuşa, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Hadrut, Suqovuşan hərbi yolla, ağır döyüşlər nəticəsində işğaldan azad olunmuşdusa, Laçın, Kəlbəcər və Ağdam hərbi-siyasi yolla düşməndən təmizlənib. Üç rayonun döyüşsüz, güllə atılmadan azad edilməsi böyük uğurdur. Bu həm siyasi, həm də hərbi nöqteyi-nəzərdən olduqca əhəmiyyətli, düşmənin belini qıran siyasi prosesdir.

### Siyasi iradənin qələbəsi

R.Muradov qeyd edib ki, işğal nəticəsində Laçın əhalisi etnik təmizləməyə məruz qalıb. Burada 300-dən artıq hərbi və mülki şəxs öldürülüb və itkin düşüb, mədəniyyət, təhsil, ticarət mərkəzləri, rabitə, idarə və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan olunub və ya məhv edilib. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. "Ermənilər Laçında qanunsuz məskunlaşmaqla rayonun sərvətlərini mənimsəyirdilər. Onlar düşünürdülər ki, daimi olaraq burada qalacaqlar. Lakin cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi mütləq qələbələr düşməni 10 noyabr kapitulyasiya aktına əsasən, Laçından çıxmağa vadar etdi. Beləliklə, ordumuzun döyüş meydanında başlatdığı qələbələr siyasi müstəvidə də zəfər əldə etməyə imkan verdi.

Deputat xatırladıb ki, Vətən müharibəsinə qədər danışıqlar zamanı Azərbaycana yalnız 5 rayonun qaytarılması üçün təzyiq edilsə də, rəsmi Bakı qətiyyətli mövqeyindən geri çəkilmədi. Danışıqlar prosesində Laçın rayonunun hansısa formada Ermənistana qalmalı olduğu fikri mövcud idi. Ermənistan bu rayonun onlara dəhliz kimi verilməsi mövqeyindən çıxış edirdi. Buna görə də, Laçın rayonunda digər işğal olunmuş ərazilərimizdən fərqli olaraq qanunsuz məskunlaşmanın həcmi daha böyük idi. ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən Laçın rayonu ərazisində 11 minə yaxın ermənin yerləşdirildiyi müəyyən edilmişdi. Azərbaycanın məlumatlarına görə isə bu rəqəm 13 mindən artıq idi.

Bütün hallarda Azərbaycanın mövqeyinin qətiyyətli olduğunu vurğulayan Rövşən Muradov deyib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı idi: "Belə də oldu. Vətən müharibəsinə qədər bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirdik. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərdə, həm də ordu quruculuğunda. Bu gücü "dəmir yumruq" formasına gətirməklə düşmənin belini qırdıq, yeni reallıqlar yaratdıq. Prezident İlham Əliyev həmişə deyirdi ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qaytarılmasa, heç bir razılaşma ola bilməz. Prezidentin mövqeyi xarici ölkələrdə bir çoxlarını qıcıqlandırırdı. Əslində hər birimiz tam əmin idik ki, siyasi yolla olmasa da, Azərbaycan Ordusu hərbi yolla mütləq bu rayonları düşmən tapdağından azad edəcək. Buna heç bir şübhə yox idi.

Eyni zamanda hər birimiz bilirdik ki, yerləşdikləri çətin relyef şəraiti, mövsüm şərtləri nəzərə alınarsa, bizim çoxsaylı itkilərimiz olacaqdı. Sadəcə Ağdamda 5 müdafiə xətti var idi. Bunların hər birinin aşılması zamanı böyük itkilər qaçılmaz idi. Ona görə də sözügedən üç rayonun üçtərəfli Bəyanata əsasən qaytarılması Azərbaycanın böyük siyasi qələbəsi idi. Təbii ki, Ermənistan buna öz xoşu ilə razı olmadı. Bu, Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə əldə etdiyi qeyd-şərtsiz qələbənin məntiqi davamı idi".



### Yurda dönən laçınlılar

Laçından erməni barbarları təmizləndikdən sonra digər işğaldan azad olunmuş rayonlarımız kimi burada da tikinti-quruculuq işlərinə start verildi. 2023-cü ilin may ayından laçınlılar doğma yurdlarına qayıtmağa başladılar. İki il ərzində Böyük Qayıdış Proqramı çərçivəsində Laçın şəhərinə, rayonun Zabux, Sus və Bəylik kəndlərinə 3500-ə yaxın keçmiş məcburi köçkün qayıdıb. Bu köç prosesi rayonda görülən genişmiqyaslı işlərdən xəbər verir. Dövlət başçısının Laçına səfərləri çərçivəsində təməlqoyma mərasimləri, açılışını etdiyi müəssisələr bu bölgəmizə yeni həyat bəxş edir.

Laçında beynəlxalq statustlu hava limanı fəaliyyət göstərir. Hava limanının açılış mərasimi bu il mayın 28-də Prezident İlham Əliyev və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan tərəfindən baş tutub. Çətin relyef şəraitində tikilən aeroport Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir. Ümumi ərazisi 130 hektardan çox olan hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bu nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına geniş imkanlar açacaq. Hazırda rayonda istifadəyə verilən, həmçinin tikilməkdə olan hotel, istirahət kompleksləri və digər turizm obyektləri rayonun turizm sahəsində perspektivlərini göstərməklə, Laçının təkcə yerli deyil, həm də xarici turistlərin sevdiyi və bəyəndiyi turizm məkanlarından biri olacağından xəbər verir.

Rövşən Muradov bildirib ki, Laçın həm strateji, həm də iqtisadi və regional inkişaf baxımından böyük potensiala malikdir: "Bu iqtisadi rayon geniş təbii sərvətlərə, iqtisadi imkanlara o cümlədən, kənd təsərrüfatının inkişafı üçün münbit torpaq sahələrinə malikdir. Rayonun ərazisində müxtəlif faydalı qazıntı ehtiyatları, İstisu, Turşsu, Mincə, Turş-tiqiq kimi mineral bulaqlar var. Eyni zamanda ərazinin 8 yeraltı su yatağı da mövcuddur. Bütün bunlar rayonda geniş investisiya imkanları yaradır, kiçik və orta sahibkarlığın və turizmin inkişafına imkanlar açır".

R.Muradov vurğulayıb ki, Laçının işğaldan azad edilməsi Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatik sahədə də qələbəsi idi: "Bu o demək idi ki, Azərbaycan döyüşdə işğalçı ölkənin hərbi, diplomatiya masasında isə siyasi rəhbərliyini məhv etdi. Ermənistan rəhbərliyi Azərbaycanın birlik rəmzi olan dəmir yumruğunun öldürücü gücü qarşısında diz çökərək təslim sənədinə imza atdı. Prezident İlham Əliyevin dediyi kimi, biz Xocalı qatillərini məhv etdik, Ermənistanın hərbi-siyasi rəhbərlərinin adları miskin fərari, qorxaq və yalançı qəhrəman kimi tarixə yazıldı".

Laçın şəhərinin bu il MDB ölkələrinin mədəniyyət paytaxtı seçildiyini xatırladan deputat deyib ki, burada əsas məqsəd işğaldan azad olunmuş ərazilərin mədəni dirçəlişini təşviq etmək, rayonun zəngin mədəni irsini beynəlxalq miqyasda tanıtmaq, MDB ölkələri arasında mədəni inteqrasiyanı və əməkdaşlığı gücləndirməkdir. 2025-ci il ərzində Laçında 15 tədbir çərçivəsində müxtəlif mədəniyyət festivalları, sərgilər və konsertlər keçirilib. Ümumiyyətlə, Laçında son dövrlərdə aparılan quruculuq, abadlıq işləri Azərbaycanda görülən böyük işlərin miqyasını göstərir.

Azərbaycanın dövlət siyasətinin prioritetlərindən biri keçmiş məcburi köçkünlərin qısa müddətdə və təhlükəsiz şəraitdə dədə-baba torpaqlarına qayıdışının təmin olunmasıdır. Prezident İlham Əliyevin tapşırığı ilə işğaldan azad olunmuş rayonlarımızda görülən sürətli bərpa, yenidənqurma işləri də bunu bir daha təsdiqləyir. Çox keçməyəcək ki, bütün laçınlılar Laçın Şəhəri Gününü əzəli və əbədi yurdlarında birlikdə qeyd edəcəklər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***




**"Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"**

2022-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi tviter səhifəsində etdiyi paylaşımda bu qürurverici sözlərlə laçınlıları, xalqımızı təbrik etdi və Azərbaycanın ədalətli qələbəsini Laçın zirvəsindən bir daha dünyaya duyurdu. Qarabağın xilaskarı İlham Əliyevin yürütdüyü diplomatik siyasət nəticəsində 1 dekabr 2020-ci ildə düz üç onillik boyu həsrətini, intizarını çəkdiyimiz Laçın rayonu bir güllə atılmadan, bir itki verilmədən azadlığına qovuşduruldu. Vətənpərvər şəxsiyyət İlham Əliyevin mükəmməl siyasi gedişləri, hərbi taktikası sayəsində üzərindən heç iki il keçməmiş 2022-ci ildə Laçın şəhəri də əzəli sahiblərinə qaytarıldı. 26 avqust tarixi təqvimlərimizdə Laçın Şəhəri Günü kimi qırmızıya - bayram rənginə boyandı.

Çox keçmədən füsunkar təbiətli rayonda quruculuq işlərinə başlanıldı, dağların qoynunda bina olunan bu ulu yurda qayıdış köçləri həyata keçirildi. Laçınlılar doğma torpaqlarına dönərək sevinclə "biz qayıtmışıq, Laçın", dedilər.

### Sarsılmaz inamın gücü

Laçın eli dədə-baba torpaqlarına qovuşana qədər çox faciələrlə üz-üzə qaldı, ağrı-acılara, əzablara tuş gəldi. 18 may 1992-ci ildə Laçın rayonu Ermənistan tərəfindən işğal olunan dövrdə ölkəmiz hərtərəfli böhran yaşayırdı. Şuşadan cəmi 10 gün sonra bu rayonumuzun da işğal olunması ölkədə yaşanan böhranı pik həddə çatdırmışdı. Faktiki olaraq Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdı. Bu isə qarşıda işğalçı Ermənistanın Kəlbəcəri və digər rayonlarımızı da bir-bir zəbt etməsinə şərait formalaşdırmışdı. Təcavüzkar Ermənistanın Laçın da daxil olmaqla rayonlarımızı ard-arda ələ keçirməsi həmin dövrdə ölkəyə rəhbərlik edən səriştəsiz rəhbərliyin və iqtidara hərisliklə can atan qüvvələrin milli xəyanətinin faciəvi nəticəsi idi. O ağır günlərdə antimilli qüvvələr rayonlarımızın müdafiəsini təşkil etmək əvəzinə hakimiyyət davası aparırdılar. Cəbhədən bir-birinin ardınca gələn acı xəbərlər, rayonlarımızın işğalı təəssüf ki, kreslo davası aparanları dayandırmırdı. Çünki vətən xainlərini nə ölkənin, nə də xalqın taleyi maraqlandırırdı. Bu səbəbdən də 18 may 1992-ci ildə Laçın rayonu işğal edildi. Torpağından zorla didərgin salınan Laçın eli məcburi köçkünə çevrilərək ölkəmizin dörd bir yanına səpələnib maddi-mənəvi məhrumiyyətlər içərisində yaşamağa başladılar. Ötən zaman ərzində dədə-baba yurdunun xiffəti ilə çox laçınlı bu dünyadan həsrətlə köçdü. Ancaq vətəndə qəribçilik çəkən bu insanlarımızın ürəyində el-obalarına dönəcəkləri ümidi heç zaman sönmədi. Onlar bu inamı düz 28 illik böyük zaman dilimində qəlblərində diri saxladılar, Laçına qovuşacaqları o xoşbəxt günü böyük səbir, arzu və istəklə gözlədilər. Laçınlılara bu sarsılmaz inamı aşılayan isə Prezident İlham Əliyevin əminliklə onlara verdiyi vəd idi.

Hələ 24 dekabr 2011-ci ildə Prezident İlham Əliyev 50 illik yubileyini Ağcabədidə, Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd edən zaman demişdi ki, bu müvəqqəti yaşayış məntəqəsidir: "Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm".

Sözügedən tarixi günün üzərindən heç on il keçməmiş Laçın rayonu işğaldan azad edildi. 1 dekabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza "Laçın bizimdir! Qarabağ bizimdir!" xoş xəbərini çatdırdı, bununla da bir qərinəlik həsrətin ardından laçınlıların da yurd nisgili bitdi.

### Laçın zəfəri

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 2020-ci ildə cəmi 44 gün ərzində düşmənin başını əzərək parlaq Şuşa zəfərini qazandı. Azərbaycan, Ermənistan və Rusiya rəhbərləri arasında imzalanan üçtərəfli Bəyanata müvafiq olaraq həmin il noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə atılmadan, bir itki verilmədən azad edildi. Bu, Azərbaycana şanlı qələbələr qazandıran qalib Lider İlham Əliyevin növbəti siyasi-diplomatik qələbəsi kimi tariximizə qızıl hərflərlə həkk olundu

16 avqust 2021-ci ildə Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə Laçın rayonuna səfər etdi. Həmin gün burada Laçın Beynəlxalq Hava Limanının təməlinin qoyulması ilə bu ecazkar təbiətə malik rayonun quruculuğunun rəmzi mesajı verildi. Səfər zamanı ölkəmizin rəhbəri dedi ki, beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq.

Azərbaycanın 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunun vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri Ermənistan tərəfindən boşaldıldı.

Laçın işğal olunduqdan sonrakı müddətdə Laçın şəhərinə, Zabux və Sus kəndlərinə Ermənistandan, eləcə də Yaxın Şərqdən ermənilər köçürülərək qanunsuz məskunlaşdırma aparılmışdı. Bu məskunlaşmada xaricdəki erməni diasporu və müxtəlif ianələr toplayan fondlar da fəal rol oynamışdılar. Halbuki işğaldan öncə bu kəndlərin heç birində erməni əhali yaşamamışdı.

Parlaq zəfərlərimiz sayəsində işğalçı Laçın torpağından birdəfəlik qovuldu. 2022-ci il sentyabrın 21-də Laçın şəhərində qalib lider İlham Əliyev Azərbaycan bayrağını qürurla dalğalandırdı və bəyan etdi ki, bu, tarixi hadisədir: "Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır".

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncamına əsasən, 26 Avqust - Laçın Şəhəri Günü kimi qeyd olunur.

23 aprel 2023-cü ildə isə Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində Azərbaycan bayrağı yüksəldildi. Bununla da ölkəmizin ərazi bütövlüyü qətiyyətlə təmin edildi.

### Dağlar qoynunda çağlayan həyat

İndi Laçın rayonunda yenidən həyat çağlayır. Rayonda genişmiqyaslı tikinti-qurculuq işləri görülür, yollar, tunellər çəkilir, infrastruktur qurulur, elektrik stansiyaları quraşdırılır. Artıq Laçın şəhərinə, həmçinin də Zabux və Sus kəndlərinə sakinlərinin qayıdışı həyata keçirilib. Bu günədək 571 ailə (2091 nəfər) Laçın şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində məskunlaşıb.

"Bu gün Laçın şəhəri görün, necə də gözəldir cəmi 8-9 ay ərzində, heç bir il keçməyib. Biz bərpa işlərinə keçən ilin oktyabr ayında başlamışdıq, artıq bu gün biz Laçında qonaqları qəbul edirik. Azərbaycanın müxtəlif yerlərindən qonaqlar gəlib, xarici ölkələri təmsil edən diplomatlar gəlib. Bu bir daha göstərir ki, xalqımız öz doğma torpağında qurub-yaradan xalqdır".

Bu fikirləri 26 avqust 2023-cü ildə böyük coşqu ilə keçirilən Laçın Şəhəri Günü bayram tədbirini laçınlılarla birlikdə Həkəri çayının kənarında qeyd edən dövlətimizin başçısı İlham Əliyev böyük fəxr hissi ilə dilə gətirib.

Laçının beynəlxalq görüşlərə, tədbirlərə, konfranslara evsahibliyi etməsi də artıq ənənə halını alıb.

Bu il 28 may Müstəqillik Günündə Laçın yenidən dünyanın diqqət mərkəzində oldu. Qardaş ölkələr - Azərbaycan, Türkiyə və Pakistanın liderləri növbəti Zirvə görüşlərini burada keçirdilər. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Şərqi Zəngəzurdan qardaşlıq, həmrəylik, sülh mesajları çatdırdılar. "Bugünkü Zirvə görüşü Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilir. Bunun böyük rəmzi mənası var", - deyə dövlətimizin başçısı sözügedən tarixi zirvə görüşündə bəyan etdi. Laçının artıq bu kimi beynəlxalq görüşlərə, tədbirlərə evsahibliyi etməsinin fonunda dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda gördüyü genişmiqyaslı quruculuq işləri də aydın şəkildə göründü.

Vurğulayaq ki, bu il Müstəqillik Günündə Laçın Beynəlxalq Hava Limanının açılışı da Azərbaycan və Türkiyə liderlərinin iştirakı ilə həyata keçirildi. Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən bu hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur.

MDB Humanitar Əməkdaşlıq Şurasının 8 oktyabr 2024-cü il tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan olunub. Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi işğaldan azad edilən torpaqlarımızın mədəni ruhunun özünə qaytarılmasını əks etdirir.

Bəli, artıq Laçın eli əbədi bəxtəvər həyata qədəm qoyub. Bütün bunlar həm də xalqımızın qazandığı şanlı zəfərlərin yaratdığı fərəhləndirici gerçəkliklərdir.

Laçın Şəhəri Günü bayram tədbirində çıxışı zamanı müzəffər lider İlham Əliyevin söylədiyi kimi: "Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Qərəzli iddialara ABŞ nəşrində cavab: Ermənistan-Azərbaycan sülh prosesi faktlarla müdafiə olundu

ABŞ-nin "National Interest" jurnalında erməni diasporunun radikal nümayəndəsi kimi tanınan Stefan Peşdimalci tərəfindən bir müddət əvvəl Azərbaycana qarşı əsassız fikirlər və iftira ilə dolu məqalə dərc edilmiş və Ermənistan-Azərbaycan sülh prosesi tənqid olunmuşdu. Buna cavab olaraq, "National Interest" keçmiş diplomat Anar Cahangirlinin "Ermənistan-Azərbaycan sülh prosesini tənqid deyil, dəstəkləmək lazımdır" adlı məqaləsini dərc edib. AZƏRTAC məqaləni təqdim edir:

"2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Ağ Evdə Donald Tramp ilə əl sıxdıqda, bu, sadəcə, növbəti foto fürsəti deyildi. Son onilliklər ərzində ilk dəfə Azərbaycan və Ermənistan liderləri bir nəsli yaralayan münaqişəyə son qoymaq üçün yol xəritəsi təqdim etdilər.

Liderlər "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Müqavilənin" mətninin paraflanmasına şahidlik edərək, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə yeddi maddədən ibarət bəyannamə imzaladılar. Sülh müqaviləsi hələ tam olaraq imzalanmasa da, əldə olan sənəd bir-birinin suverenliyinə hörmət etməyi və sərhədlərin zorla dəyişdirilməsindən çəkinməyi vəd edir.

Sənəd həmçinin ABŞ-nin dəstəyi ilə Ermənistan ərazisindən keçən və Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək tranzit yolunu nəzərdə tutur. Həmin marşrut boyunca yaşayan icmalar üçün bu, sadəcə, diplomatik razılaşma deyil. Bu, yolların yenidən açılması, bazarların dirçəlməsi və məftillərlə, səngərlərlə ayrılmamış kəndlərin və şəhərlərin birləşməsi vədidir.

Hər kəs bunu belə görmür. Stefan Peşdimalci son məqaləsində bu razılaşmanı "boş simvolizm" adlandırır və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün atdığı addımlara görə "hesab verməsini" tələb edir. Anlamaq lazımdır ki, məsuliyyət birtərəfli deyil. Müəllifin bu mövqeyi, onilliklərlə Ermənistan silahlı qüvvələrinin beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərini işğal altında saxlamasını, yüz minlərlə insanı məcburi köçkün vəziyyətinə salmasını görməzdən gəlir. Eləcə də, Ermənistan ordusunun Qarabağda yüzlərlə Azərbaycan şəhər və kəndlərini tamamilə dağıtmasını, Azərbaycanın həmin əraziləri viranə vəziyyətdə geri almasını, indi isə onları bərpa edib dirçəltməyə çalışmasını nəzərə almır.

Müəllifin yazısı həmçinin 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qoşunlarının işğal etdiyi rayonlardan çıxmasını tələb edən qətnamələrin olduğunu xatırlatmır. Ermənistan hakimiyyəti bu çağırışlara məhəl qoymadı, həmin əraziləri öz




əraziləri kimi idarə etdi - oraya əsgərlər göndərdi, hərbi komandirlər təyin etdi və irəli çəkdi, kommersiya lisenziyaları verdi və kvazi-hökumət qurumlarının əməkhaqlarını ödəyirdi. Avropa İnsan Hüquqları Məhkəməsi də "Çıraqov Ermənistana qarşı" işində bunu "effektiv nəzarət" kimi tanıdı. Təxminən otuz il ərzində danışıqlar dayanmışdı və təmas xətti möhkəmlənmişdi.

Yalnız 2020-ci ildə müharibədən sonra, Azərbaycan işğal altındakı rayonlarını geri aldıqdan sonra ciddi sülh danışıqları başladı. Bakı Qarabağ bölgəsində yaşayan etnik ermənilərə vətəndaşlıq, yerli özünüidarəetmə, mülkiyyət və mədəni hüquqların qorunmasını təklif etdi, lakin təkliflər rədd edildi. 2023-cü ilin sentyabrında Azərbaycan qısamüddətli əməliyyatla separatçıların nəzarətində qalmış digər ərazilərə də nəzarəti bərpa etdi. Separatçı rəhbərlik silahı yerə qoydu və ermənilərin hüquq və təhlükəsizliyinin Azərbaycan Konstitusiyası çərçivəsində həll ediləcəyini qəbul etdi. Nəticədə Qarabağdakı erməni əhalisi sonrakı həftələrdə bölgəni tərk etdi. Peşdimalci bu gedişi "etnik təmizləmə" kimi təqdim edir.

Aydındır ki, "qorxu və çətinlik" bir çox ailələrin çıxmasına təsir edən amillərdən idi. Ancaq bunu sübutsuz şəkildə "etnik təmizləmə" adlandırmaq mürəkkəb seçimləri sadə şüara endirir və niyyətin olmadığı yerdə onun mövcudluğunu iddia edir. Əksinə, Azərbaycan hakimiyyəti dəfələrlə erməni əhalisinin reinteqrasiyasına çağırdı, onlara vətəndaşlıq və digər hüquqlar qazanmaq üçün yollar təklif etmişdi.

Peşdimalci iddia edir ki, guya Azərbaycan həbsxanalarında erməni "siyasi məhbusları" və "hərbi əsirləri" saxlanılır. Əslində, Azərbaycanda heç bir hərbi əsir yoxdur, çünki onların hamısı 2020-ci il 9 noyabr razılaşmasından dərhal sonra Ermənistana təhvil verilmişdi. Döyüşlər dayandıqdan xeyli sonra bir neçə erməni hərbçi əsir götürülmüşdü və onlar da sonrakı razılaşmalar çərçivəsində azad olunublar.

Hazırda Azərbaycan yalnız Qarabağda qanunsuz yaradılmış separatçı qurumun bir sıra siyasi və hərbi liderlərini həbsdə saxlayır və onlara qarşı ciddi ittihamlar irəli sürülüb, məhkəmə prosesi aparılır. Məhkəmə açıqdır və saxlanılanlara Azərbaycan qanunvericiliyinə uyğun bütün hüquqlar verilib.

Mədəni irsin məhv edilməsi ittihamları da izaha ehtiyac duyur. Bəzi erməni kilsə xadimləri yüzlərlə kilsə və abidənin risk altında olduğunu bildirirlər. Azərbaycan isə cavabında qeyd edir ki, həmin obyektlərin bir çoxu qədim Qafqaz Albaniya irsinə aiddir və onların qorunacağına zəmanət verir. Ermənistan tərəfinin iddia etdiyi bəzi kilsələr isə işğal dövründə yeni tikilib, tarixi və mədəni əhəmiyyətə malik deyil.

Sülh sazişinin yekun imzalanması üçün hələ də görüləsi işlər var:

1) ATƏT-in Minsk qrupu buraxılmalıdır;

2) Azərbaycanın əsas hissəsini Naxçıvana birləşdirən yol açılmalıdır;

3) Ermənistan öz konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası kimi təfsir oluna biləcək müddəaları dəyişməlidir.

Lakin bütün bunları sadalayan Azərbaycan Prezidenti Vaşinqtondakı sammitdən sonra verdiyi müsahibədə "artıq bölgəmizə davamlı sülh gəlib" dedi.

Cənubi Qafqazda sülh yalnız bir tərəfin iztirabını unudaraq əldə olunmayacaq. Sülhün təməli regionun özündədir - azərbaycanlılar və ermənilər ortaq gələcəklərini yenidən təsəvvür edə bilərlər. Hökumətlər qalan blokadaları aradan qaldıra, yolları aça, mədəni irsi qoruya və başladılmış müqaviləni tamamlaya bilərlər.

Eyni zamanda bölgəyə yaxın ölkələr Qafqaz xalqlarına geosiyasi oyunun fiqurları kimi deyil, qorxusuz yaşamağa layiq qonşular kimi baxmalıdırlar. Köhnə klişeləri təkrar edib, "lazımsız" bildikləri faktları görməzdən gələnlər nə ermənilərə, nə də azərbaycanlılara fayda verirlər. Nəticə etibarilə, etimad kənardan səslənən ittihamlarla deyil, keçmişdəki səhvlərinin tanınması və ortaq gələcəyə aparan konkret addımların dəstəklənməsi ilə qurulur".

Qeyd edək ki, Anar Cahangirli Qarabağ Universitetində strateji inkişaf üzrə müşavir olaraq çalışır, həm də ADA Universitetinin Dövlət Siyasəti üzrə müəllimidir. O, 2001-2011-ci illərdə Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb, Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyində diplomatik xidmətdə olub. 2011-ci ildə ABŞ-ın Harvard Universitetinin Con Kennedi adına İdarəçilik fakültəsinin magistr diplomunu aldıqdan sonra özəl sektorda və beynəlxalq təşkilatlarda çalışıb, ictimaiyyətlə əlaqələr, təhsilin idarə edilməsi və strateji tərəfdaşlıqlar üzrə mütəxəssisdir.

## *Türkiyə nəşri:* "Zəngəzur dəhlizi regional əməkdaşlığa və inkişafa güclü stimuldur

Qars ilə Naxçıvan arasında 224 kilometrlik dəmir yolunun çəkilməsi Türkiyənin Azərbaycana yeni "körpü" salmasına imkan verəcək ki, bu da regional əməkdaşlıq və inkişaf üçün güclü stimul olacaq.




AZƏRTAC xəbər verir ki, bu barədə avqustun 25-də Türkiyənin "Sabah" qəzetində dərc olunmuş məqalədə deyilir.

Nəşr yeni dəmir yolunun ölkənin müxtəlif regionlarının, o cümlədən Cənub-Şərqi Anadolu və Türkiyənin Aralıq dənizi zolağının inkişafına güclü təkan verəcəyini qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğanın mövqeyinə diqqət çəkir. "Sabah" qəzeti qeyd edir ki, Zəngəzur dəhlizinin tezliklə açılması Orta Dəhlizin səmərəliliyini artıracaq, proqnozlara görə, 2030-cu ilə qədər bu istiqamətdə yükdaşımaların həcmi 2021-ci ilə nisbətən 3 dəfə çox olacaq.

"Türkiyə Azərbaycana və Mərkəzi Asiya ölkələrinə yeni çıxış əldə edəcək, beləliklə, hasilat, yükdaşıma və ixrac həcmi artacaq. Zəngəzur dəhlizi boyunca boru kəmərləri və fiber-optik kabellər çəkiləcək".

Məqalədə Zəngəzur dəhlizinin Naxçıvanın inkişafına da təkan verəcəyinə diqqət yetirilir. "Naxçıvan Muxtar Respublikasını təcrid etmək cəhdlərinə son qoyulacaq, bu muxtariyyətə İran üzərindən daşımalar azalacaq, Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq güclənəcək", - deyə nəşr yazır.

Bununla yanaşı məqalədə qeyd olunur ki, Zəngəzur dəhlizi Ermənistan, Türkiyə və Azərbaycan arasında münasibətlərin normallaşmasına da töhfə verəcək. "Sabah" yekunda qeyd edir ki, Ermənistan yeni sərmayələr cəlb edə və məhsul tədarükü bazarlarını şaxələndirə biləcək. Həmçinin gələcəkdə Zəngəzur dəhlizinin açılmasından əldə olunacaq iqtisadi dividendlər milyardlarla dollar həcmində qiymətləndirilə bilər.

## *Türkiyə politoloqu Sinan DEMİRTÜRK:* "Türkmənistanda keçirilən üçtərəfli görüş türk dövlətlərinin birgə inkişaf əzmini nümayiş etdirir"

**"Türkmənistanda keçirilən üçtərəfli yüksəksəviyyəli görüş türk dövlətlərinin birgə inkişaf əzmini nümayiş etdirir".**

Bu fikri AZƏRTAC-ın müxbiri ilə söhbətində Türkiyə Strateji və Siyasi Araşdırmalar Vəqfi (TÜRPAV) İdarə Heyətinin üzvü Sinan Demirtürk ifadə edib.

Politoloq Türkmənistan, Azərbaycan və Özbəkistan liderləri arasında yüksəksəviyyəli görüşü "Türk dünyası üçün mühüm hadisə" və Türk Dövlətləri Təşkilatına (TDT) "inteqrasiyaya töhfə" adlandırıb.

O, Bakı, Aşqabad və Daşkənd arasında sıx qarşılıqlı əlaqənin Zəngəzur dəhlizinin bir hissəsi olduğu Asiya və Avropa arasında Orta Dəhlizə təkan verəcəyinə əminliyini ifadə edib. "Türkmənistan, Azərbaycan və Özbəkistan liderlərinin görüşü həm də Avrasiyadakı proseslərə yeni iqtisadi baxışın göstəricisidir", - deyən TÜRPAV İdarə Heyətinin üzvü Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsindən sonra Türk dünyasında dialoqun daha da gücləndiyini xatırladıb.

O, son illər Xəzərin sərvətləri ilə bağlı Bakı və Aşqabadın mövqelərinin yaxınlaşdığını, Azərbaycanla Özbəkistan arasında müttəfiqlik münasibətləri haqqında Sazişin imzalandığını qeyd edib. S.Demirtürk Türkiyə-Azərbaycan münasibətlərini strateji müttəfiqlik səviyyəsinə çatdıran 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsinin əhəmiyyətini də diqqətə çatdırıb. "Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq modeli bütün türk dövlətləri arasında qarşılıqlı fəaliyyət üçün əsas ola bilər", - deyən ekspert əlavə edib ki, bu nailiyyət TDT məkanında "Türk geosiyasəti" kimi xarakterizə edilən fəal dialoq sayəsində mümkün olub.

# Ermənistan silahlı qüvvələrinin Şuşaya, Kəlbəcərə, Füzuliyə, Zəngilana hücumları nəticəsində zərər çəkmiş şəxslər məhkəmədə ifadə veriblər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 25-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Sahib Əsgərov ifadəsində bildirib ki, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 1993-cü ildə Kəlbəcərdən məcburi köçkün düşüb. Deyib ki, şəhərə hücumlar nəticəsində qohumlarından həyatını itirənlər və yaralananlar olub. O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualını cavablandıraraq vurğulayıb ki, Kəlbəcər sakinləri şəhəri tərk edərkən onlara çıxış üçün yol belə verilməyib.

Zərərçəkən Kəlbəcərdə "Tunel" faciəsinin şahidi olduğunu da diqqətə çatdırıb. O, ifadəsində, həmçinin düşmən tərəfdən xaricdən gətirilmiş muzdlu döyüşçülərin də olduğunu bildirib. "Qəbiristanlıqlarımızı dağıdıb, mədəni tarixidini abidələrimizi öz adlarına çıxarıblar", - deyə S.Əsgərov əlavə edib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın sualını cavablandıran zərərçəkən Sabir Quliyev Şuşanın Göytala kəndinin sakini olduğunu, 1992-ci il mayın əvvəlində şəhərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini və məcburi köçkün düşdüyünü vurğulayaraq söyləyib: "Əmim oğlanları Tahir və Rəfael Quliyevlər həlak oldular. Tahir Quliyevin meyiti hələ də tapılmayıb".

"Şuşanın işğalı zamanı qarşı tərəf dinc əhaliyə humanitar dəhliz vermədi. Laçından keçəndə isə Gorus tərəfdən artilleriya atəşinə məruz qaldıq. Orada yaşlı qadın həlak oldu", - deyən zərərçəkən əlavə edib ki, torpaqlarımız işğaldan azad olunandan sonra atasının qəbrini ziyarət edəndə onun məzarının dağıdıldığını, bəzi başdaşlarının çıxarıldığını görüb.

"Mülkümüzü, təsərrüfatımızı, var-dövlətimizi əlimizdən aldılar. Kəndlərimizi dağıdıblar, sakinlər evlərini belə tapa bilmirdilər. Torpaqlarımızı elə bir vəziyyətə salıblar ki...", - deyə o diqqətə çatdırıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualını cavablandıran zərərçəkən Almaz Ağayeva bildirib ki, ailəsi ilə Xankəndi şəhərinin "5-ci paralel" küçəsindəki evdə yaşayıb. 1988-ci ilin sentyabrında təzyiqlərə dözməyərək Şuşaya köçüblər. "Mən Qarabağ İpək Kombinatında işləyirdim. Erməniləri gətirib Xankəndiyə doldururdular, azərbaycanlıları döyürdülər. Belə təzyiqlərə dözməyərək çox əzab-əziyyətlə meşədən keçib cığırlarla Şuşa şəhərinə gəldik. 1992-ci ildə isə Şuşadan da məcburi köçkün düşdük. Qonşum Zöhrə Quliyeva orada qətlə yetirildi. Atam da yaralanmışdı. Zirzəmidə qalırdıq. Artilleriyadan atəş açırdılar", - deyə o, hadisələri xatırlayıb.

Zərərçəkən Sevda Həsənova ifadəsində 1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Füzuli rayonundan məcburi köçkün düşdüyünü söyləyib. Dövlət ittihamçısı Fuad Musayevin sualını cavablandıran S.Həsənova deyib: "Mülki əhali ilə hərbçilər arasında heç bir fərq qoyulmurdu. Qonşumuzun həyətinə "Qrad"la atəş açmışdılar, qızın bədəni parça-parça olmuşdu".

O vurğulayıb ki, torpaqlarımız işğaldan azad ediləndən sonra oraya qayıdanda qəbiristanlıqlarda məzarların dağıdıldığının şahidi olub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında zərərçəkən Araz Cəbrayılov 2023-cü il sentyabrın 19-da Xankəndi yaxınlığında meşədə pusquya salındıqlarını və açılan atəş nəticəsində yaralandığını bildirib.

Zərərçəkən Nadir Məmmədov ifadəsində 1993-cü il oktyabrın sonlarında Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Zəngilandan məcburi köçkün düşdüyünü və yaralandığı söyləyib: "Mülki əhaliyə rayondan çıxmaq üçün heç bir humanitar dəhliz verilmədi, sakinlər atəşə tutulurdu. Araz çayından keçib xilas olmuşuq".

O, Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış evlərinin şəklini göstərərək qeyd edib ki, 1991-ci ildə tikdikləri evdə cəmi 2 il yaşaya biliblər. "Evlərimizə, məscidlərimizə, qəbiristanlıqlarımıza vurulan zərərin ödənilməsini tələb edirik. Qəbiristanlıqlarımızda qəbirlərimiz də dağıdılıb", - deyə o əlavə edib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkən Nəriman Ələsgərov ifadəsində Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində Zəngilandan məcburi köçkün düşdüyünü bildirib. Deyib ki, Zəngilanın işğalı zamanı poçtalyon vəzifəsində çalışan Bəhmən adlı şəxs artilleriya atəşi nəticəsində öz həyatında həlak olub. "Qısa müddət ərzində bir neçə kəndi işğal etdilər, əhali kəndlərdən ayaqyalın qaçmağa məcbur oldu. Vəli dayının ailəsini qətlə yetirdilər. İsmayıl dayını ruhi xəstə oğlu ilə birlikdə tanka bağlayaraq sürüyüb öldürdülər. Əhaliyə humanitar dəhliz verilməmişdi. Kəndləri işğal edən kimi yandırırdılar", - deyə o vurğulayıb.

Nəriman Ələsgərov Zəngilan işğaldan azad olunandan sonra oraya qayıdarkən kəndlərdə daşın daş üstə qalmadığını, qəbiristanlıqların dağıdıldığını gördüyünü söyləyib.

Zərərçəkənlər təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını da cavablandırıblar.

Sonra məhkəmə iclasında təqsirləndirilən şəxs Arkadi Qukasyanın cinayət işi üzrə verdiyi ifadələr elan olunub.

Məhkəmə prosesi avqustun 28-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.





# Mədəniyyət





26 avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür




# Keçmişdən gələcəyə...

**Azərbaycan muğamı bəşər mədəniyyətinin nadir incilərindən sayılır. Xalqımızın bu qədim irsinin - muğamlarımızın UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi də bunun təsdiqidir.**

## Dünya mədəniyyətində özünəməxsus yeri olan muğamlarımız

Sanki bu xalqın özü ilə həmyaşıddır. Onunla birlikdə yaranıb, gündən-günə, aydan-aya, ildən-ilə adlayıb. Sonra illəri əsrlərə calanıb. Və beləcə, muğamlarımız xalqımızla birlikdə bu günlərə qədər uzun yol gəlib.

Ruhundan pərvazlandığı xalqın özü kimi o da yüz illərin sınağından asanlıqla keçməyib. Muğamlarımıza ögey nəzərlərlə baxanlar da az olmayıb. Ancaq həmin vaxtlarda da Azərbaycan xalqı öz zəngin mədəniyyətinin bu gözəl incilərinin dəyərdən salınmasına yol verməyib. Onu sevdiyi qədər qoruyub yaşatmağı da bacarıb. Odur ki, zamanın tufanları, təlatümləri muğam sənətini dayandığı yüksək məqamdan heç vaxt endirə bilməyib. Xalq arasından çıxan xanəndələr "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər", "Hümayun" və digər muğamlara öz səslərinin şirinliyini, məlahətini qataraq özlərinəməxsus tərzdə oxuyublar. Beləcə, muğamlarımız hər xanəndənin ifasında sanki yenilənib. Hər istedadlı ifaçısı ona yeni nəfəs verib. Hər dinləyicisi isə onda öz mənəvi dünyasını, hisslərinin, duyğularının tərcümanını tapıb. Qədim muğamlarımız heç zaman "qocalmayıb". Çünki hər bir mahir ifaçısı səsi ilə, pərəstişlə, heyranlıqla dinləyən hər bir muğamsevərin heyrəti və sevgisi ilə elə bil yenidən dünyaya gəlib.

Xalqımızın milli-mənəvi zənginliklərini təcəssüm etdirən muğamlarımız yalnız bizi heyran etmir. Ecazkarlığı ilə dilindən, dinindən, irqindən asılı olmayaraq, hər bir musiqisevərin qəlbinə yol tapır. Ona görə də muğamları təkcə Azərbaycanda, Şərq ölkələrində deyil, bütün dünyada sevə-sevə dinləyirlər. Bu səbəbdən dünya mədəniyyətində onun özünəməxsus yeri var. Hələ 1971-ci ildə UNESCO 50 albomdan ibarət "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" valı da daxil edilmişdi. UNESCO tərəfindən Azərbaycan muğamları 1975-ci ildə isə "Musiqi mənbələri" seriyasında təqdim olunmuşdu. 1977-ci ildə Amerika Birləşmiş Ştatları Milli Kosmik Agentliyi Azərbaycanın milli sərvəti olan muğam musiqi nümunəsini peyklə kosmosa göndərmişdi.

Kanadanın Niaqara şəhərinin meriyası və hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən 2010-cu ildə qərar qəbul edilib. Bu qərara əsasən, 26 avqust Beynəlxalq Azərbaycan Muğamı və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur.

## Azərbaycanın mənəvi sərvəti

Azərbaycan xalqı XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixinin çətin, ağır, lakin qürurverici dövrünə qədəm qoydu. 70 il ölkəmizi öz tabeliyində saxlamış nəhəng imperiya tarixə gömüldü. Sovet hakimiyyəti heç vaxt müttəfiq respublikaları itirmək xofundan azad olmamışdı. Azərbaycan xalqına da milli kimliyini, özünəməxsusluğunu unutdurmağa çalışmışdı.

Qədim muğam sənətimizi bu səbəblərdən gözdən salmağa səy göstərirdilər. Sovet hökumətinin ən sərt dönəmlərində, xüsusilə 1930-cu ildən 1970-ci ilədək muğam sənətinin bəsit, primitiv olduğunu iddia edənlər olub. Amma dövrünün bütün çətinliklərinə və ziddiyyətlərinə baxmayaraq, öz milli kimliyini uca tutanlar, mənəvi dəyərlərini qorumaqdan geri çəkilməyənlər muğam sənətini yaşatmağı və daha da inkişaf etdirməyi bacarıblar.

Azərbaycan müsəqilliyini bərpa etdikdən sonra xalqımızın öz tarixini sovet hökumətinin, necə deyərlər, süzgəcdən keçirdiyi şəkildə yox, olduğu kimi öyrənməsinə, milli-mənəvi sərvətlərini daha geniş şəkildə inkişaf və təbliğ etdirməsinə şərait yarandı. Azərbaycan dövlətinin diqqəti və qayğısı sayəsində muğam sənəti də bu gün artıq öz parlaq dövrünü yaşayır. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, muğam Azərbaycanın milli sərvətidir: "Azərbaycan xalqı əsrlər boyu bu gözəl sənəti öz həyatında uca tutmuşdur, öz qəlbində saxlamışdır. Nəsildən-nəslə keçən muğam sənəti bu gün də Azərbaycanda yaşayır, qorunur, inkişaf edir. Bizim görkəmli muğam ustalarımız öz məharətini, öz biliklərini gənc nəslə ötürürlər. Azərbaycanda ənənəvi olaraq keçirilən muğam müsabiqələri də bu işdə çox mühüm rol oynayır. Azərbaycanı muğamsız və muğamı Azərbaycansız təsəvvür etmək mümkün deyildir".

Bu gün fəxrlə deyirik ki, Azərbaycan muğamı dövlət tərəfindən qorunur, təbliğ və inkişaf etdirilir. Respublikamızın paytaxtında Beynəlxalq Muğam Mərkəzi yaradılıb. Regionlarımızda da muğam mərkəzləri açılıb. Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak etdilər. Dövlətimizin başçısı İlham Əliyev çıxışında bildirdi ki, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür: "Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür".

Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mərkəz mühüm rol oynayacaq.

Dövlətimiz tərəfindən muğamın təbliği və inkişafı istiqamətində həyata keçirilən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Bu istiqamətdə fondun təşkilatçılığı və dəstəyi ilə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr reallaşdırılır. Azərbaycan muğamının UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınması da həmin layihələrin nəticəsidir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu uzun illərdir ki, muğam sənətimizinin inkişafında və təbliğində təqdirəlayiq işlər görür. Azərbaycan muğamının təbliğinə və inkişafına böyük diqqət və qayğı göstərən Mehriban xanım Əliyeva bildirib ki, muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır: "Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm, muğam gözəlliyin və məhəbbətin rəmzidir - səhv etmərəm".

Fond tərəfindən "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə nəşr olunub. 2008-ci ildə Heydər Əliyev Fondunun Azərbaycan muğamına həsr edilən daha bir nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində işıq üzü görüb.

Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən müxtəlif müsabiqələr, beynəlxalq festivallar təşkil edilir. Muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi üçün Heydər Əliyev Fondu "Muğam televiziya müsabiqəsi" keçirir. 2005-ci ildə Birinci Muğam Müsabiqəsi görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə təşkil olunub. Sonrakı illərdə - 2007-ci, 2009-cu, 2011-ci, 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu və 2022-ci illərdə də muğam müsabiqələri keçirilib, müsabiqə qalibləri Heydər Əliyev Fondu tərəfindən mükafatlandırılıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə keçirilən muğam müsabiqələri gənc ifaçıların yaradıcılıq potensialının üzə çıxarılmasına, xalq musiqisinin yaşadılaraq yeni nəsillərə ötürülməsinə və Azərbaycanın muğam sənətinin beynəlxalq aləmdə tanıdılmasına mühüm töhfə verməkdə davam edir. Müsabiqənin 20-ci ildönümündə - bu il mayın 13-də IX "Muğam" Televiziya Müsabiqəsinə start verilib. Müsabiqə iyunun 12-də Ağdam Muğam Mərkəzində davam edib. Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən müsabiqədə yeniyetmə və gənc ifaçılar məharətlərini göstəriblər. IX "Muğam" Televiziya Müsabiqəsinin finalı isə dünən Laçında keçirilib.

Qeyd edək ki, "Muğam" Televiziya Müsabiqəsində iki yaş aralığında - 8-16 yaşında yeniyetmələr və 16-30 yaşında gənclər yarışırlar. Müsabiqədə təxminən 3 ay ərzində Bakıda və bölgələrdə keçirilən dinləmələr əsasında seçilmiş 30 ifaçı iştirak edir. Müsabiqə iştirakçıları klassik və müasir Azərbaycan şairlərinin qəzəllərini muğam şöbələri üzrə səsləndirir, həmçinin xalq mahnıları, təsniflər və zərb-muğamları ifa edirlər.

UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycan muğamının və əlaqəli musiqi formaları ənənələrinin qorunması, ifası və tədqiqini təşviq edən ən önəmli beynəlxalq tədbirlərdən biri - "Muğam aləmi" Beynəlxalq Festivalı da Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə 2009-cu ildən etibarən keçirilir. Festival ardıcıl olaraq 2011, 2013, 2015, 2018 və 2023-cü illərdə də dünyanın müxtəlif ölkələrindən sənətçiləri, musiqiçiləri, alimləri və mədəniyyət təbliğatçılarını bir araya gətirib.

Mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, muğam irsinin yaşadılmasına böyük töhfələr verən "Muğam aləmi" beynəlxalq festivalı bu il 7-ci dəfə düzənlənib. 17-22 iyunda keçirilən festivalda Türkiyə, Almaniya, İspaniya, Mərakeş, İraq, Cənubi Koreya, Özbəkistan, Tacikistan, Kanada, Hindistan, Norveç, Rusiya, Böyük Britaniya, ABŞ, Yaponiya, İsveçrə, ümumilikdə 25-dən çox ölkədən 50-dən çox ifaçı, tədqiqatçı və qonaq iştirak edib. "Muğam aləmi" VII Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi iyunun 22-də muğamın beşiyi olan azad Qarabağda - Ağdamdakı Muğam Mərkəzində olub. Bu isə o deməkdir ki, Ermənistanın işğalından azad etdiyimiz Şuşa, Ağdam, Laçın və başqa yerlərimizdən bu gün doğma muğamın səsi eşidilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı" layihəsi yekunlaşıb

**"Dədə Ələsgər Ocağı" İctimai Birliyinin reallaşdırdığı "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı" layihəsinin yekun tədbiri keçirilib. Layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə reallaşıb.**




Tədbirdə əvvəlcə şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

"Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli layihə çərçivəsində Gəncə, Saatlı, Sabirabad və Bərdə şəhərlərində silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O qeyd edib ki, yekun mərasiminin Bakı şəhərində təşkili təsadüfi deyil. "Çünki paytaxtda da çoxsaylı qərbi azərbaycanlı soydaşlarımız, erməni vandallarının zorakılığı nəticəsində ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalan insanlar yaşayır. Layihənin əsas məqsədi qərbi azərbaycanlı soydaşlarımızın daha sıx yaşadığı bölgələrdə ustad aşıq Dədə Ələsgərin adı ilə tədbirlər təşkil etməklə onların Qərbi Azərbaycana qayıdış prosesinə mənəvi hazırlığına töhfə verməkdir", - deyə X.Ələsgərli əlavə edib.

"Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rzazadə, şair-publisist Yusif Nəğməkar və tədqiqatçı Hacı Loğman Qorqud Qərbi Azərbaycan həqiqətlərinin təbliği, milli yaddaşın qorunması və Ustad Ələsgər irsinin gələcək nəsillərə çatdırılmasının əhəmiyyətindən danışıblar.

Tədbir bədii proqramla davam edib.

## Milli Kitabxanada Beynəlxalq Azərbaycan Muğamı Günü ilə bağlı virtual sərgi və kitab sərgisi istifadəçilərə təqdim olunub



**Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. Bu qərar 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və hər il keçirilən Beynəlxalq Niaqara Musiqi Festivalının rəhbərliyi tərəfindən qəbul edilib.**

Qərarın qəbul edilməsi Azərbaycan xalqının milli sərvəti olan muğamın artıq bəşəri musiqiyə çevrildiyini təsdiqləyir. Bu tarix muğamsevərlər, habelə ömrünü bu qədim sənətin yaşadılmasına və təbliğinə həsr edənlər üçün xüsusi əhəmiyyət daşıyır.

Qoca Şərqin ən qədim musiqi janrlarından olan muğam əsrlər boyu tədqiqatçıların diqqətini cəlb edib və bu gün də dünya musiqi mədəniyyətinin öyrənilməsində mühüm obyekt kimi dəyərləndirilir. Azərbaycan xalqının qədim irsi sayılan muğam tarixən enişli-yoxuşlu mərhələlərdən keçsə də, nəsildən-nəslə ötürülərək qorunub saxlanılıb. Müstəqillik dövründə muğam ifaçılığı yeni inkişaf mərhələsinə qədəm qoyaraq Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında mühüm rol oynayır.

Bu əlamətdar gün münasibətlə Milli Kitabxanada "26 avqust - Beynəlxalq Azərbaycan Muğamı Günü" adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.

Virtual sərgidə Azərbaycanın görkəmli şəxsiyyətlərinin muğam sənəti haqqında fikirləri, fotolar, dövri mətbuat materialları, kitablar tam mətnləri ilə təqdim olunur.

Ənənəvi kitab sərgisində isə Azərbaycan muğam dəstgahının tarixi kökləri, muğamların təsnifatı, inkişaf mərhələləri, instrumental muğamlar və onların ifaçılıq nəziyyətləri, Azərbaycanın musiqi xəzinəsi, Qarabağ xanəndəlik məktəbi və tanınmış xanəndələr, onların Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı rolu və s. haqqında Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.

Sərgilərin əsas məqsədi Azərbaycan muğam sənətinin zəngin irsini təbliğ etmək, gənc nəslin bu qədim sənət haqqında daha geniş məlumat almasına şərait yaratmaq və milli musiqimizin dünyada tanıdılmasına töhfə verməkdir.

## Çin nümayəndə heyəti ilə görüş keçirilib

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyində (AZPROMO) Liaonin Xalq Hökumətinin Xarici Əlaqələr İdarəsinin rəis müavini Cao Honqbinin rəhbərlik etdiyi Çin nümayəndə heyəti ilə görüş keçirilib.**

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı agentliyin fəaliyyət istiqamətləri barədə məlumat verilib, Liaonin əyaləti ilə sənaye və kənd təsərrüfatı sahələrində mümkün regional əməkdaşlıq imkanları müzakirə olunub.

Nümayəndə heyətinin rəhbəri Liaonin əyaləti haqqında məlumat verərək, Azərbaycan ilə iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirib. Tərəflər həmçinin Azərbaycanda və Liaonin əyalətində keçirilməsi nəzərdə tutulan tədbirlər ətrafında fikir mübadiləsi aparıblar. Qeyd edilib ki, qarşılıqlı iştirak bu tədbirlərin ikitərəfli münasibətlərin, xüsusilə də investisiya sahəsində tərəfdaşlığın inkişafına mühüm töhfə verə bilər.



## Azərbaycanın turizm imkanları MDB ölkələrində təqdim olunub



**Azərbaycan Turizm Bürosu tərəfindən avqustun 18-25-də Özbəkistanın Daşkənd, Qazaxıstanın Astana və Almatı, həmçinin Belarusun Minsk şəhərində keçirilən silsilə tədbirlərdə ölkəmizin turizm imkanları nümayiş etdirilib.**

Bu barədə AZƏRTAC-a Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, tədbir çərçivəsində keçirilən görüşlərdə Özbəkistandan 50, Qazaxıstandan 70, Belarusdan isə 70 aparıcı turizm şirkəti, eləcə də ölkəmizdən "Azərbaycan Hava Yolları" QSC, hotel və turizm şirkətləri ilə birgə ümumilikdə 10 yerli turizm sənayesi təmsilçisi iştirak edib.

İştirakçılara Azərbaycanın sahil turizmi, dağ-xizək kurortları, sağlamlıq və spa mərkəzləri, mədəni və qastronomik marşrutları təqdim olunub, "Formula 1 Qatar Airways Azərbaycan Qran Prisi 2025" beynəlxalq tədbiri barədə məlumat verilib. Təqdimatlardan sonra keçirilən B2B formatlı görüşlərdə əməkdaşlıq imkanları müzakirə edilib.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 178 (9923) 24 avqust 2025-ci il BAZAR
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Dostluğa, qardaşlığa və ortaq milli dəyərlərə söykənən tərəfdaşlıq
Azərbaycan, Türkmənistan və Özbəkistan arasındakı üçtərəfli əməkdaşlıq formatı münasibətlərdə yeni səhifə açır
Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya
Azərbaycan-Özbəkistan-Türkmənistan enerji əməkdaşlığı uğurlu olacaq
Kəlbəcərə həyat qayıdır
Erməni vandalizmi heç vaxt unudulmayacaq
azerbaijan-news.az

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## Azərbaycan millisinin futbolçusu "Araz-Naxçıvan"a keçib

**"Araz-Naxçıvan" daha bir futbolçu ilə müqavilə imzalayıb.**

Klubdan AZƏRTAC-a verilən məlumata görə, Coşqun Diniyev cari mövsümün sonuna qədər "qırmızı-ağlar"ın formasını geyinəcək. Yarımmüdafiəçi ilə anlaşma 1 illikdir.

Qeyd edək ki, Azərbaycan millisinin də formasını geyinən C.Diniyev müxtəlif illərdə Premyer Liqanın "İnter", "Qarabağ", "Sabah" və "Zirə" klublarında çıxış edib. O, Türkiyənin "Ümraniyəspor", "Bandırmaspor" komandalarının hər birində bir mövsüm keçirib. 30 yaşlı futbolçunun son klubu isə "Çorum" olub.

## Azərbaycan badmintonçuları beynəlxalq turnirdə 11 medal qazanıblar

**Azərbaycanın uşaq və yeniyetmə badmintonçuları Gürcüstanın Batumi şəhərində keçirilən beynəlxalq turnirdə 11 medal qazanıblar.**

Badminton Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Mələk Təhməzli və Muxtar Bədəlov 11, Omar Mehdi və Dəniz Əhmədli 13, Fərəc Kərimli isə 15 yaşadək badmintonçuların mübarizəsində müxtəlif kateqoriyalar üzrə medalçılar sırasında yer alıblar.

Badmintonçular turnirdə ümumilikdə 7 qızıl, 3 gümüş və 1 bürünc mükafata sahib çıxıblar.

Qeyd edək ki, Azərbaycan badmintonçuları Batumidə ənənəvi olaraq keçirilən "Youth International" turnirində ötən il 5-i qızıl, 5-i gümüş və 6-sı bürünc olmaqla 16 medal əldə etmişdilər.

**BEYNƏLXALQ HƏYAT**

## Aİ ABŞ-nin BCM rəsmilərinə sanksiya tətbiq etmək qərarından məyus olub



Avropa İttifaqı (Aİ) ABŞ-nin Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) 4 nümayəndəsinə sanksiya tətbiq etmək qərarına görə dərin təəssüf ifadə edib. Bu barədə Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Avropa Xarici Fəaliyyət Xidmətinə (EEAS) istinadən məlumat verib.

Kallas BCM-nin beynəlxalq ədalətin və cəzasızlıqla mübarizənin "məhək daşı" olduğunu, ən ağır cinayətlərə görə cavabdeh olanların məsuliyyətə cəlb olunmasını təmin etdiyini və qurbanların səsini eşitdiyini vurğulayıb. Avropa diplomatiyasının rəhbəri qeyd edib ki, Aİ məhkəməyə güclü dəstək verməkdə davam edir. O xəbərdarlıq edib ki, Vaşinqtonun iki prokuror müavini və iki hakimə qarşı sanksiyaları prokurorluğun işinə və davam edən araşdırmalara mənfi təsir göstərə bilər. O, həmçinin BCM-in müstəqil və qərəzsiz fəaliyyət göstərməsinin vacibliyini vurğulayaraq məhkəməyə, onun seçilmiş nümayəndələrinə, əməkdaşlarına və tərəfdaşlarına qarşı hücum və təhdidlərin qəbuledilməz olduğunu bildirib.

Ali Nümayəndə Aİ-nin BCM-i və onun əməkdaşlarını xarici təzyiq və təhdidlərdən qorumaq öhdəliyini təkrarlayıb və bütün dövlətləri həbs qərarlarını dərhal icra etmək və könüllü sazişlər bağlamaq da daxil olmaqla məhkəmə ilə tam əməkdaşlığa çağırıb. Kallas həmçinin qeyd edib ki, Brüssel Prezident Donald Trampın sanksiya sərəncamının təsirini yaxından izləyir və mümkün gələcək addımları qiymətləndirəcək.

Avqustun 20-də ABŞ-nin dövlət katibi Marko Rubio bəyan edib ki, Prezident Trampın sərəncamına əsasən, BCM-in dörd məmuru İsrailə qarşı mövqelərinə görə sanksiyaya məruz qalıb. Onların arasında hakimlər Kimberli Prost və Nicola Giyu, həmçinin prokuror müavinləri Nazhat Şamim Xan və Mam Mandiaye Nianq var. Rubionun sözlərinə görə, bu şəxslər "ABŞ və İsrail vətəndaşlarını öz dövlətlərinin razılığı olmadan araşdırmaq, həbs etmək və ya mühakimə etmək məqsədi daşıyan ICC fəaliyyətlərində birbaşa iştirak ediblər".

## D.Tramp ABC və NBC kanallarının lisenziyalarını ləğv etməyə çağırıb

ABŞ Prezidenti Donald Tramp hesab edir ki, ABC və NBC telekanallarının lisenziyaları ləğv edilməlidir.

"ABC və NBC dünyanın ən pis və ən qərəzli şəbəkələrindən ikisidir, onlar milyonlarla dollar lisenziya haqqı ödəmirlər, saxta xəbərlər yayırlar, respublikaçıları və mühafizəkarları haqsız yerə işıqlandırırlar və mənim haqqımda 97 faiz mənfi informasiyaya malikdirlər. Əgər bu doğrudursa, onlar sadəcə olaraq Demokratik Partiyanın bir qoludur və çoxlarının fikrincə, FCC (Federal Rabitə Komissiyası) onların lisenziyasını geri almalıdır. Mən də bunun tərəfdarıyam, çünki onlar o qədər qərəzli və yalançıdır ki, bu, demokratiyamız üçün real təhlükə yaradır!!!" - Tramp "Truth Social" sosial şəbəkəsində belə yazıb. "Vicdansız "jurnalistika təşviq edilməməlidir, buna son qoyulmalıdır!!!", - deyə Prezident bildirib.

Xatırladaq ki, ötən ay Donald Tramp ictimai yayımçılar NPR və PBS telekanallarının maliyyəsini əhəmiyyətli dərəcədə azaltmaq üçün qanun layihəsi imzalamışdır.

## Kim Çen In yeni raket sınaqlarına şəxsən nəzarət edib

Koreya Mərkəzi Xəbər Agentliyinin (KCNA) məlumatına görə, avqustun 24-də Şimali Koreya rəhbəri Kim Çen In yeni zenit-raket komplekslərinin sınaqlarına şəxsən nəzarət edib. Bildirilir ki, sınaqlar yeni hava hücumundan müdafiə sistemlərinin döyüş xüsusiyyətlərini qiymətləndirən bir neçə yüksək rütbəli hərbçinin iştirakı ilə həyata keçirilib.

Pxenyanın yeni zenit-raket sınaqları KXDR-in müdafiə qabiliyyətini gücləndirmək istəyini nümayiş etdirmək, həmçinin ABŞ və Cənubi Koreyaya hava məkanını qorumağa hazır olması barədə siqnal göndərmək məqsədi daşıyıb.

"Sınaqlar zamanı xüsusi qeyd olunub ki, iki növ mərmilərin texnoloji xüsusiyyətləri müxtəlif hava hədəflərini vurmaq üçün çox uyğundur", - KCNA bildirib. Dövlət agentliyinin hesabatında raketlərin növləri və sınaqların keçirilmə yeri ilə bağlı təfərrüatlar yoxdur.

ABŞ və Cənubi Koreya arasında avqustun 18-dən davam edən illik birgə hərbi təlimlər və bu ölkələrin prezidentləri arasında keçiriləcək sammit fonunda son günlər Koreya yarımadasında gərginlik artıb. Şimali Koreya bildirir ki, təlimlər düşmən xarakterlidir.

## Vyetnamda "Kadziki" qasırğasına görə 325 min adam təxliyə olunur

"Channel News Asia" telekanalı xəbər verir ki, Vyetnam hökuməti sürətlə yaxınlaşan "Kadziki" qasırğası ərəfəsində 325 mindən çox insanın təxliyə edilməsinə göstəriş verib və bir neçə hava limanını bağlayıb.

Hakimiyyət orqanları beş sahil vilayətinin sakinlərini təxliyə edir. Bu rayonlardakı məktəblər və ictimai binalar müvəqqəti sığınacaqlara çevrilib. Vyetnam Mülki Aviasiya İdarəsinin məlumatına görə, Thanh Hoa və Quang Binh əyalətlərində iki hava limanı bağlanıb. Vyetnam Hava Yolları və Vietjet bölgəyə və bölgədən onlarla reysləri ləğv edib.

Meteoroloqların məlumatına görə, küləyin sürəti 166 km/saata çatan tayfun Vyetnamın mərkəzi sahillərinə yaxınlaşır. Tayfunun yolundakı bütün balıqçı gəmiləri limanlara geri çağırılıb.

Vyetnam hökuməti "Kadziki"nin ötən ilin sentyabrında ölkəni vuran, təxminən 300 nəfərin ölümünə və təxminən 3,3 milyard dollar ziyana səbəb olan "Yagi" tayfunu qədər güclü ola biləcəyini bildirib. Fırtınanın mərkəzinin Vyetnamın şimalındakı Thanh Hoa və Nqhe An əyalətləri arasında olacağı gözlənilir. "Channel News Asia" bildirib ki, "Kadziki" bu il Vyetnamı vuran beşinci qasırğadır.

## Hindistanda güclü musson yağışları 298 nəfərin həyatına son qoyub

"Hindustan Times" qəzetinin məlumatına görə, iyun ayından sentyabr ayına kimi Cənubi Asiyanı əhatə edən musson mövsümü xeyli sayda insan və maddi itkilərə səbəb olmaqda davam edir. Səlahiyyətlilər iyunun 20-dən bəri daşqınlar, sürüşmələr və yol qəzaları nəticəsində 298 nəfərin öldüyünü bildiriblər. Yağışlar infrastruktura da ziyan vurub. 482 yol bağlanıb, 941 transformator və 95 magistral su xətti sıradan çıxıb.

Eyni zamanda leysan yağışlar ölkənin cənub-şərqindəki Andhra Pradeş ştatında da qeyri-adi hadisəyə səbəb olub. Yerli sakinlər və qonaqlar yağışların üzə çıxardığı qiymətli daşları tapmaq üçün çoxlu sayda almaz tapılan əraziləri araşdırmağa başlayıblar. Bu xəzinə ovu bölgədə musson ənənəsinə çevrilib.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Hərbi Dəniz Qüvvələrində dalğıc kurslarının buraxılış mərasimi keçirilib




**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) təşkil edilmiş "Təməl dalğıc kursu" və "Dalğıc işində rəhbərlik kursu"nun buraxılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, həmçinin Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Tədbirdə çıxış edənlər bu cür kursların keçirilməsinin şəxsi heyətin ixtisas və döyüş hazırlığının artırılmasına mühüm töhfə verdiyini diqqətə çatdırıblar.

Qeyd edilib ki, HDQ-nin Dəniz piyadaları, Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları və Fövqəladə Hallar Nazirliyinin nümayəndələrinin iştirak etdiyi kurs müddətində su altında nəfəssiz qalma, dalğıc işlərinin və texnikalarının mənimsənilməsi, dalğıc işində praktiki rəhbərlik məşqləri, eləcə də digər vacib fəaliyyətlər həyata keçirilib, iştirakçılar peşəkar dalğıc bacarıqları əldə ediblər.

Sonda kursu müvəffəqiyyətlə başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

## Küləkli hava şəraiti ilə bağlı sarı xəbərdarlıq verilib

**Milli Hidrometeorologiya Xidməti avqustun 26-dan 29-dək Bakıda və Abşeron yarımadasında, eyni zamanda bəzi bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı xəbərdarlıq verib.**

Xidmətdən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında, Naxçıvan Muxtar Respublikasında, Ağdam, Ağcabədi, Tovuz, Ağstafa, Qazax, Samux, Göygöl, Şəmkir, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Naftalan, Mingəçevir, Hacıqabul, Sabirabad, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Yevlax, Tərtər, Bərdə, Kəlbəcər, Laçın, Zəngilan, Füzuli, Cəbrayıl, Qobustan, Şirvan, Salyan, Neftçala, Beyləqan, Biləsuvar, Lerik, Yardımlı və Cəlilabadda fasilələrlə şimal-qərb küləyi əsəcək, küləyin sürəti saniyədə 13.9-20.7 metr təşkil edəcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Ramiz Zeynalov və Niftulla Əzizov Tofiq Bağırova oğlu
**XALİD BAĞIROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rüstəm Rüstəmov, Qambay Muradov, Sədrəddin Atakişizadə, Cavid Əsədov, Ayaz Qasımov, Abid Əliyev, Elxan Behbudov, Elxan İlyasov və Rafiq Hüseynov dostları Vəkil Şükürova əzizi
**RAİL NƏSİB OĞLU KƏRİMOVUN**
Sabirabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rüstəm Rüstəmov, Qambay Muradov, Sədrəddin Atakişizadə, Cavid Əsədov, Ayaz Qasımov, Abid Əliyev, Elxan Behbudov, Elxan İlyasov və Rafiq Hüseynov dostları Əlikram Qasımova əzizi
**RAİL NƏSİB OĞLU KƏRİMOVUN**
Sabirabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## "Bakıxanov Trikotaj" ASC səhmdarlarının nəzərinə

"Səhmdar Cəmiyyəti" haqqında Azərbaycan Respublikası Qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 4 sentyabr 2025-ci il tarixdə saat 12:00-da növbəti yığıncağa dəvət edir. Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq:

1. 2024-cü il üzrə mühasibat balansı və hesabatların təsdiq edilməsi.
2. Cari məsələlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Yavər Əliyev küçəsi, 26**
**Əlaqə telefonu: (012) 425-23-22**

***"Bakıxanov Trikotaj" ASC***

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3940
Sifariş 1762

Qiyməti 60 qəpik